XƏZƏR XƏBƏR

№ 466
NOYABR 2026

KHAZAR REVIEW



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org


ZƏFƏR YOLU - QÜRUR YOLU



Azərbaycanımızın qürur dolu illəri sıralanmaqdadır. Yurd həsrətli insanlarımızın diləklərinin, arzularının gerçəyə çevrilməsi, halal yurdlarımızın, halal ocaqlarımızın öz sakinlərinə qovuşması hər kəsin qəlbində qürur, iftixar hissləri doğurur. Və belə günlərdə, bayram süfrələrinin arxasında qalibiyyətimiz, zəfərimiz üçün canlarını fəda etmiş vətən övladları bir daha ehtiramla yad edilir, qazilərimizə can sağlığı, qalib ordumuza minnətdarlıq bildirilir, uğurlar arzulanır. Əlbəttə, bu günlərə elə-belə gəlib çatmamışıq. Böyük əziyyətlərdən, çətinliklərdən, həyatın bütün sınaqlarından dözümlə, əzmlə çıxmaqla və ən əsası, dövlətimizə inanmaqla məqsədimizə nail olmuşuq.

(*Davamı 6-cı səh-də*)




8 NOYABR
ZƏFƏR
Günü
8 NOYABR 2020
İLHAM
ƏLİYEV





İÇİNDƏKİLƏR

Zəfər yolu - Qürur yolu 6
Prof.Akad. Hamlet İsaxanlı beynəlxalq elmi konfransda 8
Prof.Akad. Hamlet İsaxanlının "Adlarımız, Soyadlarımız və Soyad sonluqlarımız" adlı məqaləsi "Altıncı Türkçülük Çalışmaları: Milli Simvollar və Dəyərlər" kitabında 9
Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva 3-cü Beynəlxalq Türk Dünyası Qadınlar Çalışтayında 10
XII Bakı Beynəlxalq Kitab Sərgisində Prof. Akad. Hamlet İsaxanlının "İki mədəniyyət: Elm və Sənət" adlı təqdimatı 12
Ali təhsildə süni intellektin tətbiqinin genişləndirilməsinə həsr olunmuş "Təhsil işçiləri üçün süni intellekt" təlimi 14
Naxçıvan Dövlət Universitetində Nailəxanım Təqaüd Proqramı təqdim olundu 16
"Dünya" Teatrı Zəfər Gününə həsr olunmuş " Kamança" tamaşasını təqdim edib 18
Xəzər Universiteti 2026/2027-ci tədris ilində: yeni qəbul nəticələri və ümumi tələbə sayı 22
"Clarivate Günləri" çərçivəsində təlim 26
Hasvet Baytarlıq təbabəti fakültəsində "Dünya" məktəbinin şagirdləri ilə görüş 28
Şopron Universitetinin nümayəndələri "Xəzər"də 30
Şirvanşahlar Sarayı Muzey Kompleksində dərs 31
DevOps mövzusunda seminar 32
Müəllimlər respublika elmi konfransında 34
Tələbələr Folklor İnstitutunda elmi-tədqiqat təcrübəsinə başlayıblar 36
Müstəqilliyin Bərpası Gününə həsr olunmuş seminarlar 37
"Qızların təhsilinə dəstək" layihəsinin 5 illiyinə həsr olunmuş tədbir 38
Hamlet İsaxanlı. Yağış yağır, sevgilim (*povestin davamı*) 40
"Məzunlarla səhər yeməyi" xeyriyyə tədbiri 62
Zəfərin ildönümü auditoriyalarda 67
"Zəfərin şahidləri: tarixdən gələcəyə" adlı tədbir keçirilib 68
Tarix və arxeologiya departamentində "Zəfər həftəsi" 70
Xəzər Universitetinin Beynəlxalq indeksli elmi jurnalının yeni nömrəsi nəşr olunub 71
"QCD and Compact Stars" mövzusunda elmi seminar 72
SunLab MMC ilə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb 74
Erasmus+ proqramı çərçivəsində beynəlxalq əməkdaşlıq görüşləri 76
"Xəzər"in əməkdaşı Birləşmiş Krallıqda keçirilən tədbirlərdə 78
Məzunlar üçün beynəlxalq karyera imkanları 80
Bişkekdə Azərbaycan dili və ədəbiyyatına həsr olunmuş beynəlxalq elmi simpozium 82
Qarabağ və Şərqi Zəngəzurun Türk-İslam irsi beynəlxalq simpoziumda müzakirə olunub 85

1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Telman Nəzərli

Məsul katib
Nazim Əlifov

Foto:
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

Redaksiya heyəti:
Əlirza Balayev
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Qəzənfər Paşayev
Knyaz Aslan

İngilis dilinə tərcümə və redaktə:
Elmira Cahangirli

Kompüter tərtibatçısı:
Günel Əkbərova

CONTENTS

Road of Victory - Road of Pride....6
Prof. Acad. Hamlet Isakhanli in International Academic Conference....8
Prof. Acad. Hamlet Isakhanli's Article "Our Names, Surnames, and Surname Endings" in "Sixth Turkism Studies: National Symbols and Values"....9
Khazar University Rector Dr. Razia Isaeva Participates in 3rd International Turkic World Women's Workshop....10
Prof. Acad. Hamlet Isakhanli's Presentation "Two Cultures: Science and Art" at 12th Baku International Book Fair....12
"AI for Educators" Workshop to Advance AI Integration in Higher Education....14
Nailakhanim Scholarship Programme Presented at Nakhchivan State University....16
"Dunya" Theater Presents "Kamancha" Play Dedicated toVictory Day....18
Khazar University in the 2026/2027 Academic Year: New Admission Results and Total Student Enrollment....22
Training in frame of "Clarivate Days"....26
Meeting with Students of "Dunya" School at Hasvet Faculty of Veterinary Medicine....28
Representatives of University of Sopron at Khazar....30
Class Held at Shirvanshahs' Palace Museum Complex....31
Seminar on DevOps....32
Instructors in National Academic Conference....34
Students Begin Research Internship at Institute of Folklore....36
Seminars Dedicated to Day of Restoration of Independence....37
Event Dedicated to 5th Anniversary of "Support for Girls' Education" Project....38
Hamlet Isakhanli. It is Raining, My Dear (*Continuation of the novella*)....40
"Breakfast with Alumni" Charity Event....62
Victory Anniversary in Classrooms....67
Event "Witnesses of Victory: From History to the Future" Held....68
"Victory Week" at Department of History and Archaeology....70
New Issue of Khazar University's Internationally Indexed Scientific Journal Published....71
Scientific Seminar on "QCD and Compact Stars"....72
Memorandum of Understanding on Cooperation Signed WITH SunLab LLC....74
International Cooperation Meetings Within the Framework of Erasmus+ Program....76
Khazar University Staff Member Participates in Events Held in United Kingdom....78
International Career Opportunities for Graduates....80
International Scientific Symposium on Azerbaijani Language and Literature Held in Bishkek....82
Turkic-Islamic Heritage of Karabakh and Eastern Zangezur Discussed at International Symposium....85

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isakhanli

Associate editor:
Telman Nazarli

Executive Secretary
Nazim Alifov

Photo:
Multimedia Centre

Khazar University
Adress:
41 Mehseti Str. Baku,
Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Circulation: 3000

Editorial members:
Alirza Balayev
Gazanfar Pashayev
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan

Translation and editing into English:
Elmira Jahangirli

Computer graphics:
Gunel Akbarova

ZƏFƏR YOLU - QÜRUR YOLU

BÖYÜK QƏLƏBƏDƏN 6 İL ÖTÜR



Beləcə, illər ötdükcə qələbəyə inam daha da artıb. Prezident İlham Əliyev isə bu inamın reallığa çevrilməsi üçün bütün istiqamətlər üzrə yeni inkişaf strategiyasını gücləndirir, ölkəni yeni çağırışlara əminliklə hazırlayırdı. Azərbaycanın iqtisadi qüdrətinin sürətlə artması, daxili və xarici siyasət sahəsində qazanılan uğurlar, möhtəşəm ordu quruculuğu işi, ölkəmizin bütün komponentlər üzrə regionun lider dövlətinə çevrilməsi və ölkə vətəndaşının yürüdülən siyasətə, aparılan islahatlara, görülən fundamental işlərə inamla yanaşması böyük uğurlara zəmin yaradırdı. Azərbaycanın çoxsahəli tərəqqisi onun dünya birliyi üzvləri arasında sanballı mövqe sahibi olmasını, etibarlı tərəfdaşa çevrilməsini də şərtləndirirdi. Bütün bunlar isə ölkəmizin bir nömrəli problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində yürütdüyü siyasətə də təkanverici təsir göstərirdi. Torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı Azərbaycan dövlətinin mövqeyi birmənalı idi: bir qarış torpaq belə, düşmənə verilməyəcək, münaqişə Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunması çərçivəsində həll ediləcək!

İllər ötdü, 2020-ci ilin payızı gəldi. Və 2020-ci ilin bu payızı da adi payız kimi gəlmişdi. Dəlisov payız küləkləri hələ başlamamışdı. Hələ yarı saralmış yarpaqlar tam qızılı rəngə boyanmamışdı. Əlbəttə, qəlbi vətən sevgisi ilə çırpınan hər kəs belə duyğulu günlərdə işğal altında yolumuzu gözləyən yurd-yuvalarımızı xatırlayırdı. Xatırlaya-xatırlaya qulağımız səsdə idi. Gözümüz yol çəkirdi. Yolların – işğal altındakı torpaqlarımıza doğru gedən yolların isə hərəsi bir cür yarımçıq və yaralı idi. Mərmidən bağrı param-parça olanı, kimsəsizlikdən qəddi əyiləni, qara daşlarını bağrına basıb hıçqırığını içinə çəkəni də vardı bu yarımçıq yolların. Yollar onu gedəni, onu abad edəni, onu başa çatdıranı gözləyirdi. Yollar ordumuzu, qəhrəman Vətən oğullarını gözləyirdi...

Beləcə, Ali Baş Komandan İlham Əliyevin əmri ilə 2020- ci il sentyabrın 27- də əks-hücuma keçən qüdrətli Azərbaycan Silahlı Qüvvələri torpaqlarımızı işğaldan azad etdi. Suverenliyimiz bərpa olundu. Ölkəmizin hər guşəsində dövlətimizin bayrağı dalğalandı. Azad edilmiş torpaqlarımız minalardan təmizlən-



məyə başlandı. Qısa zamanda abadlıq-quruculuq, tikinti işləri geniş vüsət aldı. Yollar çəkildi, aeroportlar inşa edildi. Qalalar qalası Şuşa şəhəri öz doğmalarından əlavə, beynəlxalq tədbirlərə qucaq açdı... "Böyük Qayıdış" proqramına uyğun soydaşlarımız məcburi köçkünlük həyatına əlvida deyib öz doğma yurd-yuvalarına dönməyə başladılar.

Bəli, artıq üzü Qarabağa, üzü bir zamanlar işğal altında olmuş torpaqlarımıza bütün yolları qürurla gedirik. Çünki Qarabağ Azərbaycandır! Bu hələ son deyil. Hələ deyəcəyimiz yeni sözümüz, gedəcəyimiz yeni yolumuz var. Böyük Qələbəmizin 6- cı ildönümünü bu duyğularla qarşılamaqdan qürurlu nə ola bilər!..

Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sözləri ilə desək: "Bizim təhlükəsizliyimizin qarantı biz özümüzük – dövlət, xalq və Silahlı Qüvvələrimiz. Ona görə, əgər kiminsə xəstə ağlına Azərbaycana qarşı hər hansı bir təxribat törətmək gələrsə, məncə, yenə də peşman olacaq. Biz isə bundan sonra müzəffər xalq və müzəffər, qalib dövlət kimi yaşayacağıq".

Telman Nəzərli
Birinci Qarabağ müharibəsi veteranı, Əməkdar jurnalist



Hamlet İsaxanlı

PROF.AKAD. HAMLET İSAXANLI BEYNƏLXALQ ELMİ KONFRANSDA

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı 16-19 oktyabr aralığında Çin Xalq Respublikasında səfərdə olub. Səfər çərçivəsində Hamlet İsaxanlı filologiya üzrə fəlsəfə doktoru, Pekin Xarici Dillər Universitetinin Asiya fakültəsində Azərbaycan dili kafedrasının yaradıcısı, müəllimi və tədqiqatçısı, Xəzər Universitetinin Çin Tədqiqatlar Mərkəzinin direktoru Aqşin Əliyevin dəvətilə Pekin Xarici Dillər Universiteti Asiya fakültəsinin təşkilatçılığı ilə keçirilən "İkinci Çin Azərbaycanşünaslıq ElmAi Konfransı"nda istirak edib. Konfransın açılış mərasimində Pekin Xarici dillər Universitetinin Asiya fakültəsinin dekanı Malay dili üzrə professor Su Yingying, professor Hu Cenhua, Çin Tarixşünaslıq Assosiasiyasının sədr müavini Day Cienbinq və Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı çıxış ediblər.

Prof.Akad. Hamlet İsaxanlı Plenar iclasda "Azərbaycan bədii ədəbiyyatında Çin obrazları" adlı məruzəsini təqdim edib.

PROF. ACAD. HAMLET ISAKHANLI IN INTERNATIONAL ACADEMIC CONFERENCE



Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, visited the People's Republic of China from October 16–19. During his visit, Hamlet Isakhanli participated in the Second Academic Conference on Azerbaijan Studies in China, organized by the Faculty of Asian Studies at Beijing Foreign Studies University.

At the conference's opening ceremony, speeches were delivered by Su Yingying, Dean of the Faculty of Asian Studies at Beijing Foreign Studies University and a professor of Malay language; Professor Hu Zhenhua; Dai Jianbing, Vice President of the Chinese Association of Historiography; and Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of its Board of Directors and Trustees.

During the plenary session, Prof. Acad. Hamlet Isakhanli presented his paper entitled "Images of China in Azerbaijani Fiction."

PROF.AKAD. HAMLET İSAXANLININ "ADLARIMIZ, SOYADLARIMIZ VƏ SOYAD SONLUQLARIMIZ" ADLI MƏQALƏSİ "ALTINCI TÜRKÇÜLÜK ÇALIŞMALARI: MİLLİ SİMVOLLAR VƏ DƏYƏRLƏR" KİTABINDA

PROF. ACAD. HAMLET ISAKHANLI'S ARTICLE "OUR NAMES, SURNAMES, AND SURNAME ENDINGS" IN "SIXTH TURKISM STUDIES: NATIONAL SYMBOLS AND VALUES" BOOK



Mayın 26-da Xəzər Universitetində keçirilmiş " Altıncı Türkçülük Çalışmaları: Milli Simvollar və Dəyərlər" mövzusunda konfransın materiallar toplusu nəşr olunub. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlının "Adlarımız, Soyadlarımız və Soyad sonluqlarımız" adlı məqaləsində rəsmi və mədəni milli rəmzlərdən, milli dəyərlərdən, müraciət formalarından, Azərbaycanda, ümumilikdə türk dünyasında istifadə olunan ad və soyadlarından söhbət açılıb.

The proceedings of the conference "Sixth Turkism Studies: National Symbols and Values," held at Khazar University on May 26, have been published. In the article "Our Names, Surnames, and Surname Endings" by Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, official and cultural national symbols, national values, forms of address, and the names and surnames used in Azerbaijan and in the Turkic world in general are discussed.

XƏZƏR UNİVERSİTETİNİN REKTORU DR. RAZİYƏ İSAYEVA 3-CÜ BEYNƏLXALQ TÜRK DÜNYASI QADINLAR ÇALIŞTAYINDA

Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva 22–23 oktyabrda Şimali Makedoniyanın paytaxtı Skopyedə keçirilən 3-cü Beynəlxalq Türk Dünyası Qadınlar Çalıştayında iştirak edib və elmi məruzə ilə çıxış edib.

Türk Dünyasının qabaqcıl qadınlarını bir araya gətirən tədbir Umay Ana Türk Dünyası Qadınlar Birliyinin təşkilatçılığı, Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, TÜRKSOY, TİKA, YTB və digər tərəfdaş qurumların əməkdaşlığı ilə təşkil olunub.

Çalıştay TÜRKSOY-un "Türk dünyasında qadın" mövzusuna həsr edilmiş xüsusi rəsm sərgisinin açılışı ilə başlayıb. Sərgidə türk qadınının tarix boyu oynadığı önəmli rol, mədəni irsin qorunmasına verdiyi töhfələr və ictimai həyatda mövqeyi sənətin dili ilə əks olunub.

Tədbir çərçivəsində Dr. Raziyə İsayeva "Hənifə Məlikovanın təhsil və maarifçilik irsindən davamlı gələcəyə: elm, texnologiya, sahibkarlıq və liderlikdə

KHAZAR UNIVERSITY RECTOR DR. RAZIA ISAEVA PARTICIPATES IN 3RD INTERNATIONAL TURKIC WORLD WOMEN'S WORKSHOP

Dr. Razia Isaeva, Rector of Khazar University, participated in the 3rd International Turkic World Women's Workshop, held on October 22–23, in Skopje, the capital of North Macedonia, where she delivered an academic presentation.

The event, which brought together prominent women from across the Turkic World, was organized by the Umay Ana Turkic World Women's Union in cooperation with the Ministry of Culture and Tourism of the Republic of Türkiye, TURKSOY, TİKA, YTB, and other partner institutions.



The workshop opened with a special art exhibition organized by TURKSOY on the theme "Women in the Turkic World." The exhibition used the language of art to portray the significant role of Turkic women throughout history, their contributions to the preservation of cultural heritage, and their place in public life.

As part of the event, Dr. Razia Isaeva delivered a presentation entitled "From Hanifa Malikova's Educational and Enlightenment Legacy to a Sustainable



Yeliz Daut Kurtiş, Raziyə İsayeva



Zülfikar Zeynulla



Kamelya Tekne

Azərbaycan qadınları" mövzusunda məruzə ilə çıxış edib.

Məruzədə Azərbaycan qadınlarının tarix boyu təhsil, elm, ədəbiyyat, iqtisadi fəaliyyət və ictimai liderlik sahələrinə verdikləri töhfələr, eləcə də bu irsin gələcək nəsillərə ötürülməsi məsələləri diqqətə çatdırılıb. Çıxışda Sara Xatunun diplomatik fəaliyyəti, Xurşidbanu Natəvanın ədəbi və ictimai fəaliyyəti, Həmidə Cavanşirin təhsil və istehsal sahəsindəki təşəbbüsləri, İzzət Orucovanın elmi və texnoloji çalışmaları kimi tarixi nümunələrə toxunulub.

Məruzənin əsas diqqət mərkəzində maarifçi və pedaqoq Hənifə Məlikovanın təhsil və maarifçilik irsi dayanıb. Onun təhsil fəaliyyətinin, məktəb rəhbərliyinin, qızların təhsilinə verdiyi töhfələrin və xatirə yazılarının Azərbaycan qadınlarının ictimai və intellektual həyatındakı rolu baxımından əhəmiyyəti vurğulanıb. Qadın əməyinin tanınması, peşəkar inkişaf imkanlarının genişləndirilməsi və qərar qəbuletmə proseslərində qadınların rolunun gücləndirilməsi davamlı gələcəyin əsas istiqamətləri kimi təqdim edilib.

İki gün davam edən çalıştay Türk dünyasında qadınların elm, mədəniyyət, incəsənət, təhsil və ictimai həyatda rolunun müzakirəsi, eləcə də ortaq mədəni dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından əhəmiyyətli platforma olub. Tədbirdə müxtəlif ölkələrdən akademiklər, tədqiqatçılar və vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri iştirak ediblər.

Future: Azerbaijani Women in Science, Technology, Entrepreneurship, and Leadership."

The presentation highlighted the contributions of Azerbaijani women throughout history to education, science, literature, economic activity, and public leadership, as well as the importance of passing this legacy on to future generations. The presentation also explored historical examples, including Sara Khatun's diplomatic activities, Khurshidbanu Natavan's literary and public engagement, Hamida Javanshir's initiatives in education and production, and Izzat Orujova's work in science and technology.

The central focus of the presentation was the educational and enlightenment legacy of Hanifa Malikova, an educator and advocate of enlightenment. The significance of her educational activities, school leadership, contributions to girls' education, and memoirs was emphasized in terms of the role Azerbaijani women have played in public and intellectual life. Recognition of women's work, expanding professional development opportunities, and strengthening women's roles in decision-making processes were presented as key priorities for a sustainable future.

The two-day workshop served as an important platform for discussing the role of women in the Turkic World in science, culture, the arts, education, and public life, as well as the preservation of shared cultural values and their transmission to future generations. Academics, researchers, and representatives of civil society organizations from various countries attended the event.

XII BAKI BEYNƏLXALQ KİTAB SƏRGİSİNDƏ PROF. AKAD. HAMLET İSAXANLININ "İKİ MƏDƏNİYYƏT: ELM VƏ SƏNƏT" ADLI TƏQDİMATI

XII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində oktyabrın 23-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlının "İki mədəniyyət: Elm və Sənət" adlı təqdimatı keçirilib.

Bakı Ekspo Mərkəzinin "SOCAR" təqdimat zonasında təşkil olunan tədbir Xəzər Universitetinin 35 illik yubileyinə həsr olunmuş "Xəzərin imzası" filminin nümayişi ilə başlayıb.

Tədbirin aparıcısı, Xəzər Universiteti Kitabxana-

PROF. ACAD. HAMLET ISAKHANLI'S PRESENTATION "TWO CULTURES: SCIENCE AND ART" AT 12TH BAKU INTERNATIONAL BOOK FAIR

As part of the 12th Baku International Book Fair, a presentation titled "Two Cultures: Science and Art" by Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, was held on October 23, 2026.

The event, organized in the "SOCAR" presentation zone of the Baku Expo Center, began with a screening of the film "Khazar's Signature," dedicated to the 35th anniversary of Khazar University.

Aytaj Misgarli, the event's host and Director of





Hamlet İsaxanlı







Aytac Misgərli

İnformasiya Mərkəzinin direktoru Aytac Misgərli universitetin 35 illik fəaliyyət yoluna, elm və təhsil sahəsindəki roluna diqqət çəkib. İştirakçılara Xəzər Universitetinin tarixini, inkişaf yolunu və dəyərlərini əks etdirən "Xəzərin imzası" filmi təqdim olunub.

Filmin nümayişindən sonra Prof.Akad. Hamlet İsaxanlı "İki mədəniyyət: Elm və Sənət" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda H. İsaxanlı elm və sənətin qarşılıqlı əlaqəsi, bu iki sahənin insan düşüncəsinin və mənəvi dünyasının formalaşmasındakı rolu, eləcə də onların cəmiyyətin inkişafına təsiri ətrafında fikirlərini bölüşüb.

Hamlet İsaxanlı elmi düşüncə ilə bədii yaradıcılığın əlaqəsinə toxunaraq, elm və sənətin insanın dünyanı dərk etməsindəki əhəmiyyətini vurğulayıb. Təqdimat iştirakçılara bu iki sahənin fərqli ifadə formaları ilə yanaşı, onları birləşdirən ortaq dəyərlər haqqında düşünmək imkanı yaradıb.

Təqdimat kitabsevərlər tərəfindən maraqla qarşılanıb. Görüş iştirakçılar üçün elm, sənət və yaradıcılıq arasındakı əlaqələri daha dərindən anlamaq, eyni zamanda, Prof.Akad. Hamlet İsaxanlının fikir və mülahizələri ilə tanış olmaq baxımından əhəmiyyətli olub.

Qeyd edək ki, XII Bakı Beynəlxalq Kitab Sərgisi 2026-cı il 21-27 oktyabr aralığında "Həyat ekrandan böyükdür: bir uşaq, bir kitab, bir gerçək dünya" şüarı altında keçirilib. Sərgi kitab və mütaliə mədəniyyətinin təşviqi ilə yanaşı, elmi və yaradıcı fikir mübadiləsi üçün də mühüm platforma rolunu oynayıb.

Khazar University's Library and Information Center, drew attention to the university's 35-year path of activity and its role in science and education. The film "Khazar's Signature," reflecting the history, development path, and values of Khazar University, was presented to participants.

After the film screening, Prof. Acad. Hamlet Isakhanli delivered a presentation on "Two Cultures: Science and Art." In the presentation, H. Isakhanli shared his thoughts on the interrelationship between science and art, the role of these two fields in shaping human thought and the spiritual world, and their influence on the development of society.

Touching on the connection between scientific thought and artistic creativity, Hamlet Isakhanli emphasized the importance of science and art in a person's understanding of the world. The presentation gave participants the opportunity to reflect on the shared values that unite these two fields, alongside their different forms of expression.

The presentation was received with interest by book lovers. The meeting was significant for participants in terms of gaining a deeper understanding of the connections between science, art, and creativity, as well as becoming acquainted with the views and reflections of Prof. Acad. Hamlet Isakhanli.

It should be noted that the 12th Baku International Book Fair was held on October 21–27, 2026, under the slogan "Life Is Bigger Than the Screen: A Child, A Book, A Real World." In addition to promoting book and reading culture, the fair served as an important platform for scientific and creative exchange of ideas.

ALİ TƏHSİLDƏ SÜNİ İNTELLEKTİN TƏTBİQİNİN GENİŞLƏNDİRİLMƏSİNƏ HƏSR OLUNMUŞ "TƏHSİL İŞÇİLƏRİ ÜÇÜN SÜNİ İNTELLEKT" TƏLİMİ

Xəzər Universitetinin Yüksək Texnologiyalar və Süni İntellekt (ETAI) Tədqiqat Mərkəzinin təşkilatçılığı ilə oktyabrın 23–24-də "Təhsil işçiləri üçün süni intellekt" mövzusunda ikigünlük təlim keçirilib. Təlim müxtəlif universitetləri təmsil edən akademik heyət üzvlərini və müəllimləri

"AI FOR EDUCATORS" WORKSHOP TO ADVANCE AI INTEGRATION IN HIGHER EDUCATION

Khazar University's Emerging Technologies and Artificial Intelligence (ETAI) Research Center organized a two-day "AI for Educators" workshop on October 23–24, bringing together academics and instructors from universities to explore practical applications of artificial intelligence





Dolapo Fakuade

bir araya gətirərək, süni intellektin kursların hazırlanması, tədris, fərdiləşdirilmiş öyrənmə və tələbələrin qiymətləndirilməsi sahələrində praktiki tətbiq imkanlarını araşdırmaq məqsədi daşıyıb.

Təlimdə Xəzər Universiteti, Odlar Yurdu Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Milli Müdafiə Universitetinin nümayəndələri iştirak ediblər. Praktiki tapşırıqlar və birgə fəaliyyətlər vasitəsilə iştirakçılar süni intellekt alətlərinin tədris prosesini necə dəstəkləyə, tədris resurslarını təkmilləşdirə və ali təhsildə meydana çıxan yeni çağırışların həllinə necə töhfə verə biləcəyini araşdırıblar.

Təlimi Xəzər Universitetinin ETAI Tədqiqat Mərkəzinin direktoru və ABŞ-da fəaliyyət göstərən AEGIX İnstitutunun tədqiqatlar üzrə direktoru Dr. Gloria Shkurti Özdemir, eləcə də Böyük Britaniyanın Koventri Universitetinin baş mütəxəssisi və ETAI Tədqiqat Mərkəzinin üzvü Dr. Dolapo Fakuade aparıblar.

Təlimin ilk günü süni intellektin əsaslarına və kursların layihələndirilməsinə həsr olunub. İştirakçılar

in course design, teaching, personalized learning, and student assessment.

The workshop welcomed participants from Khazar University, Odlar Yurdu University, Azerbaijan State University of Culture and Arts, and the National Defense University. Through hands-on exercises and collaborative activities, participants explored how AI tools can support teaching practices, improve educational resources, and address emerging challenges in higher education.

The workshop was delivered by Dr. Gloria Shkurti Özdemir, Director of the ETAI Research Center at Khazar University and Director of Research at AEGIX Institute in the United States, and Dr. Dolapo Fakuade, Senior Associate at Coventry University in the United Kingdom and a member of the ETAI Research Center.

The first day focused on the foundations of AI and course design. Participants assessed their existing educational workflows, identified teaching challenges, and explored how AI could help address them.

Practical sessions covered designing lectures and learning objectives, structuring syllabi, and creating teaching materials, including quizzes, case studies, handouts, and reading summaries.

The second day addressed personalized learning and assessment in an AI-enabled educational environment. Participants used AI to adapt learning materials for students with different needs and abilities and examined approaches to redesigning assessments to ensure meaningful evaluation of student learning. They also drafted AI-use policies for their courses and developed institutional or individual AI Action Plans, presenting their proposed approaches to integrating AI into their educational practices.

The workshop concluded with a reflection session and the distribution of Certificates of Completion issued by Khazar University.

Khazar University continues to prioritize artificial intelligence as a strategic area of education, research, and institutional development. Its AI-related initiatives extend beyond educator training to support faculty members, researchers, and postgraduate students, while creating opportunities for international scholars, researchers, students, and professionals to explore AI's transformative impact on global affairs, diplomacy, and academic innovation. Through these activities, Khazar University seeks to strengthen AI literacy, promote innovative teaching and research, and prepare academic communities to navigate the opportunities and challenges of technological transformation.





Gloria Shkurti Özdemir

mövcud tədris proseslərini təhlil edib, qarşılaşdıqları əsas çətinlikləri müəyyənləşdirib və süni intellektin bu problemlərin həllinə necə kömək edə biləcəyini müzakirə ediblər. Praktiki sessiyalarda mühazirələrin və təlim məqsədlərinin hazırlanması, sillabusların strukturlaşdırılması, eləcə də testlər, nümunəvi situasiyalar, paylama materialları və oxu materiallarının xülasələri daxil olmaqla, müxtəlif tədris resurslarının yaradılması məsələləri əhatə olunub.

İkinci gün süni intellektdən istifadə etməklə, fərdiləşdirilmiş öyrənmə imkanlarına və qiymətləndirmə metodlarının təkmilləşdirilməsinə həsr edilib. İştirakçılar müxtəlif ehtiyac və bacarıqlara malik tələbələr üçün tədris materiallarının uyğunlaşdırılması üzrə praktiki tapşırıqlar yerinə yetirib, tələbələrin bilik və bacarıqlarının daha səmərəli qiymətləndirilməsinə imkan verən yeni yanaşmaları araşdırıblar. Bununla yanaşı, öz kursları üçün süni intellektdən istifadə qaydalarını hazırlayıb, tədris prosesində süni intellektin tətbiqinə dair fərdi və ya institusional Fəaliyyət Planları tərtib edərək təqdim ediblər.

Təlim yekun müzakirə sessiyası və Xəzər Universiteti tərəfindən verilən iştirak sertifikatlarının təqdim olunması ilə başa çatıb.

Xəzər Universiteti süni intellekti təhsil, tədqiqat və institusional inkişafın strateji istiqamətlərindən biri kimi prioritetləşdirir. Universitetin süni intellekt sahəsində təşəbbüsləri yalnız müəllimlərin peşəkar inkişafı ilə məhdudlaşmır, həmçinin, professor-müəllim heyətinin, tədqiqatçıların və doktorantların bu sahədə bilik və bacarıqlarının artırılmasını hədəfləyir. Bununla yanaşı, beynəlxalq alimlər, tədqiqatçılar, tələbələr və mütəxəssislər üçün süni intellektin qlobal məsələlərə, diplomatiyaya və akademik innovasiyalara transformativ təsirini araşdırmaq imkanları yaradılır. Bu təşəbbüslər vasitəsilə Xəzər Universiteti süni intellekt savadlılığını gücləndirməyi, innovativ tədris və tədqiqat yanaşmalarını təşviq etməyi, akademik icmanı texnoloji transformasiyanın yaratdığı imkanlardan səmərəli istifadə etməyə və onun doğurduğu çağırışlara hazır olmağa dəstəkləməyi qarşısına məqsəd qoyur.

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ NAİLƏXANIM TƏQAÜD PROQRAMI TƏQDİM OLUNDU

Naxçıvan Dövlət Universitetində oktyabrın 27-də Nailəxanım Təqaüd Proqramının təqdimatı keçirildi. Xəzər Universitetində magistratura və doktorantura təhsili almaq istəyən istedadlı gənc qadınlara verilən təqaüd proqramı haqqında tədbir iştirakçılarına geniş məlumat təqdim olundu.



Elbrus İsayev

Tədbiri açan Naxçıvan Dövlət Universitetinin rektoru, Beynəlxalq münasibətlər kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev qonaqları salamlayaraq, Xəzər Universitetinin Azərbaycanın nüfuzlu ali təhsil müəssisələrindən biri olduğunu bildirdi. O, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlının həyat yolundan danışaraq, alimin Azərbaycan elminin, təhsilinin və maarifçiliyinin inkişafındakı xidmətlərini vurğuladı.

"Bu, təkcə təqaüd deyil, yeni həyat səhifəsidir"

Nailəxanım Fondunun rəhbəri, "Dünya" Məktəbi MMC-nin direktoru Aygün Gardiner çıxışında təqaüdün yaranma məqsədindən danışdı. Onun sözlərinə görə, proqram Nailə xanımın xatirəsini yaşatmaq və adını gələcək nəsillərin uğurları ilə bağlamaq istiqamətində ən mühüm təşəbbüslərdən biridir.

Təqaüd təhsil haqqını, yaşayış xərclərini və aylıq təqaüdü tam əhatə edir. İndiyədək proqramın qalibləri yalnız xarici ölkələrin təmsilçiləri olub.

NAILAKHANIM SCHOLARSHIP PROGRAMME PRESENTED AT NAKHCHIVAN STATE UNIVERSITY

On 27 October a presentation of the Nailakhanim Scholarship Programme was held at Nakhchivan State University. Participants were provided with comprehensive information about the scholarship programme, which is awarded to talented young women wishing to pursue master's and doctoral studies at Khazar University.



Aygün Gardiner

Opening the event, Elbrus Isayev, Rector of Nakhchivan State University, Associate Professor at the Department of International Relations, and PhD in History, welcomed the guests and stated that Khazar University is one of Azerbaijan's prestigious higher education institutions. He spoke about the life and career of Prof. Acad. Hamlet Isakhanli, founder of the university and Chairman of its Board of Directors and Trustees, highlighting the scholar's contributions to the development of science, education and enlightenment in Azerbaijan.

"This Is Not Just a Scholarship; It Is a New Chapter in Life"

Aygun Gardiner, Head of the Nailakhanim Foundation and Director of "Dunya" School LLC, spoke about the purpose behind the establishment of the scholarship. According to her, the programme is one of the most significant initiatives aimed at keeping Mrs. Nailah's memory alive and associating her name with the achievements of future generations.

The scholarship fully covers tuition fees, living expenses and a monthly stipend. To date, the programme's recipients have exclusively been representa-



Arif Ağalarov, Hamlet İsaxanlı

"Ürəkdən arzulayıram ki, bundan sonra öz ölkəmizdən də daha çox gənc qadın bu imkandan yararlansın. Azərbaycanda böyük potensiala, istedada və arzulara malik çoxlu gənc qadın var", - deyə bildirən A.Gardiner qeyd etdi ki, proqramı tanıtmaq üçün ziyarət etdikləri ilk universitet məhz Naxçıvan Dövlət Universitetidir. Növbəti tədris ili üçün müraciətlərin qəbulu yaz aylarında başlayacaq.

"Ən böyük arzum bu təqaüdün bir gənc qadının həyatında yeni səhifə açmasına və potensialını tam reallaşdırmasına kömək etməkdir. Nailəxanımın xatirəsini yaşatmağın ən gözəl yolu onun adını yeni arzuların gerçəkləşməsi və dəyişən həyatlarla yaşatmaqdır", - A. Qardiner əlavə etdi.

Hamlet İsaxanlı ilə görüş

Tədbirin davamında Prof.Akad. Hamlet İsaxanlı ilə görüş keçirildi. Görüşün moderatoru, Naxçıvan Dövlət Universitetinin Tarix-Filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Arif Ağalarov alimin həyat yolundan və yaradıcılığından söz açdı. Müsahibə şəklində keçən söhbət iştirakçılar tərəfindən böyük maraq və alqışlarla qarşılandı.

Görüşdə universitetin rəhbərliyi, professor-müəllim və tələbə heyəti, Naxçıvanda fəaliyyət göstərən Beynəlxalq Kembric Məktəbinin əməkdaşları və yuxarı sinif şagirdləri, Naxçıvan Yazıçılar Birliyinin üzvləri, ziyalılar iştirak etdilər.

tives of foreign countries.

"I sincerely hope that, from now on, more young women from our own country will benefit from this opportunity. There are many young women in Azerbaijan with great potential, talent and aspirations," A. Gardiner stated, noting that Nakhchivan State University was the first university they had visited to introduce the programme. Applications for the next academic year will open in the spring.

"My greatest wish is for this scholarship to help a young woman open a new chapter in her life and fully realise her potential. The most beautiful way to keep Nailakhanim's memory alive is to honour her name through the fulfilment of new aspirations and lives transformed," A. Gardiner added.

Meeting with Hamlet Isakhanli

The event continued with a meeting with Prof. Acad. Hamlet Isakhanli. The moderator, Arif Agalarov, Dean of the Faculty of History and Philology at Nakhchivan State University, Associate Professor and PhD in Philology, spoke about the scholar's life and work. The conversation, conducted in an interview format, was met with great interest and applause from the participants.

The meeting was attended by the university's leadership, academic and teaching staff, students, staff members and senior students of the International Cambridge School operating in Nakhchivan, members of the Nakhchivan Writers' Union, and intellectuals.

“DÜNYA” TEATRI ZƏFƏR GÜNÜNƏ HƏSR OLUNMUŞ “ KAMANÇA” TAMAŞASINI TƏQDİM EDİB

"DUNYA" THEATER PRESENTS "KAMANCHA" PLAY DEDICATED TO VICTORY DAY



Xəzər Universiteti “Dünya” məktəbində görkəmli Azərbaycan yazıçısı və dramaturqu Cəlil Məmmədquluzadənin 1920-ci ildə Şuşada qələmə aldığı "Kamança" pyesi əsasında hazırlanmış eyniadlı tamaşa nümayiş olunub. Zəfər Gününə həsr edilən səhnə əsəri klassik Azərbaycan dramaturgiyasının humanist ideyalarını milli yaddaş və Vətən sevgisi kontekstində təqdim edib.

"Caspianinfo" xəbər verir ki, tamaşanın quruluşçu rejissoru Murad Allahverdi, rejissoru Elçin Muradov, təşkilati işlər üzrə rəhbəri Dilarə İsgəndərzadə, prodüseri isə Nailə Mirzəzadədir. “Dünya” Teatrının təqdimatında müəllim və şagirdlər eyni səhnəni bölüşərək, əsərin obrazlarını canlandırıblar

Tamaşada iştirak edən aktyorlar Elçin Muradov, Kübra Quliyeva, Tahirə Bayramova, Lalə Namazova, Elşad Rzayev, Əli Əhədzadə, Ülviyyə Rza, Arian Zamiri, Hüseyn Nağıyev, Ayaz Məmmədov və Tunar Behbudludur. Əsərin mərkəzində dayanan Qəhrəman yüzbaşı obrazı pyesin əsas mənəvi konfliktini-qisas hissi ilə mərhəmət arasındakı mübarizəni ifadə edir.

A play of the same name, based on "Kamancha," written in Shusha in 1920 by the prominent Azerbaijani writer and playwright Jalil Mammadguluzade, was staged at Khazar University's "Dunya" School. Dedicated to Victory Day, the stage production presented the humanistic ideas of classical Azerbaijani dramaturgy in the context of national memory and love of the Motherland.

"Caspianinfo" reports that the play's stage director is Murad Allahverdi, its director is Elchin Muradov, its head of organizational affairs is Dilara Iskandarzade, and its producer is Naila Mirzazade. In the "Dunya" Theater's presentation, teachers and students shared the same stage, bringing the work's characters to life.

The actors in the play are Elchin Muradov, Kubra Guliyeva, Tahira Bayramova, Lala Namazova, Elshad Rzayev, Ali Ahadzade, Ulviyya Rza, Arian Zamiri, Huseyn Naghiyev, Ayaz Mammadov, and Tunar Behbudlu. The character of the Hero Captain, at the center of the work, embodies the play's main moral con-



Dostlarının ermənilər tərəfindən öldürülməsi onun daxilində intiqam istəyi ilə insan həyatına və mənəvi dəyərlərə hörmət arasında dərin qarşıdurma yaradır.

Cəlil Məmmədquluzadə bu obraz vasitəsilə müharibənin insan talelərində açdığı yaraları, milli ədavətin faciəvi nəticələrini və humanizmin mənəvi gücünü ön plana çəkir. Tamaşanın yaradıcı xüsusiyyətlərindən biri də orijinal əsərin süjetinə daxil edilən improvizasiya elementləri olub.

(*Davamı 20-ci səh-də*)

flict: the struggle between the desire for vengeance and mercy. The killing of his friends by Armenians creates within him a deep conflict between the wish for revenge and respect for human life and moral values.

Through this character, Jalil Mammadguluzade foregrounds the wounds that war opens in human destinies, the tragic consequences of national enmity, and the moral power of humanism. One of the creative

(*To be continued p.20*)



Pyesdəki erməni kamançaçı Baxşının ifası ilə yanaşı, səhnə təqdimatında azərbaycanlı kamançaçı obrazına da yer verilib. İki kamançaçının ifası üzərində qurulan səhnələr musiqinin dili ilə münaqişənin yaratdığı faciəni, qarşıdurmanı və sənətin birləşdirici gücünü ifadə edib. Bu yaradıcılıq əsərin ideya xəttini genişləndirərək tamaşaya əlavə bədii çalarlar qazandırıb. Pyesin finalında qisas hissinin mərhəmət qarşısında geri çəkilməsi müəllifin humanist mövqeyini ifadə edir. Bu baxımdan "Kamança" milli yaddaşı, insanlıq dəyərlərini və mənəvi seçimin əhəmiyyətini ön plana çəkən dramaturji nümunədir.

Tamaşadan sonra çıxış edən Prof.Akad. Hamlet İsaxanlı səhnə əsərini yüksək qiymətləndirib. O, xüsusilə orijinal süjetə əlavə olunan improvizasiya elementlərinin təqdimata gətirdiyi yaradıcı yeniliyi qeyd edib və vurğulayıb: "Sənət bizi birləşdirir".

"Dünya" Teatrının bu təqdimatı Cəlil Məmmədquluzadənin klassik əsərini Zəfər Gününün tarixi və mənəvi məzmunu ilə əlaqələndirib. Vətənə bağlılıq, milli-mədəni irsə hörmət və kamançanın Azərbaycan musiqi mədəniyyətindəki yeri tamaşanın əsas ifadə vasitələri olub.



Hamlet İsaxanlı

features of the play was the improvisation elements added to the plot of the original work.

Alongside the performance of the Armenian kamancha player Bakhshi in the play, the stage production also included the character of an Azerbaijani kamancha player. The scenes built on the performances of the two kamancha players expressed, in the language of music, the tragedy and confrontation created by the conflict, as well as the unifying power of art. This creativity broadened the work's ideological line and gave the play additional artistic nuances. In the play's finale, the retreat of the desire for vengeance before mercy expresses the author's humanist position. In this respect, "Kamancha" is a dramatic work that foregrounds national memory, human values, and the importance of moral choice.

Speaking after the play, Prof. Acad. Hamlet Isakhanli praised the stage production highly. He particularly noted the creative innovation that the improvisation elements added to the original plot brought to the presentation, and emphasized: "Art unites us."

This presentation by the "Dunya" Theater connected Jalil Mammadguluzade's classic work with the historical and spiritual content of Victory Day. Attachment to the Motherland, respect for national and cultural heritage, and the place of the kamancha in Azerbaijani musical culture served as the play's main means of expression.

https://www.kalibri.az/viewhr.php?z=4&ids=433835801&lng=az_az&m=1&c=MzMz

YUBİLEY TƏBRİKİ

Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva universitetin baş müəllimi Elza İsmayılovaya yubileyi münasibətilə təbrik məktubu ünvanlayıb. Məktubda deyilir:

Hörmətli Elza xanım,

Sizi yubileyiniz münasibətilə Xəzər Universitetinin kollektivi adından ürəkdən təbrik edirik.

Azərbaycan dili və ədəbiyyatının tədrisinə həsr etdiyiniz illər, tələbələrinizə qazandırdığınız biliklər və onların dünyagörüşünün formalaşmasına verdiyiniz töhfələr pedaqoji fəaliyyətinizin ən dəyərli nəticələrindəndir. Ana dilimizin zənginliyinin, ədəbiyyatımızın mənəvi və mədəni dəyərlərinin gənc nəslə çatdırılması istiqamətindəki əməyiniz Universitetimizin təhsil mühitində xüsusi yer tutur.

İllər ərzində nümayiş etdirdiyiniz məsuliyyət, müəllimlik peşəsinə bağlılıq və səmimi münasibətinizə görə Sizə təşəkkürümüzü bildiririk. Arzu edirik ki, bundan sonrakı illər də həyatınıza sevinc, könlünüzə rahatlıq, fəaliyyətinizə yeni uğurlar gətirsin.

Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və bütün arzularınızın gerçəkləşməsini diləyirik.

Yubileyiniz mübarək olsun!

CONGRATULATIONS ON ANNIVERSARY

Dr. Razia Isaeva, Rector of Khazar University, addressed a congratulatory letter to Elza Ismayilova, a senior lecturer at the university, on the occasion of her milestone birthday. The letter reads:

Dear Ms. Elza,

On behalf of the Khazar University community, we extend our heartfelt congratulations to you on your milestone birthday.

The years you have devoted to teaching the Azerbaijani language and literature, the knowledge you have imparted to your students, and your contributions to shaping their worldview are among the most valuable achievements of your teaching career. Your efforts to convey the richness of our mother tongue and the spiritual and cultural values of our literature to the younger generation hold a special place in our University's educational environment.

We express our gratitude for the sense of responsibility, dedication to the teaching profession, and sincerity you have demonstrated over the years. May the years ahead bring joy to your life, peace to your heart, and new achievements in your professional endeavors.

We wish you good health, a long life, family happiness, and the fulfillment of all your wishes.

Happy Anniversary!

XƏZƏR UNİVERSİTETİ 2026/2027-Cİ TƏDRİS İLİNDƏ:YENİ QƏBUL NƏTİCƏLƏRİ VƏ ÜMUMİ TƏLƏBƏ SAYI

Qəbul nəticələrinə ümumi baxış

Xəzər Universitetinin 2026/2027-ci tədris ili üzrə qəbul nəticələri ali təhsilin üç səviyyəsini – bakalavriat, magistratura və doktoranturanı əhatə edir. Yeni tədris ilində universitetə ümumilikdə 1 825 nəfər qəbul olunmuşdur. Bu göstəriciyə həm yerli qəbul mexanizmləri, həm də xarici tələbələrin qəbulu daxildir.

Bakalavriat səviyyəsi üzrə qəbul

2026/2027-ci tədris ili üçün bakalavriat səviyyəsi üzrə qəbul planı 1 640 yer təşkil etmişdir. Dövlət İmtahan Mərkəzinin (DİM) xətti ilə 59 nəfəri imtahanda iştirak etmədən qəbul olunmuş subbakalavrlar olmaqla 1 499 nəfər qəbul edilmişdir. Onlardan 957 nəfəri dövlət sifarişi, 542 nəfəri isə ödənişli əsaslarla təhsil almaq hüququ qazanmışdır. Beləliklə, bakalavriat səviyyəsi üzrə DİM xətti ilə qəbul planının 91,4 faizi yerinə yetirilmişdir.

№	İxtisasın adı	Qəbul planı	Qəbul	Ödənişli əsaslarla	Dövlət sifarişi	Boş yerlərin sayı
1	Azərbaycan dili və ədəbiyyatı müəllimliyi	20	20	0	20	0
2	Biologiya müəllimliyi	15	12	0	12	3
3	Coğrafiya müəllimliyi	10	5	0	5	5
4	Fizika müəllimliyi	15	7	0	7	3
5	Fizika müəllimliyi (tədris ingilis dilində)	5	5	0	5	0
6	Xarici dil müəllimliyi (ingilis dili üzrə)	40	39	0	39	1
7	İbtidai sinif müəllimliyi	40	40	2	38	0
8	Kimya və biologiya müəllimliyi	60	47	0	47	13
9	Riyaziyyat və informatika (rəqəmsal bacarıqlar) müəllimliyi	40	40	0	40	0
10	Tarix müəllimliyi	15	15	0	15	0
11	Tarix və coğrafiya müəllimliyi	20	20	0	20	0
12	Təsviri incəsənət müəllimliyi	20	20	0	20	0
13	Beynəlxalq münasibətlər	50	47	42	5	3
14	Filologiya (Azərbaycan dili və ədəbiyyatı üzrə)	60	58	57	1	2
15	Filologiya (ingilis dili və ədəbiyyatı üzrə)	75	73	57	16	2
16	Filologiya (çin dili və ədəbiyyatı üzrə)	15	15	0	15	0
17	Politologiya	50	43	32	11	7
18	Psixologiya	50	43	4	39	7
19	Regionşünaslıq (Amerika, Avropa, Asiya və Şərq ölkələri)	40	39	33	6	1


20	Tərcümə (ingilis, ərəb, fars və Çin dilləri)	100	99	45	54	1
21	Dizayn (interyer dizaynı, qrafik dizayn və landşaft dizaynı)	50	43	36	7	7
22	Biznesin idarə edilməsi	50	45	45	0	5
23	İqtisadiyyat	30	30	14	16	0
24	Maliyyə	50	50	41	9	0
25	Marketinq	30	27	19	8	3
26	Menecment	20	20	18	2	0
27	Mühasibat	50	50	24	26	0
28	Biotexnologiya	25	23	0	23	2
29	Kompüter elmləri	80	79	0	79	1
30	Elektrik və elektronika mühəndisliyi	30	29	5	24	1
31	İnformasiya təhlükəsizliyi	50	50	0	50	0
32	İnşaat mühəndisliyi	20	20	0	20	0
33	Kimya mühəndisliyi	30	19	6	13	11
34	Kompüter mühəndisliyi	100	99	0	99	1
35	Mexanika mühəndisliyi	15	15	9	6	0
36	Memarlıq	50	47	19	28	3
37	Neft-qaz mühəndisliyi	50	31	8	23	19
38	Radiotexnika və telekommunikasiya mühəndisliyi	15	15	14	1	0
39	Baytarlıq təbabəti	60	59	0	59	1
40	Turizm işinin təşkili	100	61	12	49	39
	Cəmi	1640	1499	542	957	141

Ödənişli əsaslarla qəbul olunan 542 nəfərin 31-i xüsusi imtiyazlı kateqoriyalara daxildir. Onlardan 3 nəfəri şəhid övladı, 14 nəfəri Qarabağ müharibəsi əlillərinin övladı, 8 nəfəri valideyn himayəsindən məhrum olmuş uşaqlar, 6 nəfəri isə əlilliyi müəyyən edilmiş şəxslərdir. Qeyd olunan tələbələr qanunvericiliyə uyğun olaraq təhsil haqqından azaddırlar.

Qəbul olunan tələbələrin bal intervalları üzrə bölgüsü

Bakalavriat səviyyəsinə qəbul olunan tələbələrin topladıqları balların təhlili də maraqlı nəticələr ortaya qoyur. Belə ki, 1499 nəfərlik qəbul göstəricisi üzrə aparılan bölgüyə əsasən, 407 nəfər 0–300 bal, 486 nəfər 301–400 bal, 323 nəfər 401–500 bal, 263 nəfər 501–600 bal, 20 nəfər isə 601–700 bal intervalında nəticə göstərmişdir.

Bal intervalı	Tələbə sayı	Ümumi sayda payı
0–300	407	27,2%
301–400	486	32,4%
401–500	323	21,5%
501–600	263	17,5%
601–700	20	1,3%
Cəmi	**1 499**	**100%**



Diaqram. Qəbul olunanların topladıqları ballar üzrə bölgüsü

Statistik göstəricilərə əsasən, ən böyük pay 301–400 bal intervalında qərarlaşan abituriyentlərə məxsusdur. Bu qrup ümumi qəbulun 32,4 faizini təşkil edir.

Bakalavriat səviyyəsi üzrə ən yüksək qəbul balı Xarici dil müəllimliyi (ingilis dili) ixtisası üzrə 658,9 bal, ən aşağı qəbul balı isə Biznesin idarə edilməsi ixtisası üzrə 151,2 bal olmuşdur. Qəbul olunanlar arasında ən gənc tələbənin 16, ən yaşlı tələbənin isə 42 yaşı vardır. Diqqətəlayiq məqamlardan biri də 42 yaşlı tələbənin dövlət sifarişi əsasında qəbul olunmasıdır.

Bununla yanaşı, əlavə təhsil üzrə 5 nəfər, xarici ölkələrdən isə 55 tələbə qəbul olunmuşdur. Xarici tələbələrin 48-i Türkiyə vətəndaşıdır. Onlardan 43 nəfəri Baytarlıq təbabəti ixtisasını seçmişdir. Bu göstəricilər Xəzər Universitetinin həm regional, həm də beynəlxalq miqyasda tələbələr üçün cəlbedici ali təhsil müəssisəsi olduğunu nümayiş etdirir.

Beləliklə, 2026/2027-ci tədris ili üzrə bakalavriat səviyyəsində ümumi qəbul 1 559 nəfər təşkil etmişdir. Onlardan 1 499 nəfəri DİM xətti ilə, 55 nəfəri xarici tələbə qismində, 5 nəfəri isə əlavə təhsil üzrə qəbul olunmuşdur.

Hazırda Xəzər Universitetində bakalavriat səviyyəsi üzrə ümumilikdə 5 394 tələbə təhsil alır. Onlardan 114 nəfəri xarici ölkə vətəndaşıdır.

Magistratura səviyyəsi üzrə qəbul

2026/2027-ci tədris ili üzrə magistratura səviyyəsində qəbul planı 466 yer müəyyən edilmişdir. Dövlət İmtahan Mərkəzinin (DİM) xətti ilə Xəzər Universitetinə 231 nəfər qəbul olunmuşdur. Onlardan 97 nəfəri dövlət sifarişi, 134 nəfəri isə ödənişli əsaslarla təhsil almaq hüququ qazanmışdır. Beləliklə, DİM xətti ilə qəbul planının 49,6 faizi yerinə yetirilmişdir.

Bu il qəbul olunmuş magistrlər arasında da xüsusi sosial imtiyazlara malik 7 tələbə vardır. Onlardan 1 nəfəri valideyn himayəsindən məhrum olmuş şəxs, 6 nəfəri isə Qarabağ müharibəsi əlillərinin övladlarıdır. Bu tələbələr də təhsil haqqından azaddırlar.

Bir maraqlı məqam isə odur ki, qəbul olunanlardan 54 nəfəri Xəzər Universitetinin öz bakalavriat məzunudur. Bu göstərici qəbulun 23,4 faizini təşkil edir və universitet məzunlarının təhsillərini növbəti pillədə də öz universitetlərində davam etdirməyə marağını göstərir.

DİM xətti ilə qəbul olunanlarla yanaşı, magistratura səviyyəsinə 14 xarici tələbə də qəbul edilmişdir. Xarici magistrantların qəbulunda beynəlxalq təhsil proqramları da mühüm rol oynamışdır. Belə ki,

qəbul olunan xarici tələbələrdən biri Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı, iki nəfər isə hökumətlərarası saziş çərçivəsində təhsil almaq hüququ qazanmışdır. Beləliklə, 2026/2027-ci tədris ili üzrə magistratura səviyyəsində ümumi qəbul 245 nəfər təşkil etmişdir.

Hazırda Xəzər Universitetində magistratura səviyyəsində ümumilikdə 510 tələbə təhsil alır. Onlardan 22 nəfəri xarici ölkə vətəndaşıdır.

Doktorantura səviyyəsi üzrə qəbul

2026/2027-ci tədris ili üzrə doktorantura səviyyəsinə ümumilikdə 21 nəfər qəbul olunmuşdur. Onlardan 17-si yerli, 4-ü isə xarici vətəndaşdır. Yerli qəbul olunan 17 nəfərin 5-i dövlət sifarişi, 12-si ödənişli əsaslarla təhsil alacaq.

Universitetin ümumi tələbə kontingenti

2026/2027-ci tədris ili üzrə Xəzər Universitetində bakalavriat səviyyəsində 5 394, magistratura səviyyəsində 510, doktorantura səviyyəsində isə 64 nəfər təhsil alır. Beləliklə, universitetin üç təhsil səviyyəsi üzrə ümumi tələbə kontingenti 5 968 nəfərdir. Bu göstərici universitetin yalnız yeni qəbul nəticələrini deyil, ümumilikdə formalaşmış tələbə icmasının miqyasını da nümayiş etdirir.





Lamiyə Xəlilova
Tələbə işləri şöbəsinin müdiri

"CLARIVATE GÜNLƏRİ" ÇƏRÇİVƏSİNDƏ TƏLİM

Xəzər Universitetində oktyabrın 8-də elmi-tədqiqat fəaliyyətinin inkişafı, beynəlxalq elmi informasiya resurslarından səmərəli istifadə və müasir rəqəmsal tədqiqat alətlərinin imkanlarına həsr olunmuş təlim təşkil edilib.

Tədbir Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və Clarivate şirkətinin birgə təşəbbüsü olan "Clarivate Günləri" proqramı çərçivəsində keçirilib.

Tədbiri giriş sözü ilə Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin direktoru Aytac Misgərli açaraq,belə təlimlərin universitetin elmi-tədqiqat mühitinin inkişafı baxımından əhəmiyyətini vurğulayıb. O, müasir elmi informasiya resurslarından düzgün və səmərəli istifadənin tədqiqatçıların fəa-

TRAINING IN FRAME OF "CLARIVATE DAYS"

A training session dedicated to the development of research activity, the effective use of international scientific information resources, and the capabilities of modern digital research tools was organized at Khazar University on October 8.



Xəyalə Hacıyeva, Aytac Misgərli, Handan İliç

The event was held within the framework of the "Clarivate Days" program, a joint initiative of the State Agency for Science and Higher Education under the Ministry of Science and Education of the Republic of Azerbaijan and the Clarivate company.

The event was opened with introductory remarks by Aytaj Misgarli, Director of Khazar University's Library and Information Center, who emphasized the importance of such trainings for the development





liyyətində mühüm rol oynadığını qeyd edib. Bildirib ki, beynəlxalq elmi bazaların imkanlarından yararlanmaq elmi ədəbiyyatın daha əhatəli araşdırılmasına, aktual tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsinə, elmi nəticələrin təhlilinə və tədqiqatların keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.

Aytac Misgərli, həmçinin, universitet kitabxanalarının müasir dövrdə yalnız informasiya mənbələrinə çıxışı təmin edən struktur deyil, eyni zamanda, elmi fəaliyyətə dəstək göstərən, tədqiqatçıların informasiya savadlılığının artırılmasına və elmi kommunikasiyanın inkişafına töhfə verən mühüm mərkəzlər olduğunu diqqətə çatdırıb. Bu baxımdan, "Clarivate Günləri" çərçivəsində keçirilən təlimin akademik heyət və tədqiqatçılar üçün faydalı təcrübə mübadiləsi və yeni biliklərin əldə edilməsi baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Təlim zamanı Clarivate şirkətinin Azərbaycan üzrə rəsmi nümayəndəsi Xəyalə Hacıyeva və Müştəri məmnuniyyəti üzrə menecer Handan İliç təqdimatlarla çıxış edərək, Web of Science, ProQuest Central və Web of Science Research Intelligence platformalarının funksional imkanları haqqında ətraflı məlumat veriblər. Təqdimatlarda elmi mənbələrin axtarışı, tədqiqat məlumatlarının təhlili, elmi fəaliyyətin qiymətləndirilməsi və tədqiqat prosesinin planlaşdırılmasında bu platformaların rolu izah olunub. Eyni zamanda, süni intellekt əsaslı həllərin elmi araşdırmalarda tətbiqi və tədqiqatçıların işinin səmərəliliyinin artırılması məsələlərinə toxunulub.

Təlimin əsas məqsədi Xəzər Universitetinin akademik heyətinin və tədqiqatçılarının beynəlxalq elmi informasiya bazalarından və müasir tədqiqat alətlərindən istifadə bacarıqlarını inkişaf etdirmək, elmi nəticələrin beynəlxalq görünürlüyünün artırılmasına dəstək olmaq və universitetin tədqiqat potensialının gücləndirilməsinə töhfə vermək olub.

of the university's research environment. She noted that the correct and effective use of modern scientific information resources plays an important role in researchers' work. She said that making use of the capabilities of international scientific databases enables more comprehensive study of scientific literature, identification of current research directions, analysis of scientific results, and improvement of research quality.

Aytaj Misgarli also drew attention to the fact that, in the modern era, university libraries are not only structures providing access to information sources, but also important centers that support scientific activity and contribute to raising researchers' information literacy and developing scientific communication. In this regard, she emphasized that the training held within "Clarivate Days" is significant for faculty and researchers in terms of useful exchange of experience and acquisition of new knowledge.

During the training, Khayala Hajiyeva, Clarivate's official representative for Azerbaijan, and Handan Ilic, Customer Success Manager, gave presentations providing detailed information on the functional capabilities of the Web of Science, ProQuest Central, and Web of Science Research Intelligence platforms. The presentations explained the role of these platforms in searching for scientific sources, analyzing research data, evaluating scientific activity, and planning the research process. The application of AI-based solutions in scientific research and increasing the efficiency of researchers' work were also addressed.

The main purpose of the training was to develop the skills of Khazar University's academic staff and researchers in using international scientific information databases and modern research tools, to support increasing the international visibility of scientific results, and to contribute to strengthening the university's research potential.

HASVET BAYTARLIQ TƏBABƏTİ FAKÜLTƏSİNDƏ "DÜNYA" MƏKTƏBİNİN ŞAGİRDLƏRİ İLƏ GÖRÜŞ
MEETING WITH STUDENTS OF "DUNYA" SCHOOL AT HASVET FACULTY OF VETERINARY MEDICINE

Xəzər Universitetinin Hasvet Baytarlıq təbabəti fakültəsinin yeni tədris binasında 6-8 oktyabr aralığında "Dünya" məktəbinin 4-cü, 9-cu və 10-cu sinif şagirdləri ilə maarifləndirici görüş keçirilmişdir. Görüşdə şagirdlərə quduzluq xəstəliyi ilə bağlı maarifləndirici seminarın keçirilməsi, xəstəliyin heyvanlardan insanlara keçmə yolları, əsas əlamətləri və profilaktikası barədə danışılmışdır.

Eyni zamanda, quduzluqla mübarizədə ilkin tədbirlər və peyvəndlənmənin əhəmiyyəti izah olunmuşdur. Görüşdə həmçinin, Xəzər Universiteti və Bir-

An educational meeting was held with fourth-, ninth-, and tenth-grade students of "Dunya" School at the new academic building of Khazar University's Hasvet Faculty of Veterinary Medicine on October 6–8. At the meeting, an educational seminar on rabies was held for the students, covering how the disease is transmitted from animals to humans, its main symptoms, and its prevention.

The initial measures in the fight against rabies





and the importance of vaccination were also explained. At the meeting, within the framework of cooperation between Khazar University and the Azerbaijan Representation of the Food and Agriculture Organization of the United Nations (FAO), our students, who began their activity as "Rabies Control Volunteers" at an event dedicated to World Rabies Day, passed on the knowledge they had acquired to the students in an interactive manner. The students actively participated in the discussions.

The students also became familiar with the teaching clinic, modern laboratories, practical training rooms, and other modern facilities created in the faculty's new academic building, and received information about the teaching and practical training



ləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycan nümayəndəliyinin əməkdaşlığı çərçivəsində Dünya Quduzluqla Mübarizə Gününə həsr olunmuş tədbirdə "Quduzluqla mübarizə Könüllüləri" olaraq fəaliyyətə başlamış tələbələr əldə etdikləri bilikləri interaktiv şəkildə şagirdlərə ötürmüşlər. Şagirdlər müzakirələrdə fəal iştirak etmişlər.

Şagirdlər həmçinin, fakültənin yeni tədris binasında yaradılmış tədris klinikası, müasir laboratoriyalar, praktik təlim otaqları və digər müasir imkanlarla tanış olmuş, baytarlıq təbabəti üzrə tədris və praktiki hazırlıq prosesi haqqında məlumat almışlar.

Görüş zamanı müasir baytarlıq təbabətinin yalnız heyvan sağlamlığının qorunması ilə məhdudlaşmadığı, qida təhlükəsizliyi, ictimai sağlamlıq və biotəhlükəsizliyin təmin edilməsində də mühüm rol oynadığı vurğulanmışdır.

Şagirdlər fakültənin tədris və tədqiqat fəaliyyəti ilə yaxından maraqlanmışlar. Görüşün gənclərin heyvan və insan sağlamlığı ilə bağlı maarifləndirilməsi, eləcə də məktəblərlə ali təhsil müəssisələri arasında əməkdaşlığın inkişaf etdirilməsi baxımından əhəmiyyətli olduğu qeyd edilmişdir.



process in veterinary medicine.

During the meeting, it was emphasized that modern veterinary medicine is not limited to protecting animal health, but also plays an important role in ensuring food safety, public health, and biosecurity.

The students took a keen interest in the faculty's teaching and research activity. It was noted that the meeting is significant in terms of raising young people's awareness of animal and human health, as well as developing cooperation between schools and higher education institutions.



ŞOPRON UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

REPRESENTATIVES OF UNIVERSITY OF SOPRON AT KHAZAR

Balint Heil, Marton Beke



Raziyə İsayeva

Xəzər Universitetində Macarıstanın Şopron Universitetinin nümayəndə heyəti ilə oktyabrın 9-da görüş keçirilib.

Görüşdə Şopron Universitetini Meşəçilik fakültəsinin dekanı, professor Dr. Balint Heil və inkişaf məsələləri üzrə məsləhətçi Dr. Marton Beke təmsil ediblər. Xəzər Universitetindən görüşdə universitetin rektoru Dr. Raziyə İsayeva, müvafiq dekanlıq, departament əməkdaşları və Beynəlxalq əlaqələr şöbəsinin nümayəndələri iştirak ediblər.

İki universitet arasında mümkün əməkdaşlıq istiqamətləri, birgə təhsil təşəbbüsləri və akademik əlaqələrin inkişafı məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Xüsusilə, ikili diplom proqramlarının yaradılması, birgə təhsil imkanlarının genişləndirilməsi və universitetlər arasında institusional əməkdaşlığın gücləndirilməsi perspektivləri müzakirə olunub.

Görüş universitetlər arasında qarşılıqlı təcrübə mübadiləsinin təşviqi, yeni akademik tərəfdaşlıqların qurulması və beynəlxalq təhsil əlaqələrinin genişləndirilməsi baxımından əhəmiyyətli olub.

A meeting with a delegation from Hungary's University of Sopron was held at Khazar University on October 9.

The University of Sopron was represented at the meeting by Professor Dr. Balint Heil, Dean of the Faculty of Forestry, and Dr. Marton Beke, Development Advisor. Khazar University was represented by Dr. Razia Isaeva, Rector of the university, relevant deanery and department staff, and representatives of the International Relations Department.

Views were exchanged on possible areas of cooperation between the two universities, joint educational initiatives, and the development of academic ties. In particular, prospects for establishing dual diploma programs, expanding joint educational opportunities, and strengthening institutional cooperation between the universities were discussed.

The meeting was significant for promoting mutual exchange of experience between the universities, establishing new academic partnerships, and expanding international educational ties.

ŞİRVANŞAHLAR SARAYI MUZEY KOMPLEKSİNDƏ DƏRS

Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Günay Həsənova Beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alan tələbələr üçün oktyabrın 14-də Azərbaycan tarixi fənni çərçivəsində növbəti dərsi Şirvanşahlar Sarayı Muzey Kompleksində təşkil etmişdir.

Dərs "IX–XIII əsrlərdə Azərbaycanda yaranmış feodal dövlətlər" mövzusuna həsr olunmuşdur. Məqsəd tələbələrin müvafiq tarixi dövr haqqında nəzəri biliklərini möhkəmləndirmək, Azərbaycanın dövlətçilik tarixi və memarlıq irsi ilə bağlı biliklərini zənginləşdirmək, tarixi mənbələrin və maddi-mədəniyyət nümunələrinin öyrənilməsinə maraqlarını artırmaq olmuşdur.

Şirvanşahlar Sarayı Muzey Kompleksinin ərazisində yerləşən saray, divanxana, türbə, məscid, hamam və digər tarixi-memarlıq abidələri ilə tanışlıq tələbələrdə böyük maraq doğurmuşdur. Həmçinin, Bayıl qalasına aid daş kitabələr və digər maddi-mədəniyyət nümunələri haqqında onlara məlumat verilmişdir.

Mövzunun tarixi məzmununa uyğun olaraq, müəllim tərəfindən orta əsrlərdə Azərbaycanda feodal dövlətlərinin yaranması və inkişafı, onların əraziləri və sərhədləri, daxili və xarici siyasətinin əsas istiqamətləri barədə ətraflı məlumat təqdim edilmişdir. Kompleksin memarlıq xüsusiyyətləri və tarixi əhəmiyyəti dövrün siyasi, iqtisadi və mədəni prosesləri ilə əlaqəli şəkildə izah olunmuşdur. Eyni zamanda, sualtı arxeoloji tədqiqatlar və onların Azərbaycanın tarixi irsinin öyrənilməsində rolu diqqətə çatdırılmışdır.

Dərs çərçivəsində dövrün etnoqrafik xüsusiyyətləri, əhalinin məişəti, sosial münasibətləri və maddi-mədəniyyət ənənələri də müzakirə edilmişdir. Tələbələrin sualları cavablandırılmış, tarixi hadisə və proseslərin qarşılıqlı əlaqəsi barədə fikir mübadiləsi aparılmışdır.

Muzey mühitində keçirilən dərs tələbələrin nəzəri biliklərinin praktik müşahidələrlə tamamlanmasına, tarixi-mədəni irsə dair araşdırma bacarıqlarının inkişafına və fənnə maraqlarının artırılmasına xidmət etmişdir. Eyni zamanda, birgə iştirak və müzakirələr tələbələr arasında ünsiyyətin, qarşılıqlı əməkdaşlığın və sosial-mədəni əlaqələrin möhkəmlənməsinə şərait yaratmışdır.

Nəticə etibarilə, Şirvanşahlar Sarayı Muzey Kompleksində keçirilən dərs Azərbaycan tarixinin orta əsrlər dövrünün öyrənilməsi baxımından səmərəli olmuş, tələbələrin tarixi biliklərinin genişləndirilməsinə və milli-mədəni irsə münasibətdə elmi yanaşmanın formalaşdırılmasına töhfə vermişdir.

CLASS HELD AT SHIRVANSHAHS' PALACE MUSEUM COMPLEX

On October 14, Dr. Gunay Hasanova, a lecturer at Khazar University's Department of History and Archaeology and a Doctor of Philosophy in History, held another class for students majoring in International Relations at the Shirvanshahs' Palace Museum Complex as part of the Azerbaijani History course.

The class focused on "Feudal States Established in Azerbaijan in the 9th–13th Centuries." Its objectives were to reinforce students' theoretical knowledge of the relevant historical period, enrich their understanding of Azerbaijan's statehood history and architectural heritage, and stimulate their interest in studying historical sources and material cultural artefacts.

The students showed great interest in exploring the palace, Divankhana, mausoleum, mosque, bathhouse, and other historical and architectural monuments located within the Shirvanshahs' Palace Museum Complex. They were also provided with information about stone inscriptions associated with Bayil Castle and other material cultural artefacts.

In line with the historical content of the topic, the lecturer provided detailed information on the emergence and development of feudal states in medieval Azerbaijan, their territories and borders, and the main directions of their domestic and foreign policies. The architectural features and historical significance of the complex were explained in relation to the political, economic, and cultural processes of the period. Underwater archaeological research and its role in studying Azerbaijan's historical heritage were also highlighted.

The class also covered the ethnographic characteristics of the period, everyday life, social relations, and material cultural traditions. Students' questions were answered, and views were exchanged on the interconnections between historical events and processes.

The class held in the museum environment helped complement students' theoretical knowledge with practical observations, develop their research skills related to historical and cultural heritage, and increase their interest in the subject. Joint participation and discussions also helped strengthen communication, mutual cooperation, and social and cultural ties among students.

In conclusion, the class held at the Shirvanshahs' Palace Museum Complex proved valuable for studying the medieval period of Azerbaijani history, contributing to the expansion of students' historical knowledge and fostering a scientific approach to the country's national and cultural heritage.

DEVOPS MÖVZUSUNDA SEMİNAR



Zərifə Əliyeva



Xəzər Universitetinin Karyera və Məzun Mərkəzinin təşkilatçılığı ilə oktyabrın 15-də "Alumni Talks Series" çərçivəsində Təbiət elmləri və mühəndislik fakültəsinin tələbələri üçün "DevOps: Koddan Production-a: Real Layihələr və Karyera İmkanları" mövzusunda seminar keçirilib.



Tədbirin qonağı Xəzər Universitetinin məzunu, İKTEX LLC şirkətində baş DevOps mühəndisi vəzifəsində çalışan Aslan Aslanlı olub. O, peşəkar təcrübəsini tələbələrlə bölüşüb, DevOps sahəsinin iş prinsipləri, real layihələrdə tətbiqi və bu istiqamətdə karyera imkanları haqqında məlumat verib.

Seminarda proqram kodunun hazırlanmasından işlək mühitə çıxarılmasına qədər

SEMINAR ON DEVOPS

On October 15, a seminar titled "DevOps: From Code to Production: Real Projects and Career Opportunities" was held for students of the School of Science and Engineering within the "Alumni Talks Series," organized by the Career and Alumni Center of Khazar University.



Aslan Aslanlı

The guest of the event was Aslan Aslanli, a graduate of Khazar University who works as a Senior DevOps Engineer at İKTEX LLC. He shared his professional experience with the students and provided information about the working principles of the DevOps field, its application in real projects, and career opportunities in this area.

The seminar focused on the processes from software code development to deployment in

olan proseslərə və DevOps yanaşmasının bu mərhələlərdəki roluna diqqət yetirilib. Görüş tələbələrə nəzəri biliklərin peşəkar iş mühitində tətbiqi ilə tanış olmaq və gələcək karyera istiqamətləri barədə daha aydın təsəvvür formalaşdırmaq imkanı yaradıb.

Seminarın davamı olaraq tələbələrin praktiki bilik və bacarıqlarının inkişafına yönəlmiş intensiv təlim proqramının- bootcampın keçirilməsi nəzərdə tutulur. Proqram çərçivəsində Linux, Bash, Git, Docker, Terraform, Ansible və Kubernetes üzrə əsas biliklərin praktiki tapşırıqlar vasitəsilə öyrədilməsi planlaşdırılır. Təlim iştirakçıların bu alətlərlə işləmək bacarıqlarını inkişaf etdirməsinə və DevOps proseslərini praktik səviyyədə mənimsəməsinə dəstək verəcək.

"Alumni Talks Series" çərçivəsində keçirilən görüşlər universitetin məzunları ilə tələbələr arasında təcrübə mübadiləsinə şərait yaradır, tələbələrin peşəkar inkişafına və əmək bazarı ilə tanışlığına töhfə verir.

the production environment, and the role of the DevOps approach at these stages. The meeting gave students an opportunity to become familiar with the application of theoretical knowledge in a professional work environment and to form a clearer idea of future career paths.

As a continuation of the seminar, an intensive training program, a bootcamp, aimed at developing students' practical knowledge and skills is planned. Within the program, it is planned to teach basic knowledge of Linux, Bash, Git, Docker, Terraform, Ansible and Kubernetes through practical assignments. The training will help participants develop their skills in working with these tools and master DevOps processes at a practical level.

Meetings held within the "Alumni Talks Series" create conditions for the exchange of experience between the university's graduates and students, and contribute to students' professional development and familiarization with the labor market.

DEPARTAMENT MÜƏLLİMİNİN HƏMMÜƏLLİFİ OLDUĞU KİTAB NƏŞR EDİLİB

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Beyrək Hacıyev Topçubaşov Mərkəzi tərəfindən nəşr olunmuş "A Partnership in Search of a Framework: The Azerbaijan-EU Relations in a New Era" ("Çərçivə axtarışında tərəfdaşlıq: yeni dövrdə Azərbaycan–Avropa İttifaqı münasibətləri") adlı tədqiqatın həmmüəlliflərindən biridir.

Kitab Azərbaycan–Avropa İttifaqı münasibətlərini dəyişən geosiyasi şərait kontekstində təhlil edir. Nəşrdə Avropa İttifaqının geosiyasi aktor kimi mövqeyi, Cənubi Qafqazda təhlükəsizlik və vasitəçilik rolu, Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması prosesində Aİ-nin iştirakı, enerji əlaqələri və nəqliyyat sahəsində əməkdaşlıq kimi aktual məsələlərə diqqət yetirilir.

Nəşr Azərbaycan–Avropa İttifaqı münasibətlərinin müasir dinamikasını və Cənubi Qafqazda baş verən geosiyasi prosesləri anlamaq baxımından əhəmiyyətli tədqiqat materialıdır.

BOOK CO-AUTHORED BY DEPARTMENT FACULTY MEMBER PUBLISHED

Beyrak Hajiyev, a faculty member of the Department of Political Science and Philosophy at Khazar University, is one of the co-authors of "A Partnership in Search of a Framework: The Azerbaijan-EU Relations in a New Era," published by the Topchubashov Center in.

The book examines Azerbaijan–European Union relations in the context of a changing geopolitical environment. It addresses key issues, including the EU's position as a geopolitical actor, its role in security and mediation in the South Caucasus, its involvement in the Armenia–Azerbaijan normalization process, energy relations, and transport cooperation.

The publication provides valuable research insights into the current dynamics of Azerbaijan–EU relations and the geopolitical developments shaping the South Caucasus.

Link: *https://www.facebook.com/topchubashovcenter/posts/-we-are-pleased-to-announce-the-publication-of-our-latest-report-a-partnership-i/1413570050953714/*

MÜƏLLİMLƏR RESPUBLİKA ELMİ KONFRANSINDA

Oktyabrın 16-da Bakı Dövlət Universitetində AMEA Arxeologiya və Antropologiya İnstitutu və BDU-nun Tarix fakültəsinin təşkilatçılığı ilə Arxeologiya və etnoqrafiya kafedrasının 50 illik yubileyinə həsr olunmuş "Arxeologiya, etnologiya və antropologiyanın aktual məsələləri" mövzusunda respublika elmi konfransı keçirilib.



Yaqub Məmmədov, Bəhlul İbrahimli

Konfransa AMEA Arxeologiya və Antropologiya İnstitutu, AMEA-nın Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya bölməsi, Bakı Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Xəzər Universiteti, Qərbi Kaspi Universiteti, Qobustan Milli Tarix-Bədii Qoruğu, Milli Azərbaycan Tarixi Muzeyi, "Qədim Şəmkir şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğu və digər elm və təhsil müəssisələrindən ümumilikdə 65 elmi tezis təqdim olunub.

Konfransda AMEA Arxeologiya və Antropologiya İnstitutunun əməkdaşları, Xəzər

INSTRUCTORS IN NATIONAL ACADEMIC CONFERENCE

On October 16, a national academic conference entitled "Current Issues in Archaeology, Ethnology, and Anthropology" was held at Baku State University, organized by the Institute of Archaeology and Anthropology of ANAS and the Faculty of History of Baku State University to mark the 50th anniversary of the Department of Archaeology and Ethnography.

A total of 65 scientific abstracts were submitted to the conference by the Institute of Archaeology and Anthropology of ANAS, the Department of History, Ethnography, and Archaeology of the Nakhchivan Branch of ANAS, Baku State University, Nakhchivan State University, Lankaran State University, Khazar University, Western Caspian University, the Gobustan State Historical and Artistic Reserve, the National Museum of History of Azerbaijan, the "Ancient City of Shamkir" State Historical and Cultural Reserve, and other scientific and educational institutions.

The conference was attended by staff members of the Institute of Archaeology and Anthropology of ANAS, Dr. Yaqub Mammadov and Ulviyya Safarova, faculty



Ülviyyə Səfərova

Universitetinin Tarix və arxeologiya departamentinin müəllimləri Dr. Yaqub Məmmədov və Ülviyyə Səfərova, həmçinin, Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı, Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Dr. Aida İsmayılova iştirak ediblər.



Aida İsmayılova

Dr. Yaqub Məmmədov "Mezolit dövrü incəsənəti (Damcılı mağarasının materialları əsasında)" adlı məruzə ilə çıxış edib. Ülviyyə Səfərovanın həmmüəllifliyi ilə təqdim olunmuş məruzədə, Dr. Yaqub Məmmədov Damcılı mağarasında 2016–2019-cu illərdə və 2022–2023-cü illərdə Azərbaycan–Yaponiya beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən aparılan qazıntılar nəticəsində əldə olunmuş Mezolit dövrü nümunələrindən söz açıb.

Qeyd etmək lazımdır ki, mağaranın e.ə. 6400–6100-cü illərə aid Mezolit təbəqəsinin 5.2-ci layından qumdaşından zərif oyma texnikası ilə hazırlanmış, üzərində saç, baş geyimi və belbağı təsvir olunan bənzərsiz antropomorf daş fiqur, eləcə də qabanın köpək dişindən hazırlanmış deşikli bəzək asması aşkar olunub. Arxeometrik (KT, p-XRF, SEM) analizlərlə tədqiq olunan bu portativ incəsənət nümunələri regionun digər Mezolit abidələrində analoqunun olmaması və üslubca Qobustan abidələrindən fərqlənməsi ilə seçilir. Bu isə Cənubi Qafqazda neolitləşmə prosesinin və keçid dövrünün simvolik-ideoloji mürəkkəbliyini anlamaq baxımından fundamental əhəmiyyət kəsb edir.

Dr. Aida İsmayılova "Orta əsr Azərbaycan şəhərlərində bədii metalişləmənin təşəkkülü və inkişaf xüsusiyyətləri" mövzusunda məruzə ilə çıxış edib.Çıxışda Dr. Aida İsmayılova Səlcuqlular, Atabəylər və Səfəvilər dövrlərində Gəncə, Naxçıvan, Təbriz, Şamaxı və Lahıc kimi sənətkarlıq mərkəzlərinin fəaliyyəti, metal emalı texnikalarının inkişafı və Azərbaycan sənətkarlarının İslam dünyasının bədii metal sənətinə verdiyi töhfələr işıqlandırılır.

members of Khazar University's Department of History and Archaeology, as well as Dr. Aida Ismayilova, a staff member of the National Museum of History of Azerbaijan and a faculty member of Khazar University's Department of History and Archaeology.

Dr. Yaqub Mammadov delivered a presentation entitled "Mesolithic Art (Based on Materials from Damjili Cave)." In the presentation co-authored with Ulviyya Safarova, Dr. Yaqub Mammadov discussed Mesolithic artifacts recovered during excavations conducted at Damjili Cave by the Azerbaijan–Japan International Archaeological Expedition in 2016–2019 and 2022–2023.

It should be noted that a unique anthropomorphic stone figurine, delicately carved from sandstone and depicting hair, a headdress, and a belt, as well as a perforated pendant made from a wild boar's canine tooth, were discovered in Layer 5.2 of the cave's Mesolithic stratum, dating to 6400–6100 BCE. These portable art objects, examined through archaeometric analyses (CT, p-XRF, and SEM), are distinguished by the absence of parallels at other Mesolithic sites in the region and by their stylistic differences from the artifacts of Gobustan. This is of fundamental importance for understanding the symbolic and ideological complexity of the Neolithization process and the transitional period in the South Caucasus.

Dr. Aida Ismayilova delivered a presentation entitled "The Formation and Development of Artistic Metalworking in Medieval Azerbaijani Cities." Her presentation shed light on the activities of craft centers such as Ganja, Nakhchivan, Tabriz, Shamakhi, and Lahij during the Seljuk, Atabeg, and Safavid periods, the development of metalworking techniques, and the contributions of Azerbaijani artisans to the artistic metalwork of the Islamic world.

TƏLƏBƏLƏR FOLKLOR İNSTİTUTUNDA ELMİ-TƏDQİQAT TƏCRÜBƏSİNƏ BAŞLAYIBLAR

STUDENTS BEGIN RESEARCH INTERNSHIP AT INSTITUTE OF FOLKLORE

Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə tələbələri 2026–2027-ci tədris ilinin payız semestri çərçivəsində AMEA Folklor İnstitutunda elmi-tədqiqat təcrübəsinə başlayıblar.

Təcrübənin başlanması ilə əlaqədar keçirilən görüşdə AMEA Folklor İnstitutunun direktoru, Dillər və ədəbiyyatlar departamentinin müəllimi, filologiya elmləri doktoru dosent Hikmət Quliyev tələbələrə institutun elmi fəaliyyət istiqamətləri və folklorşünaslıq sahəsində aparılan araşdırmalar barədə məlumat verib. Görüşdə, həmçinin, Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri, filologiya elmləri doktoru Leyla Məmmədova və Cənubi Azərbaycan folkloru şöbəsinin böyük elmi işçisi Lalə Bədirova iştirak ediblər.

Dos. Hikmət Quliyev folklorun xalqın tarixi yaddaşının, milli-mədəni irsinin və mənəvi dəyərlərinin qorunmasında mühüm rolunu vurğulayıb. O qeyd edib ki, folklor nümunələrinin toplanılması, sistemləşdirilməsi, qorunması və elmi əsaslarla tədqiqi milli-mənəvi dəyərlərin gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Direktor tələbələrin təcrübə müddətində bu istiqamətlər üzrə bilik və bacarıqlarını inkişaf etdirmələrinin, milli-mədəni irsə elmi yanaşma və tədqiqat vərdişləri qazanmalarının vacibliyini diqqətə çatdırıb.

Görüş zamanı tələbələrə elmi-tədqiqat təcrübəsinin təşkili, qarşıya qoyulan vəzifələr və fəaliyyətin qiymətləndirilməsi meyarları barədə ətraflı məlumat verilib. Bildirilib ki, təcrübə müddətində tələbələr təhkim olunduqları şöbələrin elmi profilinə uyğun tezis və təqdimat materialları hazırlamalı, folklor nümunələrinin toplanılması prosesində iştirak etməli, həmçinin, görülmüş işlər barədə yekun hesabat təqdim etməlidirlər. Elmi-tədqiqat təcrübəsi çərçivəsində tələbələr Folklor İnstitutunun Cənubi Azərbaycan folkloru və Folklor və yazılı ədəbiyyat şöbələrinə təhkim olunublar. Təcrübə müddətində onların müvafiq şöbələrin elmi-tədqiqat istiqamətləri, aparılan araşdırmalar və elmi işin təşkili prinsipləri ilə yaxından tanış olmaları, nəzəri biliklərini praktiki fəaliyyətlə əlaqələndirmələri nəzərdə tutulur.

Qeyd edək ki, tələbələrin elmi-tədqiqat təcrübəsi 2026-cı ilin dekabr ayının sonunda başa çatacaq.

Students majoring in Philology (Azerbaijani Language and Literature) at Khazar University's School of Humanities, Education and Social Sciences have begun a research internship at the Institute of Folklore of the Azerbaijan National Academy of Sciences (ANAS) as part of the autumn semester of the 2026–2027 academic year.

At a meeting held to mark the start of the internship, Dr. Hikmat Guliyev, Director of the Institute of Folklore of ANAS, lecturer at the Department of Languages and Literatures, and Associate Professor of Philology, informed the students about the institute's research areas and ongoing studies in folklore. The meeting was also attended by Dr. Leyla Mammadova, Head of the Department of Folklore and Written Literature, and Lala Bedirova, Senior Researcher at the Department of South Azerbaijani Folklore.

Associate Professor Hikmat Guliyev emphasized the important role of folklore in preserving the historical memory, national and cultural heritage, and spiritual values of the people. He noted that collecting, systematizing, preserving, and scientifically studying folklore materials are particularly important for passing national and spiritual values on to future generations. The director highlighted the importance of students developing their knowledge and skills in these areas during the internship, as well as acquiring a scientific approach to national and cultural heritage and developing research skills.

During the meeting, the students received detailed information about the organization of the research internship, the assigned tasks, and the criteria for evaluating their work. It was noted that, during the internship, students would be required to prepare abstracts and presentation materials in line with the research profiles of their assigned departments, participate in the collection of folklore materials, and submit a final report on the work completed.

As part of the research internship, the students have been assigned to the Institute of Folklore's Department of South Azerbaijani Folklore and Department of Folklore and Written Literature. During the internship, they are expected to become familiar with the research areas of the respective departments, ongoing studies, and the principles of organizing academic research, while linking their theoretical knowledge to practical activities.

It should be noted that the students' research internship will conclude at the end of December 2026.



MÜSTƏQİLLİYİN BƏRPASI GÜNÜNƏ HƏSR OLUNMUŞ SEMİNARLAR

18 Oktyabr – Azərbaycanın Müstəqilliyinin Bərpası Günü münasibətilə Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimləri tərəfindən dərslər çərçivəsində xüsusi seminarlar təşkil olunub.

Dərslər Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra seminarlar çərçivəsində Azərbaycanın dövlət müstəqilliyinin bərpasının tarixi əhəmiyyəti, milli dövlətçilik ənənələri və müstəqilliyin qorunub saxlanılmasının vacibliyi haqqında müzakirələr aparılıb.

Seminarlarda tələbələrə 1991-ci il oktyabrın 18- də Azərbaycanın dövlət müstəqilliyinin bərpası, bu tarixi hadisənin ölkəmizin siyasi və ictimai həyatındakı rolu, eləcə də müstəqil dövlət quruculuğunun əhəmiyyəti barədə məlumat verilib.

Seminarların əsas məqsədi tələbələrin tarixi biliklərini genişləndirmək, milli-mənəvi dəyərlərə bağlılığını gücləndirmək və gənc nəsildə müstəqil Azərbaycanın tarixinə, dövlətçilik ənənələrinə hörmət hissini aşılamaq olub.

SEMINARS DEDICATED TO DAY OF RESTORATION OF INDEPENDENCE

Special seminars were organized by lecturers of Khazar University's Department of History and Archaeology during classes to mark 18 October – the Day of Restoration of Azerbaijan's Independence.

The classes began with the national anthem of the Republic of Azerbaijan. Discussions were then held as part of the seminars on the historical significance of the restoration of Azerbaijan's state independence, national traditions of statehood, and the importance of preserving independence.

During the seminars, students were informed about the restoration of Azerbaijan's state independence on 18 October 1991, the role of this historic event in the country's political and public life, and the importance of building an independent state.

The main objectives of the seminars were to broaden students' historical knowledge, strengthen their commitment to national and moral values, and instil in the younger generation a sense of respect for the history of independent Azerbaijan and its traditions of statehood.

"QIZLARIN TƏHSİLİNƏ DƏSTƏK" LAYİHƏSİNİN 5 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏDBİR

Oktyabrın 22-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyi, Təhsilin İnkişafı Fondunun tərəfdaşlığı ilə reallaşdırılan "Qızların təhsilinə dəstək" layihəsinin 5 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

EVENT DEDICATED TO 5TH ANNIVERSARY OF "SUPPORT FOR GIRLS' EDUCATION" PROJECT

An event dedicated to the 5th anniversary of the "Support for Girls' Education" project, implemented under the organization of the State Committee for Family, Women and Children Affairs in partnership with the Ministry of Science and Education and the Education Development Foundation, was held on October 22.



Bakıda Hacı Zeynalabdin Tağıyev tərəfindən ilk Qızlar məktəbinin yaradılmasının 125-ci ildönümünə, həmçinin, "Qızların təhsilinə dəstək" layihəsinin 5 illiyinə həsr olunan tədbirdə dövlət qurumlarının rəhbərləri, müxtəlif təhsil müəssisələrinin nümayəndələri və tələbələri iştirak ediblər.

Tədbirdə Xəzər Universitetini Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Milana Abbasova, dekan müavini Günay Ha-

The event, dedicated to the 125th anniversary of the establishment of the first girls' school in Baku by Haji Zeynalabdin Taghiyev, as well as to the 5th anniversary of the "Support for Girls' Education" project, was attended by heads of state agencies and representatives and students of various educational institutions.

Khazar University was represented at the event by Milana Abbasova, Dean of the Faculty of Humanities, Education and Social Sciences; Gunay Hajizade, Deputy Dean; and Khanim

cızadə, İqtisadiyyat və menecment fakültəsinin dekan müavini Xanım Ömərоğlu təmsil ediblər. Eyni zamanda, universitetin Hənifə Məlikova-Zərdabi adına Təqaüd proqramı çərçivəsində təhsil alan İngilis dili müəllimliyi ixtisası üzrə tələbəsi Gültac Vəliyeva, Tarix müəllimliyi ixtisası üzrə tələbəsi Fatimə Məmmədova və Maliyyə ixtisası üzrə tələbəsi Ayşə Uluxanova tədbirdə iştirak ediblər.

Tədbirin açılışında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Elm və Təhsil naziri Emin Əmrullayev, Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Nicat Məmmədli çıxış ediblər. Çıxışlarda layihənin sosial əhəmiyyəti, qızların təhsilə çıxış imkanlarının genişləndirilməsi və bu istiqamətdə həyata keçirilən dövlət siyasəti vurğulanıb.



Gültac Vəliyeva, Xanım Ömərоğlu, Milana Abbasova, Ayşə Uluxanova, Günay Hacızadə

Tədbir çərçivəsində Hənifə Məlikova-Zərdabi adına təqaüd proqramının, eləcə də Tağıyevin Qızlar məktəbinin 125 illiyi münasibətilə bu il təsis edilmiş Hacı Zeynalabdin Tağıyev adına Təqaüd proqramının həssas qruplara mənsub qızların ali təhsil almasına verəcəyi töhfələr qeyd olunub. Tədbir bədii proqramla yekunlaşıb.

Omaroglu, Deputy Dean of the Faculty of Economics and Management. Also attending were university students studying under the Hanifa Malikova-Zardabi Scholarship Program: Gultaj Valiyeva, majoring in English Language Teaching; Fatima Mammadova, majoring in History Teaching; and Aysha Ulukhanova, majoring in Finance.

Speaking at the opening of the event were Bahar Muradova, Chairperson of the State Committee for Family, Women and Children Affairs; Emin Amrullayev, Minister of Science and Education; and Nijat Mammadli, Chairman of the Board of the Education Development Foundation. The speeches emphasized the social significance of the project, the expansion of girls' access to education, and the state policy being implemented in this direction.

During the event, the contributions that the Hanifa Malikova-Zardabi Scholarship Program, as well as the Haji Zeynalabdin Taghiyev Scholarship Program established this year on the occasion of the 125th anniversary of Taghiyev's girls' school, will make to enabling girls from vulnerable groups to obtain higher education were noted.

The event concluded with an artistic program.



Hamlet İsaxanlı

YAĞIŞ YAĞIR, SEVGİLİM

(POVEST)

(Əvvəli ötən nömrədə)

21

Hardasa beş min illik yaşı olan yazı düşündüklərimizi başqalarına ötürmək, bu günə və gələcəyə çatdırmaq vasitəsinə çevrildi. 20-ci əsrdə isə tək yazılı mətni deyil, hər cür səsi və görüntünü də uzaqdakı adama çatdırmaq mümkün oldu.

Durna Aslanın son gah çılpaq, gah da bəzəkli ifadələrlə yazdığı xoş, aradabir atmacalı qısa eşq ismarışlarını oxuyur, içində qapadığı hisslər oyanır, öz-özünə qızarır və əlbəttə sevinir, pərvazlanırdı. Sözlərin duzu onu tutur, bəzilərinə qısa və sadə ifadələrlə cavab verirdi, sonuncu dəfə Aslana cavabında razılığını ifadə etdi:

--Ləzzətli sözlər yazırsınız.

Aslan coşdu:

--Ləzzət aldığını gözümlə görmək istəyirəm. Üz-üzə, göz-gözə oturub söhbət etmək daha ləzzətli deyilmi?! Göz görür, baxır, oxuyur və oxunur.

Durna sadə sual verdi:

--Nə edirsiniz indi?

Sual Aslana ideya verdi:

--Səni arzulamaqla məşğulam.

Durna da şuxluq etdi:

-- Nə yaxşı məşğuliyyətiniz var!

--Bu sözləri şəxsən söyləyən Durna xanıma eşq olsun!

--Heç belə alqış almamışdım, gəlhagəldir, günüm gözəlləşdi!

-- Şəxsiyyətə pərəstiş borcumuzdur. Yaxşı, gəl görüşək, bu gəlhagəldə, bu günlərdə.

Durna düşündü:

--Qoy bir az fikirləşim. Sabaha planınız necədir?

Aslan həmişəki kimi "təbii" cavab verdi:

--Mənim "baş plan"ımda əsas yeri sən tutmusan.

--Eləmi? Nə vaxt təsdiq olunub bu "baş plan"?

--Sənlə ilk görüş günümüzdə üzərində iş başlanıldı, qatdama gələn gün isə təsdiq olundu! O gündən bəri "baş plan"dan kənara çıxmıram.

Durna Aslan ilə həmahəng olmağı yaxşı bacarırdı:

--Nə deyirəm, olsun. "Baş plan"a qarşı çıxmaq, cinayət sayılmasa da, yaxşı iş deyil.

Aslan sevincindən əlini əlinə sürtdü və oyunu davam etdirdi:

-- Durna xanım, plana baxım, vaxt və yer barədə sənlə əlaqə saxlayacam.

Aslan işi çox olduğuna görə görüşü həftə sonuna təyin etmək qərarına gəldi. Darıxdı. Vaxt yaxınlaşanda havadan yenə yağış qoxusu gəldi.

Aslan telefonu işə salıb ismarış göndərdi:

--Ay Durna xanım, gəlirsənmi?

Durna anında cavab verdi:

--Mən hara dəvətliyəm belə?

Aslan "bu ünvana" deyə döyünən ürək şəkli göndərdi.

Durna xoş həyəcandan bir anlığa gözünü yumdu, sonra cavab verdi:

--Allah, allah! Bu nə ünvandı?! Nə qəşəng məkandı! Adamı çəkir özünə.

Aslan:

-- Sənə əsir düşüb. Sənə müntəzirdi, sənin əlindədir. Gəl, gör...

Durna:

--Hava şəraitini nəzərə almırsınız deyəsən.

Aslan:

--Bəli, almıram! Dost yolunda, yar yolunda duman olar, qar olar! Bir də ki, baş plan deyir ki, sabah görüşməlisiniz. Bir çay içək. Bir çay nədir ki, mənə qıymırsan. Səndən xəngəl istəmədim, plov istəmədim, piti istəmədim, bir sadə çay istədim.

Yüngül yağış başladı.

Aslan Durnaya mahnı göndərdi: "Yağış yağır, sevgilim! Sular axır, sevgilim, varmı bir xəbərin?" [15] Arxasınca görüşə dəvəti dolayı yolla təkrar etdi:

-- Durna xanım, yağışın burnunun ucu göynəyir, səni görmək istəyir, darıxır sənsiz. Gəlməsən küsəcək, küssə, yaxşı deyil. Yağışı görəndə başını itirən sevimli Bakımız yağışsız qala bilər.

Durna:

--Vay-vay. Burnunun ucu göynəyirsə, onu çox intizarda saxlamaq olmaz. Yağışla barışaq gərək. Onu da, Bakımızı da incitməyək.

22

--Gecikdim, - dedi Durna, səsində xəfif bir suç vardı, - hirsləndinmi?

Aslan nəfəsini dərdi, gözlərini və sağ əlini yuxarı qaldırdı:

--Yağış...

Doğrudan da yağış hər hərəkəti yavaşlatmışdı, bu halda gecikmək səhlənkarlıq ya diqqətsizlik sayılmır. Hər ikisi gülümsədi, bu ortaq etiraf onları birləşdirən gözəgörünməz telləri daha da bərkitdi.

Durna əlini uzadıb yanağından süzülən bir damla suyu sildi və yağışın gətirdiyi yaxınlığın təsiri altında həmişə "siz" dediyi şəxsə bu dəfə "sən" deyə müraciət etdi:.

--Çətir götürmədiyini bilirəm, çətiri niyə sevmirsən?

Aslan yağışa, sonra Durnaya baxdı:

--Qoy aramızda və üstümüzdə heç nə olmasın.

Durna bu maraqlı fikrə görə yüngülcə güldü, çətirini açıb aralarında tutdu. Aslan onun bədəninin istiliyini hiss edə biləcək qədər yaxınlaşdı, bitişdi də demək olar.

15. Mahnı: "Yağış yağır, sevgilim". Söz: Hüseyn Arif (Hüseynzadə), musiqi: Ələkbər Tağıyev



Rəssam: *Nigar Əliyeva*

Yağış yüngül qədəmlə, nəzakətlə başlasa da, kübarlıq göstərmədi. Şıdırğı yağış, göydən şırıltı ilə tökülən su təbəqələri göy gurultusu və küləklə müşayiət olundu. Yağış və küləyin musiqili tamaşası başlandı. Külək oxuyur, yağış çalırdı. Yerə, torpağa, daş-qayaya, asfalta, ağacların yarpaqlarına, dam və pəncərələrə, çay, göl və dənizə yağan yağış təbiətdə bir müntəzəm ahəng əmələ gətirdi.

İnsanlar həyəcana düşdülər. Kimsə "ay allah!", bir başqası "vay-vay!", vəcdə gələn biri isə "bəh-bəh!" deyə qışqırdı. Dünya bulanıqlaşdı, insanlar tələsir, başları aşağı, çiyinləri bir az irəli əyilmiş halda hərəkət edir, hər kəs öz iç dünyasına dalıb gizlənməyə çalışırdı.

Bir maşın sürətlə çox yaxından keçib üstlərinə su sıçratdı. Hərəkət etmək, geri çəkilərək qorunmaq heç birinin ağlına gəlmədi.

Aslan başını buladı, nikbin təbiəti onun şərhinə təsir etdi:

--Romantika.

--Son dərəcə, - deyə Durna da geri qalmadı, - küçə suyuna bulaşmaqdan daha zərif romantika düşünmək çətindir.

Ətrafda insanların sayı sürətlə azalsa da, iki nəfər yağışdan qaçmaq fikrində deyildi. Yağış onları birləşdirmiş, ətrafı boşaltmış, kənardan onları izləyə bilən gözləri qapatmış, sanki iki nəfərin dünyasını dünyanın qalan hissəsindən ayırmışdı. Dünya sanki Durna və Aslandan ibarət idi. Yarı yolda qalmış, islanmışdılar. Bir ağacın altında dayandılar. Bir-birinə baxdılar.

Aslanın üzündən su axırdı. O, gözlərini sildi, iki əlini Durnanın çiyninə qoyub üzünə baxdı:

--Başdan ayağa islandın və... daha da parladın, daha da gözəlləşdin.

Durna gözlərini qırpdı, yaş saçlarını üzündən aralamağa çalışa-çalışa asta səslə:

--Çox qəribədir, - dedi.

Aslan Durnanın davam etməsinə imkan verməyib sözünü suallarla kəsdi:

--Nə? Qəribə olan nədir? Yağışmı?

--Yooox! Hər dəfə görüşəndə mənə elə gəlir ki, ilk dəfə görüşürük. Hər görüşdə yeni söhbət, yeni duyğular. Hər dəfə elə bil ki, adamın içində qapanıb, donub qalmış hisslər oyanır, yeni şəkil alır.

--Ən qəribə və ən xoş hadisə bilirsənmi nədir? Hər ikimiz təklikdən xilas olmuşuq. Ətrafımız insanlarla dolu olsa da, dost, tanış, qohum çox olsa da, kişinin onu anlayan qadına, qadının onu sevən kişiyə ehtiyacı var.

Durna yüngülcə Aslana söykəndi:

--Biz bir olmuşuq, eləmi?

-- İkimiz birləşib, qovuşub bir can olmuşuq, əzizim, xəbərin varmı?! O, nə sənsən, nə mən, ona "Biz" deyək - dördəlli, dördayaqlı bir məxluq!

Durna gözlərini geniş açdı, bu çoxəlli, çoxayaqlı qəribə məxluqu təsəvvüründə canlandırmağa çalışdı. Sonra sakit səslə soruşdu:

--İndi nə edək?

--İndimi? Gəzəcəyik.

Durna gülümsəyərək daha da Aslana qısıldı:

--Hə. Bu hava bizim kimi..., məni kimi ağılsızın, sənin kimi çılğın adamın havasıdır. Əzizim, sən allah, de görüm, yağışda islanmağa hər zamanmı bu qədər həvəslisən?

--Başqa bir şeyə daha həvəsli olacam.

Aslan bunu deyən kimi də yanlış anlaşılacağını düşünüb bir az pərt oldu. Amma çox şey istəmirdi:

-- Durna xanım, toruna düşmüşəm. Oda saldın məni, dedim su çilə sinəmə, yazığın gəlsin. Yəqin çox yazığın gəldi ki, şıdırğı yağışla təntənəli şəkildə su çilədin, suya bələdin məni. Amma bu halımı çox dəyişdirmədi, çox fərq etmədi, ətrafı yağış bürüsə də, mən yenə od içindəyəm...

Aslan Durnanın çətirini almış, onu, təbii olaraq, Durnanın başı üstündə tutmuşdu. Lakin çətir həm əyilmiş, həm də dairəsi kiçik olduğu üçün yağışdan qoruyucu rolunu yerinə yetirə bilmirdi. Küləyin qovduğu damcılar çətirin altına sürüşərək dizdən aşağı ayaqları döyəclədi, paltarların aşağısını islatdı.

Aslan dəqiq nə etdiyini özünə hesabat vermədən, tərəddüdsüz iki əli ilə Durnanın belin-

dən tutub sığalladı, əslində Durnanın yaş paltarı idi sığalladığı. Sonra yüngülcə özünə tərəf çəkdi, Durna etiraz etmədi. Deyəsən bu anın keçib-keçməyəcəyini yoxlayırmış kimi, özü də ona doğru əyildi. Aslan ciddi bir işə hazırlaşırmış kimi dərin nəfəs aldı. Durna xoş nəzərlə onu süzdü:

--Nə etmək istəyirsən?

--Nə?

--Heç nə, - Durna güldü, - davam elə.

--Soyuqdurmu? - deyə Aslan sakitcə soruşdu.

--Bir az, - dedi Durna, amma səsində bir istilik vardı.

Dodaqlarından əvvəl alınları və burunları yavaşca bir-birinə toxundu. Təbiət onları qovuşmağa, aralarındakı məsafəni yox etməyə çağırırdı. Aslan çətiri bir tərəfə tulladı. Bir an nəfəs alıb dodaq, üz və bədənləri ilə bütövləşdilər. İki sevgili leysan yağış altında söhbəti dayandırıb, ətraf aləmi unudub öpüşürlər. Bədənləri boyu yandırıcı bir həzz dalğası yayıldı. Sevgi yağışı altındakı bu ehtiraslı, isti, duyğulu və davamlı öpüş zaman və məkanı unutdurmuş, yox etmişdi.

Yağış damcıları öpüşə kömək edir, eyni zamanda özü də öpüşdə iştirak edirdi. Yağış gəzinti zamanı öpüşmək istəyənlərin müttəfiqidir, küçədə adamlar seyrəlir, hərə öz başının hayına qalır. Günəşli havada isə...

Bu yağış sadəcə bir hava ya bir təbiət hadisəsi deyildi, onların varlığının bir parçası kimiydi – bədənlərində, nəfəs və sözlərində və sözlər arasındakı boşluqda yer tutmuşdu.

Gedəcək bir yerləri yoxmuş kimi islanmağa davam etdilər.

23

Yağış davam edir, ürəklər döyünür, döyündükcə yumşalırdı. Şıdırğı yağışın gurultulu ahəngi sevgililəri birliyə dəvət edən sevgi balladası idi. Yağış öz-özünə sevgi istehsal etmir, amma onu ortaya çıxarır - sakitcə, su özünə yol tapdığı kimi. Yağışın gətirdiyi bu mülayimliyin və get-gedə alovlanan eşqin səma açılandan sonra da uzun müddət onlarla qalacağı aydın idi.

Durna yaş saçlarını üzündən kənara çəkdi:

--Deyəsən həddini aşdı bu yağış, romantik mərhələni keçdi, daha nə etmək istəyir?

Aslan güldü:

--Romantik mərhələni keçdi-keçmədi, bilmirəm, amma məkanı dəyişmə mərhələsi çatdı, - bunu deyib əli ilə qarşıya, bir qədər sağ tərəfə işarə etdi, - çay, qəhvə?!

Durna baxdı. Qarşıda dumanlı pəncərələrindən kəhrəba rəngli işıq süzülən bir kafe görünürdü. İçəridə kölgələr yavaş-yavaş hərəkət edirdi. Durna sanki yağışsız xoş, ilıq bir dünyanın varlığını unutmuşdu:

--Hə, yağış özü bizi ora göndərir. "Mənim duyğulu yağışlı dünyamda yaşadınız, kef çəkdiniz, indi də quru rasional dünyaya qayıdın" deyir.

Aslan mehriban nəzərlə Durnanı süzdü və başını tərpətdi. Hər ikisi başdan ayağa islanmışdı. Üstlərindəki suyu silkələyib dodaqaltı gülə-gülə içəri qaçdılar.

Kafenin astanasından keçdilər, qapını açan xidmətçi onları gülər üzlə qarşıladı. Lampa işığının sakit istiliyi, çini qabların yumşaq cingiltisi və təzə üyüdülmüş qəhvənin xoşagələn ətri yeni gələnləri rahatlatdı. Kafedə səfalı mühit vardı - isti, solğun işıqlandırma və sakit söhbət uğultusu. Noutbukların üstündə əyilənlər də vardı, əlini çənəsinə dayayıb düşünənlər də, şirin-şirin söhbət edənlər də. Özünə qapanan adətən ətrafa fikir vermir.

Yağış şüşələri tutqunlaşdırmış, bayırdakı dünyanı mücərrəd və uzaq bir şeyə çevirmişdi. Yeni gələn qadın-kişi cütlüyü bir neçə boş masadan pəncərənin yanında olanı seçdi. Bir an-

lıq heç biri danışmadı, məkanın səmimiyyəti onları tutmuşdu.

Aslan "Çay?" deyə soruşdu.

Durna başı ilə "hə" deyib sözə keçdi:

--Hə. İsti bir şey.

Çay gələndə əllərini isti fincanlara dolayaraq istiliyin içlərinə işləməsinə yol açdılar.

Aslan dalğınlıqla:

--Bunu çox istəmişəm, - dedi.

--Nəyi, çayımı?

--Yooox. Bunu. İkili rahatlığımızı, rahat birliyimizi.

Durna pıçıltıya yaxın səslə:

--Qəribədir, insan bəzən sadə rahatlıqdan məhrum ola bilir, - dedi.

--Və çətinlik çəkmədən, sevə-sevə sadə rahatlığa qovuşa bilir, - deyə Aslan onun fkrini tamamladı.

Durna razılığını başını tərpətməklə bildirdi və pəncərədəki su bulantısında əli ilə bir xətt çəkdi. Kimsə ucadan güldü. Həyat öz axarı ilə davam edirdi. Onlar oturub isti çayı qurtumlayır, nəyisə bitirmək, tamamlamaq barədə düşünmürdülər.

Bir-birinin qarşısında oturmuşdular. Bu, uzun sürmədi. Ortaq bir baxış ortamı dəyişdirdi, kiçik bir yerdəyişmə baş verdi. Aslan üz-üzə oturduğu stulu əli ilə sürüşdürüb dördkünc masanın Durnaya bitişik tərəfinə qoydu. Çətir altında çiyinləri bir-birinə toxunduğu kimi masanın altında dizləri bir-birinə dəydi. Baxışlar da yaxınlaşdı. Aslan əlini fincandan ayırıb Durnanın əlinə doğru uzatdı, barmaqları onun barmaqlarının üstünə qondu, istilik bir əldən o birinə yayıldı. Durnanın ürəyi çırpındı, dərindən nəfəs aldı. O, gözlərini bir anlıq yumdu, açdı və sonra o biri əlinin barmaqları ilə kişinin təmasda olan əlinə toxundu. Aslanın barmaqları xəfifcə hərəkət etdi, Durnanın qoluna doğru sürüşdü:

--İnsanlar fərqinə varmasaydılar..., - dedi sakitcə.

Durna onu dayandırmağa cəhd etmədi, gözlərini qaldırıb ətrafı süzdü, sonra ona tərəf döndü:

--Qoy fərqinə varsınlar, - dedi.

Ətrafdakı səs-küy və söhbət uzaq, əhəmiyyətsiz bir şeyə çevrildi. Aslan daha da yaxınlaşdı. İçində bir titrəmə hiss etdi. İstiləndi; bu, otağın və çayın istiliyi deyildi.

--Təcrübəmiz, böyük olmasa da, deyir ki, sən qətiyyətlisən, bilmirəm, bəlkə də təhlükəlisən, - dedi Durna.

--Necə yəni? - deyə soruşdu Aslan, gözünü və əlini çəkmədən.

--Bir şeyə qərar verəndə onu etməmiş dura bilmirsən.

Aslan dili ilə dodaqlarını yaladı:

--Hə, qarşımda ya yanımda sən olanda, istədiyimi etməmiş necə dura bilərəm?!

Aslan Durnaya doğru əyiləndə Durna da bədəni ilə ona toxundu.

Onların yumşaq öpüşü yağış altındakı öpüşdən fərli idi – mülayim və ilıq.

Çöldə yağış davam edirdi. Yağışın özündən başqa hər şey daha səssiz hala gəlmişdi. Dünya çöldə islanarkən içəridə olanlar qurunur, dincəlir, heç yerə tələsmirdilər. Yaxınlaşma və istiləşmə davam edirdi. Hər ikisi qədərin onlara bəxş etdiyi ən gözəl payı almışdı – həyatlarına sevgi və həyəcan daxil olmuşdu.

Sevgi yağış kimidir, gah çisələyə-çisələyə, narın damlalar şəklində yavaş-yavaş, aramla gəlir, ruhu sığallayır, gah da şimşək və onu izləyən göy gurultusu ilə gəlir, cismi titrədir, lərzəyə salır.

24

Bir müddətdir davam edən gah örtülü, gah açıq sevgi bəyanları, qulağa, gözə və ürəyə çar-

pan hissiyyatlı söz-söhbət, görüşlər və ikitərəfli həsrət iki insanı "iki sevgili" adlandırmaq üçün yetərli olmalıdır, bəzən güzəştlə, bəzən də artıqlaması ilə.

Evdə ya işdə olsun, fikri-zikri Aslanın yanında olan Durna xeyli dəyişmiş, üzü gülür, gözləri parlayır, deyir, gülür, şövqlə danışırdı. Ondakı bu xoş dəyişməni ətrafdakılardan, xüsusilə anası və övladlarından, iş yoldaşları və dostlarından gizlətmək mümkün deyildi. Xöşbəxtlik hissi içdə, ürəkdə, beyində cücərsə də, üzə vurur, gözdə, danışıqda, davranışda özünü göstərir. Elə tək qalanda da, özündən asılı olmadan gülür, cəld hərəkətlər edir, mahnı oxuyurdu. Çarpayıda uzanıb xoş xəyallara dalmaq da xoşbəxtliyin təzahürüdür.

... Nəhayət, görüşdük! O, məni gördü! Tanınma şoku yaşadım. O, mənimlə maraqlandığını göstərdi. O, mənimlə danışmağı xoşlayır. O, mənə fərqli baxır. Zarafat deyil ki, mən ona o qədər duyğu sərf etmişəm ki, indi onun göstərdiyi kiçik bir maraq, ondan gələn xoş iltifat məni fövqəladə dərəcədə həyəcanlandırır.

Əvvəllər öz-özümə deyirdim ki, bəslədiyim xəyallar həyatda deyil, sadəcə mənim başımda olan bir şeydir. İndi onların ən azı bir hissəsi, tək başımda deyil, xəyalın məhsulu deyil, həyatda təsdiqini tapıb! Cazibə qarşılıqlıdır! Onunla tanışlıqdan sonra duyğu və sorğunun istiqaməti dəyişdi: əvvəl - "mən onun haqqında nə düşünürəm?", indi - "heyran olduğum bu kişi mənim haqqımda nə düşünür?" və ya "o mənə aşiq olacaqmı?".

Xəyalımda bəslədiyim idealımı təmsil edən real insanla qarşılaşdım. İndi onu həyatda olduğu şəkildə tanımağa başlamışam. Onu xəyalımda həmişə özümdən "yuxarı" qoyurdum. Amma sağlam münasibət birini aşağı, o birini yuxarı qoya bilməz. "Mənə nə olub ki?!" Qarşılıqlı sevgi məni yavaş-yavaş pərəstişkardan potensial bərabərə doğru aparmalıdır. Cazibəsinə düşdüyüm adamın nüfuzu, etibarı, görünüşü, cəzbetmə və təsir gücü məni aldatmasın. Tanımaqda olduğum bu əsl kişini təsəvvür etdiyim kişi qədər sevəcəmmi? Bu gerçək şəxs idealdan nə ilə fərqlənir?

O, gözləniləndən daha istiqanlı, daha səmimi, daha ehtiraslı, daha sadədir məncə. Mən yavaş-yavaş bu əsl insana elə öyrəşdim ki, onu xəyalımdakından daha çox sevdim! Əvvəl onun görünüşü, söhbəti, ictimai uğurları cəlb etmişdi məni, indi - onun xeyirxahlığı, nəzakəti, diqqətli olması, yumoru, həssaslığı, rahatlığı.

Hər ikimiz evli deyilik, aramızda böyük xarici maneə yoxdur, var olan çılpaq gerçəklikdir. Sevinirəm, həm də qorxuram, çünki itirəcəyim bir şey var. Uzaqdan istəmək – başqa, yaxın olmaq, bərabərləşmək – başqa, yaxınlaşdıqca əvvəl zənn etmədiyimiz fərqlər görünəcək, qayğılar meydana çıxacaq. Birimiz digərinin fikri və əhvalını, xasiyyəti və həyat tərzini nəzərə almalıyıq. Birdən nəsə oldu, ayrılmalı olduq... Mən yox, məndə belə istək heç cür yarana bilməz. O... O, birdən dəyişsə, məni rədd etsə, çəkəcəyim acıya dözə bilmərəm. Qəti.

Görüşdük, məktublaşdıq, gəzdik, qucaqlaşdıq... Məni sevdiyinə əmin oldum, onun qadınsızlıqdan sanki xilas olduğunu anlaya bildim; elə məni də kişisizlikdən o azad etdi. Eyni zamanda fantaziya dövrü geridə qaldı, gerçəkliyə qayıtdım. Onun səsi artıq videodan götürülmüş bir şey deyil, onun qarşımda dayanıb danışdığını eşidirəm. Onun təbəssümü artıq fotoşəkil deyil, onun nəyə güldüyünü bilirəm, məni güldürdüyünə sevinirəm. İndi onun haqqında internet ya başqa yerdən material toplamıram, indi daha çox tanışlığımıza, gəzintilərimizə aid xatirələri, şəkil və videoları toplamağa başlamışam. İndi uzaqdakı obraza deyil, qarşımdakı gerçək kişiyə heyranam...

25

Soyuq qış külәkləri altında çox zaman sərt sifət alan Dənizkənarı Bulvar yazda bütün təravəti və ehtişamı ilə oyanır, sanki yenidən doğulur. Ağacların altında, ətrafında və açıq sahələrdə göz oxşayan yaşıl otlar yeri məxmər xalça kimi örtür. Qırmızı, sarı, bənövşəyi,

ağ rəngli və alabəzək səliqəli gül ləkləri yerə enmiş göy qurşağı təsiri bağışlayır. Çöldə-çəməndə bitən ot və gül-çiçəklərin rəssamı-müəllifi təbiət özüdür. Burada, bulvarda isə səxavətli Günəş işığı altında parlayan bol yaşıllıqlar və rəng-rəng gül-çüçək ləklərindən ibarət mənzərə insan əlinin məhsuludur. Bu, sadəcə bir mənzərə deyil, rənglərin, qoxuların və səslərin canlı simfoniyası, böyük, çoxahəngli, çoxsəsli musiqi əsəridir. Bahar bulvara gözəllik və nəşə, işıq, rəng və səs festivalı kimi gəlir. Yaz bulvara ayaq səslərinin musiqisi ilə, ləpələrin və yarpaqların həzin pıçıltıları ilə, yüngül küləyin qanadları ilə gəlir.

Yaşıl yarpaqlarla bəzənmiş ağaclar küləyin oynaq toxunuşu altında yüngülcə yellənir. Bakı və Abşerona xas olan ənənəvi palçıq vannası ilə çox adam tanış deyil, lakin hər Bakılı və Bakıya gələn hər kəs bu şəhərin əbədi səyyahı, küçələrinin və damlarının narahat yoldaşı olan məşhur Bakı küləyində çimir, bədəni və ruhu bərkidən külək vannası qəbul edir – istər ılıq, xoş Gilavar olsun, istərsə də soyuq, sərt Xəzri.

Dənizin canlı və mavi genişliyi üfüqdə sonsuz səma ilə qarışır. Dalğaların üzərində rəqs edən Günəş şüaları üfüq boyunca gümüşü qığılcımlar səpələyir. Xəzər dənizi nəfəs alır, bəzən cilalanmış şüşə kimi sakit görünür, bəzən də dalğaların ahəngdar diliylə öz sirlərini danışır. Xəzər dənizinin üzünü bəzəyənlər - Günəş şüaları və Ay işığıdır, buludlar və küləkdir; külək dənizi gah sığallayır, gah da çalxalayıb coşdurur. Meh uzaq üfüqlərin xəfif dadını və dənizin qoxusunu gül-çiçəklərin və yeni oyanmış torpağın ətri ilə qarışdırır, onlardan Bakıya məxsus yaz ətri düzəldir. Bulvarın zəngin bitki aləmi ilə müqayisədə kasıb görünən heyvanat aləmini dəniz üzərində, havada qanad açan, cürbəcür əyri xətlər cızaraq uçan qağayılar təmsil edirlər.

Təbii gözəllik, yaşıllıqların, çiçəklərin, dənizin və işığın canlı və xoş yaz ahəngi asfalt və daş döşəmələrin yekrəngliyini və sərtliyini yenir, onları asanlıqla unutdurur. Dəniz, yaşıllıq və çiçəklər daşlı, divarlı, şüşəli şəhərin tünd üzünü yumşaldıb onun mülayim simasını ortaya qoyur. Bu diyarda təbiət və memarlıq, külək və su, yaddaş və ümid sakit bir uyum içində birləşmişlər.

Yazda bulvar sadəcə bir məkan deyil – bura ruhun qanad açdığı, havalandığı yerdir. Buraya tək gəzmək üçün deyil, həm də görmək, qulaq asmaq, hiss etmək, duyğulanmaq üçün gəlirlər - Xəzəri seyr etmək və dinləmək üçün, yaşıllıq və çiçəklərə baxıb dincəlmək üçün, yarpaqların xışıltısını, qağayıların qanad açıb uçmasını görmək və səsini dinləmək üçün və bəlkə də təbiətin qoynunda öz düşüncələri ilə təkbətək qalmaq üçün. Xəzər arasıkəsilmədən pıçıldaşan ləpələri və dalğaları ilə ruhu oxşayır.

Bulvar saysız görüş və vidalaşmanın, saysız başlanğıc və sonluğun şahididir. Bakı özü sadəcə bir şəhər deyil, köhnəliklə yeniliyin yanaşı dayandığı memarlıq abidələri, xoşsifət insanlar, dəniz, bulvar, külək, çiçək və işıqla yazılmış möhtəşəm şeriyyətdir. Burada eşq günəşi işıq saçır, eşq küləyi əsir.

Burada, dənizin kənarında, zamanın axını yavaşıyır, dəqiqələr uzanır, düşüncələr xəfifləyir. Yavaş-yavaş gəzən iki ürək arasında içdən gələn söhbət gedir.

26

Axşam üstü Bulvarda xoş, ılıq yaz havası vardı. Şəhərin ilk işıqları dənizin su örtüyü üzərində titrəyirdi; suyun səthində sanki saysız ulduz səpələnmiş, bərq vururdu.

Görüşüb yüngülcə qucaqlaşdılar. Aslan dostları, tanışları ilə görüşəndə, əvvəlcədən şərtləşmə olmamışsa, hara və hansı tərəfə getməyi adəti üzrə yanındakı şəxslərin öhdəsinə buraxırdı. Bunun izahını da verirdi – çox vacib olmayan məsələ üçün baş işlətməyə, geniş müzakirə açmağa nə ehtiyac var?! Bu dəfə də istisna olmadı:

-- Durna xanım, hara gedək? Hansı tərəfə, "hankı səmtə, hankı yana"? [16]

Durna da öz növbəsində, ədəb-ərkan xatirinə, seçim haqqını Aslana vermək istədi, lakin Aslan sözünün üstündə durdu. Nəhayət, Bulvarın yuxarı hissəsinə, yəni köhnə bulvara doğru deyil, aşağısına, Ağ şəhər tərəfə hərəkət etmək qərara alındı.

Aslan Durnanın əlindən tutdu, vurğun gözlərlə onu süzdü və "Sağ ol!" deyib yavaşca əlini buraxdı. Bu "Sağ ol"u nəyə görə dediyini izah etmədi, Durna da soruşmadı. Əslində hər şey aydın idi, arzu olunan növbəti görüşün baş tutması hər ikisinə xoşdu. Durnanın üzü də güldü, gözü də. Təbiətinə uyğun şəkildə sifəti allandı, baxışlarını endirib yenidən qaldırdı, Aslanın üzünə baxdı. Aslan azca dönüb əlini yüngül geyinmiş Durnanın çiyninə qoydu, qadının zərifliyi və təravəti, bədənindəki qövsvari hamar xətlər və döngələr onu məst etdi. Bərabər addımlamağa başladılar. Durna Aslanın qoluna girdi. Aslan bir anlığa gözlərini yumdu, başını və bədənini azca əyib dodaqları ilə Durnanın saçlarına toxundu. Bu incə hərəkət və rəmzi öpüş könül yaxınlığını da, cismani yaxınlığı da ifadə etdi. Hər ikisi xoşbəxt görünürdü.

Durna xumar baxışları ilə Aslanı süzdü:

--Bilirsiniz maraqlı olan nədir?

--Maraqlı çox şey var. Hansını deyirsən?

--Sizi... nə zamandır tanıyıram mən?

--Hardasa iki ili keçdi, ananla bərabər yanıma gəldiniz. Elə deyilmi?

Durna gülümsədi:

--Siz məni görəli, hə, hardasa iki il yarıma yaxın vaxt keçib.

--Doğrudan?! Nə tez keçdi zaman?! Amma, görüşməyə başladığımız vaxtdan bəri çox keçməyib. Niyə belə gec görüşdük? İlk görüşümüzü deyirəm. Niyə məni vaxtında tut yeməyə dəvət etmədin? Niyə qatdamanı belə gec gətirdin?

--Günah məndə olacaq deyəsən.

Aslan qaşlarını çatıb dodaqlarını sıxmaqla süni ciddi görkəm aldı:

--Bəli! Günah həmişə səndədir. Yaman günaha batıbsan, boğaza qədər.

--Allah, amansan. Günahımı necə təmizləyim?

--Ağır şərt qoymuram, iki dəfə "tövbə" desən yetər.

Durna nümayişkəranə qəmzəli baxışla onu süzdü:

--Şükür, ağır cəza gözləyirdim...

Aslan isə həm vurğunluğunu, həm də səmimiyyətini biruzə verdi:

--Səni ilk görəndə cazibən məni tutdu. Amma iki şey məni çəkindirdi: birincisi, səni heç tanımırdım – həyatını, ailə durumunu bilmirdim. Düşünmüşdüm ki, təsadüfən göyçək bir xanımla rastlaşdım, ilk baxışdan çox xoşuma gəldi o. Amma, nə olsun ki?! Sonra nə olacaq? Sonralar onu bir də görəcəm, ya görməyəcəm, məlum deyil. Üstəlik, zaman hisslərimi zəiflədə, azalda bilər.

Durna ehmalca soruşdu:

--Elə olmadımı? Zaman...

Aslan uzatmadı, cavab üçün çox zaman olduğu kimi maraqlı söz və söz birləşmələrindən istifadə etmədi, sakitcə başını yelləməklə "yox" dedi.

Durna tanıma məsələsini yenilədi, başlanğıca apardı:

--Əslində mən, mən özüm sizi nə vaxtdan bəri tanımışam - bunu demək istəyirdim, sizin məni tanıdığınızı deyil.

Aslan qaşlarını çatdı:

16."Hankı səmtə, hankı yana"? Səməd Vurğunun məşhur Azərbaycan şeirindən: Mən bir uşaq, sən bir ana, /Odur ki, bağlıyam sana / Hansı səmtə, hankı yana / Hey uçsam da yuvam sənsən,/ Elim, günüm, obam sənsən!

--Necə yəni? Tanışlığımız hər ikimiz üçün o ilk görüşümüzdən başlamadımı?!

--Yox.

--Yox?

-- Uzun illərdir sizi tanıyıram, uzaqdan, bacım Tovuzun və bəzi dostların sözlərindən, mətbuatdan, internetdən. Xoşum gəlirdi sizdən, uzaqdan-uzağa, nə vaxtsa yaxından tanış olacağımız ağlıma gəlməzdi.

Aslan güldü:

--Bəs indi? Bəs indi? Xoşa gəlməyi deyirəm.

--Sizi ilk dəfə görəndə həyəcanlandım və... qorxdum. Tələş bürüdü məni, yaxşı ki, anam yanımda idi. Sonra qərar verdim - görüşünüzə getmək lazımdır. Qatdama ilə. İçəri girəndə yenidən məni həyəcan bürüdü. Qatdamanı qəbul otağında oturan xanıma verib çıxmaq istədim. O xanım məni getməyə qoymadı, sizə dedi...

Aslan əli ilə Durnanın saçlarını sığalladı:

--Bəxtim gətirdi mənim. Çox xoşuma gələn xanım özü gəlib məni qəflət yuxusundan oyatdı, "Dur, nə yatıbsan, gəlmişəm, qarşıla məni" dedi.

27

Açıq təşəbbüs, işarə, qaş-göz, him-cim qadına da, kişiyə də eyni dərəcədə xas olsa da, əsasən kişilərin dominant olduğu bir cəmiyyətdə açıq hərəkətə keçmək kişidən gözlənilir. Aslan bunu bilir:

--Yaman yoldan çıxmışam, ay Durna xanım, əslində, bağışla, sən çıxartmısan məni yoldan.

Durna Aslanın davam etməsinə imkan vermədi:

--Bıy... Mən yazıq nə etmişəm ki?! Mən başdan çıxarmışamsa, siz nə edibsiniz?

--Nə edibsən? Sən "yazıq", sən mələk məni məst edibsən. Sən başdan çıxaran olanda mən nə oluram? Bunu soruşursan. Mən - təbii ki, başdan çıxarılan, yoldan çıxarılan! Əzizim, heç bir qadınla belə bol-bol yazışmamışam. Lakin bu yazışma bəs eləmir, əslində, bu daha da qızışdırır adamı. Üz-üzə görüş ehtiyacı yaranır, fikri uzaqdan tutmaq, yəni fikri uzaqdan qucaqlamaq olur, amma adamı, sevdiyin, çox sevdiyin xanımı uzaqdan qucaqlamaq olmur.

Durnanın da sözü yerində demək qabiliyyəti və cürəti var:

--Vallah, hansı qadınla nə qədər yazışdığınızı və necə qucaqlaşdığınızı bilmirəm... Amma, yazdıqlarınız doğrudan da xoşdur mənə.

--Məni başqa qadınlara qısqanma, ay gözəl, onu bil ki, heç bir qadını səni istədiyim kimi istəyə bilmərəm. Səni təpədən dırnağa qədər sevirəm.

--O biri qadınları, təpədən dırnağa qədər olmasa da, nə qədər sevdiyinizi soruşmuram.

--Çünki ağıllısan! Dünya bir yana, sən də bir yana. Birinə inanmaq üçün onun haqqında hər şeyi bilmək zəruri deyil, bu, mümkün də deyil. Bir şeyi də açıq deyim. Son zamanlar fikrim tamam səndədir, həmişə səni görmək istəyirəm.

Durna güldü, şux sevgi söhbəti onu tutmuşdu:

--Siz, maşallah, yaradıcı şəxssiniz. Yəqin ki, sizə tək gəzmək də lazımdır. Heç kim mane olmasın, oxuyub-yazdıqlarınızı və ya yazmaq istədiklərinizi düşünə-düşünə gəzin.

--Ay Durna xanım, maşallah, çox ağıllısan. Amma burası da var ki, işin çoxluğu görüşlərə mane olur. İstərdim işim çox olmasın, avara olum ki, sənə çox vaxtım qalsın. Amma o halda da sən məni istəməzsən, avara adam kimə lazımdır?! Bir də "tək gəzin" deyirsən. Son zamanlar gəzdiyim, ayaq basdığım, göz gəzdirdiyim hər yer məndən səni soruşur, "O Durna xanım hardadır?" deyir.

Durna gözlərini süzdürərək Aslana qısıldı. Gözündə parlayan qəfil yaş damlası bir zaman keyləşmiş, indi yenidən oyanan həyat eşqi idi. Aslan ona və ətrafa baxdı:

--Yandım.

Durna anlaqlı xanımdır:

--Çaydan, sudan, qəhvədən bir şey içmək olar.

--Yox-yox, çox yandım, içimdən alışıb-yanıram. Yanğınsöndürən lazımdır!

Durna bu sözlərdə bir eyham olduğunu sezsə də, tam əmin deyildi:

--Nə lazımdır, kömək edə bilərəmmi?

--Əlbəttə! Dərdimin dərmanı səndədir! Səni tanıyalı "of" nidasını olduğu kimi deyə bilmirəm, "f" səsləri çoxalır, bir-birinin belinə minir: Offffff! Bu an səni bərk öpmək istəyirəm, özü də elə-belə yox, bərk-bərk!

Bunu deyib Aslan iki əli ilə Durnanın belindən tutdu. Durna boynunu döndərib başını yana əydi:

--Neyləyirsiniz? Bulvarın ortasındayıq, dörd tərəfimiz adamlarla doludur.

--Mən dəli oldum! Sənlə olanda halım dəyişir, ekstremizmə yuvarlanıram, ifrat kəskin hərəkət etmək istəyirəm, heç özümü tanımıram. Axşam olsun ya lap günün günorta çağı - küçədə sənlə yanaşı yol gedərkən birdən səni öpmək istəyirəm, hiss-həyəcan bürüyür məni.

Durnanın gözləri geniş açılmış, yanaqları qızarmışdı. Laqeyd deyildi, onun da ürəyindən öpüşmək keçirdi. Amma Aslan kimi çılğınlıq edə bilməzdi. O, sevgi və nəvaziş dolu gözlərlə Aslanı süzdü, gözləri ilə Aslanı öpmüş kimi oldu, bu bəs etmədi, dodaqlarının hərəkəti ilə ona incə öpüş göndərdi.

Bir-birini yaxşı tanıyan kişi və qadın eyni vaxtda eyni cür düşünürlərsə, eyni şeyi arzu edirlərsə, bu onlar arasında bir ahəng olduğunu deyir.

Aslan özünü saxlamağı bacarsa da, şikayətinə davam etdi:

--Özümü saxlaya bilmirəm. Tək mən belə olsaydım, nə vardı ki? Şübhə etmirəm ki, bir çox insan sevgilisi ilə yanaşı gəzdiyi zaman birdən eşq atəşinə tutulur, eşq güclənib başına vurur, özünü saxlaya bilmir və öpüşmək istəyir. Bunda nə pis şey var ki!? Təbii insan istəyidir, nə etsin o yazıq?! Məncə Milli Məclis xüsusi qərar qəbul etməlidir. Deputatlar orda işsiz-gücsüz oturublar, qoy şəhərdə xüsusi öpüş yerləri və ya xəlvətlənmə məntəqələri düzəldilməsi haqqında qərar layihəsi hazırlasınlar, müzakirə edib qəbul etsinlər, heç olmasa bir dəfə millətin dərdinə qalsınlar!

28

Aslan acmamışdı, amma Durna ilə bu gəzintini mümkün qədər uzatmaq və aranı sürətlə düzəldən bu xoş söhbəti fərqli bir mühitə daşımaq istədi:

--Gəl bir yerdə oturaq, nəsə bir şey içək, yemək də olar, söhbətimizi də orda davam etdirək. Nə deyirsən? Və harada? Sən buraları məndən yaxşı tanıyırsan.

--Çay içək, yemək istəmirəm.

--Balaca bir yeməyin nə ziyanı var?

Durna bir Aslana, sonra nümayişkəranə şəkildə özünə baxdı, yəni hərəkəti ilə "sən bir mənə bax" deyib sözə keçdi:

--Mənim harama yaraşır yemək?! Pəhrizə başlamışam, ona da tam əməl edə bilmirəm.

Aslan ürəkdən güldü:

--Ay xanım, sənə nə olub ki, pəhriz gözləyirsən? Axı sən elə də kök, ətli-canlı deyilsən ki! Quru çöpə ya sümüyəmi çevrilmək istəyirsən?

--Bir az artıqdır çəkim, bir az azalsam pis olmaz.

--Vallah mən səmimi deyirəm - sənə xoş olmaq üçün deyil, düşündüyümü deyirəm. Görünüşün əladır, elə bu cür qal!

--Ayyy! Bu mənə xeyli təsəlli oldu.

--Ay Durna xanım, sənə vurulmağımın sənin neçə kilo olmağınla heç bir əlaqəsi yoxdur. Bil ki, sənin ala gözlərin, al yanaqların, odlu dodaqların çəkinlə, kilonla dəyişmir. Ayıb olsa da deyəcəm: bir az kökəlsən də, fərqi yoxdur, qucağıma rahatca sığacaqsan, səni offff deyə-deyə qucaqlamağa davam edəcəm.

Sevgililər yemək-içməkdən çıxıb bulvarda gəzişə-gəzişə sevdikləri İçərişəhərə doğru yol tutdular. Aslan ilk dəfə oturub yemək yediyi bu məkanı tənqid etməyi də lazım bildi:

--Restoranın adının "Hoqqabaz" olduğunu görəndə sevindim, milli addır, içində yumor olması da yaxşıdır. Adətən bizimkilər xarici ad xəstəsidirlər, elə bilirlər ki, bir şirkətə, mağazaya ya restorana xarici ad qoyanda onun tutduğu yer, statusu yüksək olur, cəlbedici olur, müştərisi çox olacaq. Qəti belə deyil, müştəri ada deyil, keyfiyyətə, xidmətə baxıb gəlir.

Bu restoranda bizə şərab vermədilər, "bizdə alkohollu içki olmur" dedilər. Adını qoydum "Hacı Hoqqabaz". Əslində, sevgidə də bir qədər hoqqabazlıq var, bu işdə hər zaman hissləri cilovlamaq, duyğuya həddqoymaq olmur! Amma mən şərabsız da sərxoş oldum. Sənin ətrin, təbəssümün,... nə deyim, vallah, ağlımı başımdan aldı, sərxoşluqdan da o yana keçib dəli oldum.

Aslanın yaratdığı sevgi havasında Durna da nəşələnirdi:

--Milli şəhər, milli bulvar, milli restoran, milli musiqi və dəmlənmiş iki milli eşq dəlisi...

Aslan dayandı, dönüb iki əli ilə Durnanın sağ və sol çiynindən yapışıb özünə tərəf döndərdi, ilk dəfə görürmüş kimi gözlərini ona zillədi. Durna vəziyyəti dəyişməyə cəhd etmədən sakit dayandı və təəccüblə onun üzünə baxdı:

--Nə oldu?

--Milli, milli dedin, ağlıma bir fikir gəldi. Bəlkə milli sərhədlərdən kənara çıxaq, gözdənqulaqdan iraq gözəl bir yerə gedək?!

--Hə? Hara?

--Hara desən! Paris, London, Roma...

Aslanın qeyri-adi hərəkəti və ortaya atdığı səfər fikri Durnanı bir an çaşdırdı, eyni zamanda da fərəhləndirdi:

--Səfər etməyi sevirəm. Dünyanı görmək həvəsim hələ ölməyib. Avropanın bəzi yerlərində olmuşam, Amerikada da. Bəlkə Asiyada bir yerə? Həm də Avropa üçün viza almaq adətən uzanır. Özbəkistanda, Səmərqənddə olmamışam.

Aslan qələbə çalmış adam kimi sağ əlini yumruq şəklində büküb yuxarı qaldırdı:

--Gedirik Səmərqəndə! Mən orda olmuşam, sevirəm Səmərqəndi və ümumiyyətlə, Özbəkistanı və ümumiyyətlə, Orta Asiyanı!

29

Axşamdan xeyli keçsə də, bulvar adamla dolu idi. Aslan iki dəfə Durnanı qucaqlayıb öpməyə cəhd etsə də, olmadı - elə-belə yox, bərk öpmək istəyirdi. Durnanın döşü qoluna girdiyi Aslana dəyir, onu daha da haldan çıxarırdı. Qadın da, kişi də - hər ikisi öpüşməyə meyilli idi, lakin, yaxında bir adam olduğunu görüb, çətin olsa da, öpüş fikrindən əl çəkməli oldular. Yalnız İçərişəhərdə dar küçələrlə addımlayarkən Aslan dönüb Durnanı qucaqladı, dodaqlarını onun çiynində və boynunda gəzdirib üzünə keçdi. Durna məmnuniyyətlə dabanlarını qaldırıb baş - bədəni, bütün varlığı ilə onun ağuşuna girdi. Durnadan zəif inilti səsi çıxdı, belə güclü və doğma əllər arasında sıxılıb qucaqlanmaqdan, öpülməkdən və öpməkdən şirin nə ola bilər dünyada?! Ona elə gəldi ki, ürəyinin döyüntüsünü bütün şəhər eşidir.

İntim münasibətlərin cazibəli sirri kimi məst etməyib – padşah olsun ya sadə insan, qadın

olsun ya kişi?!

Qarşıdan bir qapı açıldı, bir kişi çıxdı, onlara doğru baxdı. Aslan çarəsiz halda başını yellədi. Oradan uzaqlaşmalı oldular, yarımçıqlığı sevməyən Aslan bir az şuxluq edib "narazı"lığını bildirdi:

--Səni öpürəm, millətin gözü önündə! Gördün ki, özümü apara bilmirəm, cazibəli hüsnünü görüb coşuram. Millət də mane olur, sən də şərait yaratmırsan, utanmaz!

--Bıy! Mən nə edə bilərəm ki?! Hər yer adamla doludur.

-- Yaxşı, səhv etdim, bağışla, mənəm utanmaz! Axı sənin doğrudan da çox məlahətli və məni heyran etmiş utanıb-qızarmağın var.

Ehtiraslı qucaqlaşma və öpüşdən məst olan Durna Aslanın ona aid dediyi "utanıb-qızarmağı"eşidəndə gözlərini yumub-açdı, başını buladı:

--Sizə bir söz deyim. Deməyə də utanıram. Sizinlə görüşəndən bəri dəyişməyə başladım, çox dəyişdim. Özüm də baş açmıram, niyə belə oldum, özüm-özümü tanımıram. Siz dediyiniz kimi, utanan, qızaran bir qadın idim. İndi sizinlə küçədə, bulvarda qol-qola gəzirəm, zarafat edirəm. Allah, allah, -iki əli ilə üzünü tutdu, - öpüşürəm. Niyə belə oldum, niyə bu günə düşdüm?!

Aslan diqqətlə ona baxdı:

--Bəh-bəh! "Niyə bu günə düşdüm" nədir? Nə olub ki? Pis günəmi düşübsən?

--Yox, pis gün demədim ki, niyə belə utanmaz oldum deyirəm. Nə ehtiyat edirəm, nə qorxuram. Sizinlə şəhərdə qol-qola gəzdiyimizi anama söyləsələr nə deyim ona?

Aslan onun saçlarını sığalladı:

--Sən nə pis iş görürsən ki, kimdənsə ehtiyat edəsən, qorxasan? Ərli arvad deyilsən, heç kimi aldatmırsan, heç kimə xəyanət etmirsən. Ürəyinə yatan, sevib-seçdiyin bir kişi ilə dostcasına gəzirsən, söhbət edirsən. Bu kişi də evli deyil ki, desinlər ev dağıdırsan. Subay bir qadın, subay bir kişi ilə görüşür, bu görüşlər hər ikisini məmnun edir, əslində xoşbəxt edir. Ağlı olan adam bizə "Çox sağ olun" deməlidir - cəmiyyətin xoşbəxtlik dərəcəsini, az da olsa, yüksəltdiyimiz üçün.

Durna Aslanın sözlərindən bir qədər ürəklənsə də, tam qane olmamışdı:

--Yaxşı, qardaşım Araz ya dayım Fazil qarşımıza çıxsa nə deyim? Deyim ki, dostluq edirik, sevirik? Yaxşı bəs sonra? Sonrası nə olacaq?

--Yaxın qohumlarından kim qabağımıza çıxsa heç nə deməyəcək, nə deyə bilər ki?! Salamlaşma olacaq, məni tanış edəcəksən, əgər tanış deyiliksə. Qısa hal-əhval tutma olacaq. Mən onu çaya dəvət edəcəm. O da yəqin ki, "sağ olun, işim var" deyib aralanacaq. Biz də yolumuza davam edəcəyik, hər mənada. Vəssalam! Bir də "sonrası nə olacaq?" deyirsən. Sonrası yaxşı olacaq. Sual verəcəksən: bu nə deməkdir? Yaşayıb görərik. Bir şübhən varsa, de.

Durna düşündü. Qadın çox ürəkdən sevsə belə, diqqətli olmalı, riskləri ölçüb-biçməlidir. "Aslan tutarlı davranışı ilə fərqlənir, görüşləri açıq və hörmətlə təşkil edir, yalan vədlər vermir və sözünü tutur. O, məsuliyyətini dərk edir, qayğı və kömək göstərir, ailə bağlarıma, uşaqlara və artıq qurulmuş bir həyata sahib olduğumu qəbul edir. Bəlkə "Sonrası nə olacaq?" sualına daha aydın cavab verə bilərdi. Amma onu da çox qınamaq olmur. Hər şeyi birdənbirə demək olmur. Hər halda, nə olur-olsun, Aslan həyatımda rast gəldiyim ən münasib və ən xoş insandır"

Durna dodaqlarını Aslanın qoluna yapışdırdı. Bu təsəlli ya təşəkkür öpüşü idi?! Allah bilir.

30

Öpüş - insanın dodaqları ilə başqa bir insana, sevimli və ya müqəddəs bir əşyaya, məsələn, Qurana, bəzən də bir heyvana (itə, pişiyə, ata,...) toxunmasından ibarət mehriban davranış

və cismani təmas formasıdır. Öpüşün mənşəyi tam məlum deyil. İnsan nə səbəblə və nə vaxtdan bəri öpüşməyə başlayıb, kimsə bilmir. Bəlkə yeni doğulan uşağın dodaqları ilə ana döşünü əmməsi və ananın bunu təqlid edib uşağı öpməsi dayanır öpüşün kökündə?! Bəlkə öpüş ananın və ya dayənin körpəni ağızdan - ağıza yedizdirməsi təcrübəsindən qaynaqlanıb? Ya ola bilsin öpüş kişi - qadın cütünün əlaqəsini gücləndirmək üçün təkamül etmişdir?!

Öpüş çox müxtəlif duyğuları, hissləri ifadə edə bilir - sevgi, salamlama, hörmət, minnətdarlıq, yoldaşlıq, yaxınlıq, qarşılıqlı qayğı, incəlik, etibar, əlaqə, cinsi cazibə... İnsan cazibəni, uyğunluğu, arzu və duyğulu ünsiyyəti qiymətləndirmək və ya gücləndirmək üçün şüurlu və ya şüursuz şəkildə öpüşdən istifadə edir. İlk öpüş isə həyata açılan yeni pəncərə kimidir-həmişə xatırlanır. Uzun illər ortaq keçmişi - uşaqları, uğurları, çətinlik və xəstəlikləri, səyahət və xatirələrini bölüşən yaşlı qadın və kişi cütü öz sevgilərini mehribanlıqla və ləyaqətlə ifadə edirlər - sakitcə birlikdə oturmaqla, əl-ələ tutmaqla, qucaqlaşmaq və öpüşməklə.

Sivilizasiyanın ilk daşını qoyanlar da, gələcəyin ilk quruculari da bir-birini seçən, qucaqlaşan və öpüşən qadın və kişi cütləridir. Hər əsl öpüş bənzərsizdir, yeni bir cığırdır. Öpüşü sadəcə romantika ilə məhdudlaşdırmaq olmaz, o, sevgini, ailəni, azadlığı və bəşəriyyətin bioloji və mənəvi davamlılığını təmsil edir. Öpüş bəşəriyyətin ilk dilidir, nitqdən, elmdən, dindən, fəlsəfədən və sivilizasiyanın özündən daha qədimdir. İlk daş alət işə düşəndən və ilk təkər fırlanandan çox əvvəl, ilk kənd salınandan və ilk yazı meydana çıxandan çox-çox əvvəl bir qadın və bir kişi dodaqların səssiz dilini kəşf etdilər. Sivilizasiyanı insanlararası yaxınlıq yaratdı. Öpüş sadəcə iki ağzın görüşməsi, dodaqların bir-birinə toxunması deyil, iki iç dünyanın görüşü, bir-birinə qovuşmasıdır. Öpüş iki ruh arasındakı ən qısa məsafə və "mən"dən "biz"ə ən qəşəng səyahətdir.

Dünyaya gələcək hər uşaq əvvəlcə xəyal edilir, sonra sevgi ilə qarşılanır və daha sonra saysız-hesabsız öpüşlərlə əhatə olunur. Bəşəriyyətin gələcəyi qadın və kişinin öpüşü, bir-birinə bağlılığı və bu bağlılığın yaratdığı enerjidən qurulur. Sabahın ilk memarları öpüşməyə və sevməyə cəsarət edən kişi və qadın cütüdür.

Öpüş məntiqin, dərrakənin deyil, onlardan daha qədim olan hissin, həyəcanın məhsuludur, həyatın zəfəridir. Qısa öpüş anında hesab və ya səmərə yoxdur, etibar və incəlik var. Hər həqiqi öpüş dəqiq ölçülə bilməyən duyğuları, kişi və qadın arasındakı cazibə qüvvəsini nümayiş etdirir. Bunlarla yanaşı, öpüş həm də müqavimət hadisəsidir; o, sonsuz və qarışıq bağlantı çağında tənhalığa müqavimət göstərir, insanı tənhalıqdan xilas edir.

Öpüş hər şeydə fayda güdən soyuq məntiqə tabe olmur. Dövrümüz robotlara insan sifəti, insan qabiliyyəti verməyi xəyal edir. Robot insan üzünün hər hərəkətini heyrətamiz dəqiqliklə təqlid edə bilər, dodaqların hərəkətini təkrarlaya bilər, insanın görə bilmədiyi, gücü çatmayan ağır işləri görə bilər. Lakin onun mükəmməl ifasının arxasında titrəyən bir ürək dayanmır, rədd edilmə qorxusu, yoxluqdan doğan həsrət, hicrandan sonrakı vüsal sevinci, özünü başqasına həsr etmək hissi yoxdur. O, ancaq icra edir, təqlid edir. Robotları təkmilləşdirmək yaxşıdır, faydalıdır. Amma daha böyük vəzifəmiz insanın öz sifətini itirməməsini təmin etməkdir. Öpüş insanın yavaş-yavaş itaətkar robota çevrilməsinə imkan vermir! Robot biliyimizi miras ala bilər, insanlığımız isə sevginin yadigarıdır. Gələcək heç bir mükəmməl maşının sahib ola bilmədiyi, ancaq insana xas olan qabiliyyətdən – həyat bəxş edən öpüşün və sevginin davam etməsindən asılıdır.

31

Daşkənd hava limanından Mərkəzi (Şimal) Dəmir Yolu Vağzalına birbaşa getmək əvəzinə Aslan Daşkənd haqqında Durnada ilkin təsəvvür yaratmaq üçün dolanbac yol seçdi. Taksini

diqqətəlayiq yerlərdə saxlamaqla gəzə-gəzə sonda Əmir Teymur meydanı və Daşkənd Şəhər Parkında dayanıb vağzala yetişdilər. Aslan üçün bu sevdiyi Özbəkistana bir qayıdış, Durna üçün isə ilk gəliş idi. Qadın yanında addımlayan kişiyə etibar edirdi. İlk addımdan etibarən bu qədim torpaq onların ortaq xəyallarına, sevgilərini böyüdən birgə məkana çevrilməyə başladı.

Özbəkistan və Səmərqənd haqqında çox oxumuş və eşitmiş olsa da, Durna üçün hər şey yenidir: hava limanı, danışılan dil, insan simaları, memarlıq, hətta hava belə. O, özünü tamamilə yad hiss etmir, çünki Özbəkistan və özbək mədəniyyəti azərbaycanlı üçün anlaşılan və xoşa gələndir. Rahatdır, çünki yanında bu məkanı ona tanıdacaq sevimli insan var. Təyyarədə və taksidə yol gedə-gedə düşünürdü. "Bir müddət adi həyatımdan kənara çıxıb, doğma dünyamızı geridə qoyub yeni dünyaya daxil oluram – sevgilimlə birlikdə! İkiqat həzz!

Aslan Durnanın rahatlığı üçün özündə bir məsuliyyət hiss edirdi. "Burada əvvəllər olmuşam, amma indi onunla bir yerdəyəm, ona görə yeni, fərqli səfərdəyəm. İstəyirəm ki, bura gözəlim Durnanın xoşuna gəlsin. Gözəl yerləri ona göstərmək, onu məmnun etmək istəyirəm, hər ikimizə aid yeni xatirələr yaşansın."

İki sevgili yeni ölkədə müvəqqəti olaraq iki vətəndaşlı bir dünyaya çevrilirlər. Onlar həm ölkəni, həm də yeni şəraitdə, səyahətdə bir-birlərini yenidən kəşf edəcəklər.

"Afrosiyob" qatarı [17] Daşkənddən Səmərqəndə doğru yola düşəndə Durna pəncərənin yanında oturub otlu-ağaclı yaşıllıqların, tarla, çöl və evlərin sürətlə arxalarında yoxa çıxmasını seyr edir, hərdənbir irəlini görməyə çalışırdı. Aslan sağ əlini uzadıb ovcunu açdı. Heç nə demədi. Bir an keçdi. Durna əlini onun əlinin üstünə qoydu, sonra dodaqlarını azca büzüb ona öpüş göndərdi. Xoş təşəbbüs və oynaq seçim.

Bir-birini tanıyalı bu, onların birlikdə ilk səyahəti idi. O vaxta qədər onların sevgisi söhbətlərdə, dəfələrlə oxunan mesajlarda, əvvəli təmkinli, davamı çoşqun olan görüşlərdə pərvazlanırdı. İndi onların Özbəkistanda, sürətlə hərəkət edən bir qatarda yan-yana oturması, bu sadə həqiqət fövqəladə hiss-həyəcan axını doğururdu.

--Necəsən, gözəlim?!

Aslanın sadə sualına Durnadan duyğulu cavab gəldi:

--Xoşbəxt olduğumu deməyə qorxuram.

--Niyə?

--Çünki xoşbəxt olduğumu səsim ətrafa yayar və... göz dəyər.

Aslan güldü:

--Gərək göz muncuğu götürəydin Bakıdan.

-- Götürmüşəm, çantamdadır.

--Biz ki, dordəlli, dörd ayaqlı möcüzəli bir məxluq olmuşuq, ona adi insan gözü dəyə bilməz, narahat olma.

Durna fikrə getdi, sonra Aslana baxdı:

--Biz niyə belə gec görüşdük, gec tanıdıq bir-birimizi?

--Hə... Əvvəl mən verirdim bu sualı, növbə sənəmi çatdı? Bir-birimizi tanımaq vaxtı gəlməmişdi, elə ki, gəldi, yetişdi, onda görüşdük.

--İyirmi il əvvəl görüşsəydik...

--İyirmi il əvvəl görüşsək səni heyran etməyə çalışardım. Sən də havalı olduğun üçün heyran olmazdın, bir az olsan da olmamış kimi davranardın. Bir-birimizi, böyük ehtimalla, tam başa düşməzdik, bəlkə də səhv başa düşərdik.

---

17. "Afrosiyob" qatarı. Daşkənd-Səmərqənd-Buxara və Daşkənd-Səmərqənd-Qarşi marşrutları ilə hərəkət edən sürətli qatar

Durna gülümsədi:

--Bəs indi?

-İndi səni heyran və fəth etməyə çalışmıram. Sadəcə sənlə dürüst və səmimi olmaq istəyirəm, əlbəttə, bacardığım qədər.

32

Səmərqənddə tarixi mərkəzin yaxınlığındakı Kontinental oteldə yerləşdilər.

Durna ikiadamlıq enli çarpayının üstündə oturub Aslana baxdı, Aslan ona yaxınlaşdı. Durna qızardı. Aslan onun yanında oturub gözünü yumdu, üzünü ehmalca Durnanın üzünə yapışdırdı. Sevgililər ilk dəfə bir otaqda, bir çarpayıda birləşirdilər. Onlar sönmək bilməyən ehtirasla yanaşı, maneələrin qəfil yoxa çıxması kimi daha bir güclü və qəribə hisslə qarşılaşdılar. Bu vaxta qədər hər qucaqlaşma, xüsusilə öpüş ehtiyat tələb edir və yarımçıq qala bilirdi - kimsə görə bilərdi, vaxt az idi. Hər görüş, nə qədər uzun sürsə də, sonra ayrılmaq lazım gəlirdi. İndi ilk dəfə bağlaya biləcəkləri bir qapı və yalnız onlara məxsus olan saatlar, günlər var idi.

Qadın və kişi təbii olaraq sevinir, eyni zamanda qəribə duyğular yaşayır, özlərini bir az narahat hiss edirdilər. Dalda küçələrdəki öpüşlər onlara yaxınlığın dadını hiss etdirmiş, eyni otağı paylaşmaq isə maneəsiz yaxınlığa şərait yaratmışdı. Amma bu fürsət suallar da doğururdu. Gerçəklik təsəvvür edilənə bənzəyəcəkmi? Aramızda məsafə olmadan, pərdə olmadan o, məni necə qəbul edəcək?

Bu vəziyyət uzun çəkmədi, bir rahatlıq hissi ilə əvəz olundu. Sakitcə yan-yana oturub heç kimi narahat etmədən danışmaq, gülmək imkanları vardı. Biri yuxuya gedib oyandıqdan sonra digərinin hələ də orada olduğunu görə bilərdi. Qucaqlaşmağı və öpüşü bir neçə saniyədən sonra bitirmək məcburiyyəti yox idi. Bu davamlılıq psixoloji cəhətdən vacibdir: sevgi oğurlanmış bir hadisə olmaqdan çıxır və ortaq həyat həzzinə çevrilir. Heç nədən çəkinmədən azad gəzib-dolaşmaq və gecə-gündüz birlikdə olmaq səadəti ilə yanaşı, intim yaxınlığın doğurduğu həyəcan, şəfqət və maraq, həmçinin bir-birini məyus etmək qorxusu da yaşanırdı. Keçici ər-arvad olmaq hissi, hələ özlərinə məxsus olmayan bir həyata sahib olmaq duyğusu onlara qəribə gəlirdi.

Aslan Səmərqənddə iki dəfə olmuşdu, şəhəri tanıyırdı. Otaqdan geniş yol, park və şəhərin damları görünürdü. İçəridə qalmaq istəmədilər. Gəzməyə gəlmişdilər. Bakıdakı tanış insan çoxluğundan ayrılıb qol-qola Səmərqəndin qədimliyinə qovuşmaq istəyirdilər. Səmərqənd onları işıqlı, buludsuz səma və qızmar yay istisi ilə qarşıladı. Birdən göyün üzü qaraldı, Günəş yoxa çıxdı. Dəhşətli bir leysan və dolu yağmağa başladı. Hər tərəfə səpələnən iri, yuvarlaq buz dənələri yeri döyəcləyib səs salır, ağacların yarpaq və budaqlarını qırıb tökürdü. Sevgililəri salamlayan dolu və yağış Səmərqənddə istisna bir təbiət hadisəsi idi. Sevgililər bu yağışı Bakıdan sonra Səmərqəndin də onları salamlaması kimi qəbul etdilər. Bu, bir sevgi yağışı, sehrli sevgi nağılı idi. İsti hava yağışdan sonra sərin, tərtəmiz havaya döndü.

Səmərqənddə ilahi göyün maviliyi sənətkar qüdrətinin yer üzərində yaratdığı qədim möhtəşəm abidələrin maviliyi ilə qovuşur, bu mavilik təbiətin göz oxşayan yaşıllıqları, hündür, qollu-budaqlı ağacları ilə ittifaqa girib lətif gözəllik, möcüzəli bir dünya nümayiş etdirir. Sevgililər gedişli-gəlişli geniş yollarda, Günəş şüalarına qarşı çətir tutan bağlarda, qədim həyətlərdə gəzib-dolaşmaqdan yorulmadılar.

33

Məşhur Registan meydanına [18] getdilər. Meydandakı firuzəyi, qızılı, göyümtül - bənövşəyi və torpaq sarısı rənglərlə, həndəsi naxışlarla örtülmüş üç mədrəsə ansamblı sanki üzü səmaya açılmış üçölçülü nəhəng əlyazma idi. Bir neçə dəqiqə heç biri danışmadı. Aslan abidələr önündə dayanıb fikrə getdi. Durna Aslana baxdı. Onu başqa insanlar arasında diqqətlə izləmişdi, Aslan hər zaman inamla danışır, adətən diqqətlə dinləyir, bir müddət susur, sakit dayanırdı. Burada o, fərqli görünürdü. Üzündəki ciddiyyət yox olmuşdu. Heyranlıq onu yumşaltmışdı.

Aslan Uluqbəy mədrəsəsinin mahiyyəti və qısa tarixi barədə Durnanı məlumatlandırdı. Mədrəsənin daxili hissəsindəki qədim hücrələrdə milli suvenirlər, bəzək əşyaları, ipək şərf və paltarlar satılırdı. Hücrələrin birində şarf satan yaşlı qadın onları maraqla izləyirdi. Birdən o, rusca soruşdu:

--Təzə evlənmisiniz?

Durna və Aslan bir-birlərinə baxdılar.

--Xeyr, -deyə Durna cavab verdi.

Cavab qadına bəs etmədi:

--Deməli, təzə aşiq olubsunuz...

Bu dəfə heç biri onu düzəltmədi, yenidən xoş nəzərlə bir-birinə baxdılar.

Aslan Durnaya yaşıl-firuzəyi rəngli şərf və rəngbərəng özbək milli geyimi aldı. Durna əvvəl etiraz etsə də, ona çox yaraşdığını görüb gözlənilmədən Aslanın yanağından öpdü, hətta sözlə də oynadı:

--Səmərqəndin baş meydanına gəlib öpüşməməyimiz günah olar.

Aslan baş hərəkəti ilə razılığını bildirdi, Durnanın qoçaqlığını "maşallah"la qarşılayıb əlavə etdi:

-Bakıda bərabər gəzərkən özbək paltarını geyin, özbək gözəlinə dön, bu həqir bəndən də bu sevgi səyahətinin dadını və qoxusunu yenidən yaşasın.

Ortaq xoş gələcək haqqında deyilən hər fikir, hər söz məmnunluq doğurur.

Durna gözlərini aşağı saldı - utancdan deyil, xoşbəxtliyi içində gizlədib yaşatmaq üçün.

Axşamüstü Əmir Teymurun şəxsi nəzarəti altında inşa olunmuş Bibi-Xanım məscidinə [19] doğru getdilər. Günəşin batması qədim kərpic hörgünü bal rənginə çevirmişdi. Məscid kompleksinə baxıb yaxınlıqdakı Siyab bazarına [20] üz tutdular, üç tağ şəkilli baş girişdən içəri daxil oldular. Nəhəng bazar hələ də dolu idi. Quru ərik, badam, kişmiş, ədviyyatlar, yemiş, turşular və yuvarlaq Səmərqənd çörəyi satanlar səslənir, gəl-gəl deyirdilər.

Durna quru meyvələrin dadına baxmağa başladı. Başladı, nə başladı! Aslana onun arxasınca gəzmək qaldı. Aslan "Sənə bir Özbəkistan yemişi və bir Səmərqənd çörəyi alacam, evə apar" dedi (və etdi).

34

Ertəsi gün səhər sevgililər Günəş doğmazdan əvvəl oyandılar. Bir neçə dəqiqə pəncərədən boylanıb şəhərin qaranlıqdan silkinib çıxmasını izlədilər. Ağaran, al rəngin çalarları ilə işıqlanan səma altında günbəzlər və minarələr göründülər. Hara, hansı maraqlı yerlərə getməyi bu şəhərlə tanış olan Aslan təklif edir, Durna da məmnuniyyətlə "gedək" deyirdi. Bu dəfə Durnanın təklifi ilə (ona da Bakıda bir iş yoldaşı deyibmiş) Səmərqəndin səs-küylü

18. Registan meydanı. Səmərqəndin mərkəzində yerləşən, 15-ci əsrdə inşa olunmuş Uluqbəy mədrəsəsi və 17-ci əsrə aid Şirdor və Tilla-Kari mədrəsəsindən ibarət məşhur meydan

19. Bibi-Xanım məscidi. Əmir Teymurun təşəbbüsü və rəhbərliyi ilə inşa olunmuş məscid- memarlıq abidəsi

20. Siyab bazarı. Səmərqəndin Siyab çayı sahilində yerləşən, insanların ən çox gəldiyi yerlərdən biri olan böyük bazar

mərkəzindən kənarda yerləşən Konigil kəndindəki kağız fabrikinə [21] səfər etdilər. Səmərqənd və kağız mövzusu maraqlıdır, tarixi çaları var. 751-ci il İslam ordusu ilə Çin ordusu arasındakı Talas savaşında [22] müsəlmanlar əsir düşən çinlilərdən kağızın nə olduğunu öyrəndilər və Səmərqənddə ilk kağız karxanasını qurdular. Buradan kağız İslam dünyasına, daha sonra Avropaya yayıldı.

Bura fərqli bir dünya idi, maraqlı muzey və əsl kənd həyatı ilə qarşılaşdılar. Tut ağacının qabığından ipək kimi kağızın necə yaranmasını addım-addım izlədilər. Son mərhələdə Aslan kağız düzəltməyə girişdi, mərmər daşla qurumuş vərəqi cilalayıb işi bitirdi. Bir an sakit dayandı, sonra Durnaya tərəf döndü, kağızı iki əli ilə yuxarı qaldırdı, o üzünə-bu üzünə çevirib Durnanı yelpiklədi; bu, tək Durnanın deyil, ətrafdakı turistlərin də xoşuna gəldi, kimsə əl çaldı. Ərazidə qədim üsulla tikilmiş su dəyirmanları və kiçik asma körpülər vardı. Aslan bu canlı laboratoriyada Durnaya dənin necə üyüdüldüyünü izah etdi.

Durna fotoşəkil və video-çəkiliş həvəskarıdır. Gecəli-gündüzlü, dağlı-aranlı, çaylı-göllü təbiət mənzərələrini, memarlıq abidələrini, özü və ətrafındakıların maraqlı anlarını şəkil qalereyasına və musiqili qısa filmlərə döndərməkdən həzz alır. Səmərqənddə çəkiliş üçün Aslanın daha yeni olan mobil telefonundan istifadə etmək istədi. Aslan məmnuniyyətlə telefonunu ona verdi, zarafat da etdi (zarafatında həqiqət də vardı):

--Mənim canımı qurtarırsan yay vaxtı bu yükü cibimdə daşımaqdan. Sağ ol!

Durna və Aslan gah yanaşı gəzir, söhbət edir, gah aralanır, hərə öz marağına uyğun yerə baxır və ya biri oturub dincəlir, digəri gəzib dolanırdı. Aslan Durnaya sərbəstlik vermək və bir az da dincəlmək üçün gəzə-gəzə aralandı, bir tərəfdə əyləşib təzə portağal suyu sifariş etdi. Ürəyi Durnanı istədi. "Həyatım nə gözəl dəyişdi. Durna olmasa, mənə rast gəlməsə, dünya əlbəttə, dağılmazdı, əvvəlki kimi qalardı, mən də əvvəlki kimi yaşayar, yoluma davam edərdim. Amma gəldi, çıxdı qarşıma, dünyam gözəlləşdi, yeni məna qazandı. İndi bu yeni dünyada elə xoşbəxtəm ki, Durnasız həyatı təsəvvür edə bilmirəm...". Bir müddət keçdi. Durnanın sakitcə yaxınlaşıb yanında əyləşdiyini hiss etmədi. Birdən onu görüb qucaqladı, Durna həmişə olduğu kimi ona sığınmaq, qucağına girmək əvəzinə başını yana döndərdi. Aslan təəccübləndi:

--Nə olub, gözəlim? Kefin niyə pozulub?

-Nə olacaq?! Əziz Svetan sağ olsun, yazışdığın o biri əziz xanımlar sağ olsunlar!

Bunu deyib telefonu Aslanın qarşısına masanın üstünə qoydu. Aslan anladı, Durna mobil telefondakı köhnə və bəzi yeni yazışmaları izləyib. Bərk hirsləndi, sifəti bozardı. Ayağa qalxıb Durnanın üzünə baxmadan və heç nə demədən sürətlə aralandı. Durna özünü itirdi, Aslandan belə kəskin münasibət, bu cür sərt davranış gözləmirdi. Ağladı. Halı pisləşdi. Göz yaşlarını silib Aslanın arxasınca getdi. Onu bağın içindən axan çayın kənarında, bir daşın üstündə oturmuş vəziyyətdə tapdı. Yaxınlaşdı:

-- Nə dedim ki, belə hirsləndin, üzün döndü? Sadəcə maraqlandım - Sveta ilə əlaqəniz bitməyibmi? Digər bir xanım da sənin işini, yazını tərifləyir, amma gözü səndədir, hiss olunur...

Aslan dillənmədi. Onun üz, göz və dodaqlarından heç vaxt əksik olmayan təbəssümündən bir iz-toz qalmamışdı. Durnanın gözü yenə yaşardı:

--Məni düz başa düşməmisən. Nə günah işlətdim ki? Günahım varsa bağışla.

Əlini Aslanın saçlarına toxundurdu. Aslan yavaşca gözlərini qaldırıb Durna tərəfə baxdı,

21. Səmərqənd yaxınlığında yerləşən Konigil qəsəbəsində "Konigil kağız dəyirmanı" və ya "Miras kağız fabriki" adı ilə tanınan və orta əsrlər kağız hazırlama texnikasını nümayiş etdirən turist mərkəzi

22. Talas savaşı. İslam Abbasi dövləti ilə Çin Tan dövləti arasında baş verən bu savaş Talas çayı sahilində, indiki Qırğızıstan və Qazaxıstan sərhədləri yaxınlığında baş verib (Özbəkistana da yaxındır). Çin tərəf məğlub oldu. İslam ordusunun qələbəsində karluq türklər mühüm rol oynadılar. Əsir düşən çinlilərdən kağız hazırlama işi öyrənildi və Səmərqənddə kağız istehsalı başlanıldı

üzünə-gözünə deyil, Durna tərəfə:

--Svetanı mən neçə illərdir görmürəm. O öz həyatını yaşayır, mən də öz həyatımı. Qızımız Saranı İstanbulda ali məktəbə qoyandan sonra bir-iki dəfə təşəkkür, ümumi hal-əhval məktubu yazıb, mən də ona cavab vermişəm. Ümumiyyətlə, çoxsaylı insanlarla əlaqəm var, ortaq maraqlar var, həmkarlıq var. Onlar arasında qız, qadınlar da var. Və... Və səndən başqa ehtirasla öpüb əzizlədiyim başqa qadın yoxdur. Sən isə sənə yaraşmayan, sənə yaraşdırmadığım bir iş etdin, telefonumdakı yazıları araşdırmağa başladın. Məni günahlandırırsan. Utanmırsan?

Durna sarsıldı. Üzü soldu. Göz yaşlarını saxlaya bilmədi:

--Əzizim, mənə qarşı çox ağır ittiham qaldırdın. Sənin məktublarını tapıb oxumaq fikrim olmayıb. Etmərəm bunu. Sadəcə, çəkdiyim şəkil və videoları öz telefonuma göndərəndə təsadüfən iki yazışma gözümə dəydi. Mənə toxundu onlar. Bu təbii deyilmi sevən insan üçün?!

Aslan bu dəfə diqqətlə Durnanın üzünə baxdı, onun yaxşı vəziyyətdə olmadığını gördü. Hələ hirsini tam boğa bilməsə də təmkinini bərpa etdi:

--Gözəlim, sevgilim! Mənə qarşı bir az qısqanc ola bilərsən, bu, başa düşüləndir. Məsələ onda deyil. Bir yanlışın məndən şübhələnməyindir. Deməli, məni yaxşı tanımırsan. O halda niyə sevirsən məni? Kim səni məcbur edir? Digər, daha böyük yanlışın özünə hörmət etməməyindir. Niyə belə xoşagəlməz işlə, sevdiyin insanın telefonunu təftiş etməklə məşğulsan?

Bunu deyib ayağa qalxdı, Durnanı qucaqlayıb alnından öpdü. Durna artıq neçənci dəfə göz yaşlarını saxlaya bilmədi, özbaşına buraxdı.

35

Üçüncü gün səhər yeməyindən sonra Şahi-Zinda mavzoleylər kompleksini, günorta yeməyindən sonra isə Əmir Teymur Məqbərəsini ziyarət etdilər. Aslan hər iki abidə barədə qısa məlumat verdi. Günorta yüngül yağış yağmağa başladı. Küçədə daşlar qaraldı, firuzəyi günbəzlər boz səma fonunda daha parlaq, daha canlı göründülər.

Otelin qarşısında çox hündür, əzəmətli ağacların nəfəs alıb nəfəs verdikləri gözəl park vardı. Parkın otelə yaxın olan ucunda Əmir Teymurun böyük heykəli dayanmışdı. Sevgililər çox zaman onun yanından keçir, qarşısında dayanır, söhbət edirdilər. Bura Durnanın xoşuna gəlirdi. Günorta idi. Əmir Teymurun həyatı və savaşları barədə söhbət edirdilər. Durna söz atdı:

--Mən hökmdarları deyil, elm və sənət adamlarını sevirəm. Dünyanı gözəlləşdirən, beynimizi və ruhumuzu oxşayan onlardır. Əmir Teymurla Hafizin əhvalatını yəqin bilirsən...

Aslan bu əfsanəni əlbəttə yaxşı bilirdi, yeri gələndə kimlərəsə danışmışdı. Son illər isə, yeri gəlsə də onu danışmamağa, təkrar etməməyə, yada salmamağa çalışırdı, "bir şeyi nə qədər danışarlar?!". İndi Durna söz salanda dillənmədi, "bilirəm" demədi. Durna ürəyində "nə əcəb bilmir" deyə təəccübləndi, həm də sevindi ki, sevdiyi, söhbətindən doymadığı bir insana maraqlı bir rəvayət söyləyəcək...

... Hafiz Şirazi`nin bir qəzəlində belə bir beyt var:

Əgər an torke-Şirazi be dəst arəd dele ma ra,

Be xale henduyəş bəxşəm Səmərqəndo Buxara ra. [23]

Mənası belədir: "Əgər o Şiraz türkü qəlbimi ələ ala bilsə, onun hind xalına (yəni, qara xa-

23. Hafiz Şirazinin qəzəlindən ilk beyt. Farsca orijinalı:

ار ام لد درآ تسد هب یزاریش کرت نآ رگا

ار اراخب و دنقرمس هشخب شیودنه لاخ هب

lına) Səmərqəndi və Buxaranı bağışlayaram."

Deyilənə görə, Əmir Teymur bu sözləri eşidəndə əmr edir, Hafizi onun hüzuruna gətirirlər. Teymur qəzəbli halda Hafizi dindirir:

-- Mən bu qılıncla dünyanın yarısını fəth etdim, çox ölkəni viran etdim ki, mənim taxt-tacım olan Səmərqənd və Buxara abad olsun. Sən isə mənim Səmərqəndimi, Buxaramı bir Şiraz türkünün, bir gözəlin qara xalına bağışlayırsan! Yəni sən belə səxavətlisən?!

Deyilənə görə, Hafiz zəhmli hökmdarın qarşısında özünü itirmir, təbəssümlə:

--Ey aləmin sultanı, bax elə bu səxavətimin nəticəsidir ki, bu günə düşmüşəm, - deyib kasıb görkəmini, köhnə əbasını, nimdaş paltarını göstərir. Şairin gözəl cavabından təsirlənən Əmir Teymur onu bağışlayır, nə bilim, bəlkə hədiyyə də verib...

--Əladır, hə?! Amma, bilmirəm bu görüş harda baş tutub? Səmərqənddəmi, ya harda?

Aslan Durnanı qucaqlayıb öpdü, üzünü Əmir Teymurun heykəlinə tutub:

--Bağışla, Əmir Teymur, hüzurunda yüngüllük etdim, - dedi və qaşlarını dartıb gülümsündü:

--Gözəlim, rəvayətə görə bu Şirazda baş verib, Əmir Teymur ora hücum edəndə "Şirazlı Hafizi tapın, gətirin" deyib. Bir də, ləzzətlə söylədiyin bu rəvayətin fərqli bir sonluğu da var. Hafiz hökmdarın qəzəbindən qorxub deyir ki, "Ey dünyanın sahibi, şeiri sizə düz çatdırmayıblar, təhrif ediblər. Mən Be xale henduyəş bəxşəm Səmərqəndo Buxara ra deməmişəm, demişəm ki, Be xal-e henduyəş bəxşəm se mən qənd-o do xorma ra [24] . Onun qara xalına üç mən qənd, iki xurma bağışlayaram". "Mən" o dövrün çəki vahididir. Əmir Teymur Hafizin hazırcavablığına heyran qalıb onu bağışlayır...

Durna qaşlarını çatıb başını buladı, qınayıcı nəzərlə Aslana baxdı:

--Ayıb deyil, məni ələ salıbsan?

Aslan öz növbəsində başını buladı:

--Bu nə deməkdir, dəlimi olubsan? Nə demək istəyirsən?

--Mən soruşdum ki, "Əmir Teymur və Hafizin rəvayətini bilirsənmi?", dedin ki, "bilmirəm", mən ağılsız da ağzımı açıb sənə guya təzə bir şey danışdım.

Aslan güldü:

--Ay ədəbiyyatçı xanım, sözü olduğu kimi de, uydurma, bizim ləhcəmizdə burcutma deyirlər. Sualına gələndə isə, mən dillənmədim ki heç! Nə vaxt "bilmirəm" dedim?

--Nəsə... Başa düşdüm, istəyibsən ki, mən danışım.

--Ay sağ ol! Hər şey yoluna düşdü məncə.

Durnanın hirsi keçdi, ürəkdən güldü:

--Deməli, şair də bizim kimi - sözü böyük deyib, sonra burcudub qaça bilirmiş.

--Həəə, ay Durna xanım, aşiqin təbiəti belədir. Sözün sonsuz imkanlarından bəhrələnir, ağlına nə gəlirsə dildə onu vəd edir. Söz vermək asan, ona əməl etmək çətindir. Həyatda isə aşiq "sənə həyatımı verməyə hazıram deyir", bu gurultulu böyük vəd də çox zaman sevgilisinə bəs edir.

36

Yerli mətbəxlə yaxşı tanış oldular, ləzzətlə Səmərqənd plovu, təndirdə samsa, mastava, laqman yedilər [25] . Şərqin qəlbində Qərb romantikasını da daddılar, bir axşam yeməyi üçün otelin yanındakı italyan restoranına getdilər. Durna yeyə-yeyə "of, arıqlamaq istəyən qadına bax, gecə-gündüz yeməkdədir, gözü doymur, ujas" [26] .

---

24. Farsca orijinalı: ار امرخ ود و دنق نَم مس مشخب شیودنه لاخ مب . "Mən" çəki ölçüsü olmaqla, diyardan diyara dəyişib, Təbrizdə "mən" təqribən 3 kiloqrama bərabər ölçü olub

25. Səmərqənd plovu, təndirdə samsa, mastava, laqman. Özbək mətbəxinin populyar yeməkləri

26. Ujas. Rusca "dəhşət" mənası verən söz

Aslan ona ürək-dirək verdi:

--Səfərdə arıqlamaq olmaz! Bu, savaşa silahsız getmək kimi ağılsız bir şey olardı.

--Eh, sənə nə var ki?!

Gecə yenidən Registan meydanına qayıtdılar. Yerin üstündə, göyün aşağı endiyi yerdə işıqlanan üç mədrəsəli meydan və onlara tərəf boylanan insanlar sanki ayrı, təcrid olunmuş, başqa planetdən gəlmiş bir dünya idi. Fotoşəkillər bu mənzərəni əks etdirir, yadıgar qalır, lakin onlar axşam havasını, yaxınlıqdakı əlin istiliyini, ayrılığın hüznünü əks etdirməkdə acizdir.

Səmərqənddə keçən üç gün özü ilə xəfif bir hüzn də gətirdi. Vaxt məhdud olduğundan, vüsal elə lap başdan öz içində bir hicran duyğusu ilə qarşılaşır. Otelə çatıb onlara ayrılmış otağa daxil olanda xoş bir düşüncə vardı: "qarşımızda üç tam günümüz var". İkinci gün: "geriyə yalnız sabah qalıb." Üçüncü gün isə hər adi an belə qiymətli idi, çünki o, xatirəyə çevrilməkdə idi. Nə olursa - olsun, nə qədər gözəl günlər yaşansa da, arada sancılı, ağrılı bir sual dolanır: bu üç gündən sonra nə olacaq? Bircə şey məlumdur: yaşadıqları bu üç günün həsrətini çəkəcəklər.

"Afrosiyob" onları Daşkəndə aparırdı. Səmərqənd qatarın arxasında yox oldu - əvvəlcə evlər, sonra ətraf, sonra günbəzlərin mavi rəngi. Durna yenidən pəncərənin yanında yerləşdi. Aslan onun yanında oturub telefonunda nəyəsə baxırdı, birdən başını qaldırıb sükutu pozdu:

--Nəsə susubsan, danışmırsan.

--Bu üç gün çox azdır.

--Səmərqəndə? Səmərqənd üçün?

--Bizə. Səmərqənddə bizə. İstəmirəm ki, bu səyahət bir dəfə baş verən gözəl bir hadisə olaraq qalsın.

--Bəs nə olsun?

--Bir başlanğıc olsun. Davamı olsun.

Durna bunu deyib əli ilə Aslanın üzünü sığalladı:

--Nə vaxt qayıdacağıq Səmərqəndə?

Aslan əllərini yuxarı qaldırıb döşünü irəli verdi. Gümrah görünürdü, ötkəm səslə dedi:

--Nə vaxt istəsən!

Durna başını tərpətdi və pəncərədən sürətlə dəyişən mənzərəyə tərəf baxmağa başladı.

Aslan Səmərqənd barədə sözünü tamamladı:

--Əlbəttə, Səmərqənddə görməli çox yerlər, abidələr var ki, onlara vaxtımız çatmadı. Daşkənd böyükdür, paytaxtdır, amma tarixdəki rolu və tarixi abidələr baxımından Səmərqənd Daşkənddən daha məşhurdur – məncə belə demək mümkündür. Hə, bilirsənmi - Özbəkistan Sovet Sosialist Respublikasının ilk paytaxtı Səmərqənd idi, 1925-1930-cu illərdə.

Birlikdə xatirələrə daldılar. İtirdikləri valideynlərdən, orta və ali məktəb həyatlarından, iş həyatı və kitablardan danışdılar.

Durna barmağı ilə yavaşca pəncərəyə toxundu:

--Xatirəsiz insan yoxdur. Bax, keçmişdəkiləri necə xatırlayırıq.

Aslan sağ əlinin şəhadət barmağını Durnanın pəncərəyə toxunan barmağı üstünə qoydu:

--Biz keçmiş zamanda qalanda yəqin bizi də xatırlayanlar olacaq. Məndən sonra yəqin sən məni xatırlayacaqsan.

Durna hirsləndi, barmağını Aslanın dodaqlarına toxundurub "sus" işarəsi verdi.

Geri Daşkəndə gedən yolda dəyişiklik yoxdu, həmin tarlalar, kəndlər, yollar, ağaclar, otlar və geniş Özbəkistan səması və sevgini gələcəyə daşıyan bir ifadə - "Nə vaxt istəsən".

Aslan yol üçün götürdüyü kitabı əlinə alıb oxumağa başladı. Durna qəlbinin dərinliklərindən gələn bir hərarətlə, şəfqət dolu gözlərlə bu doğma insanı seyr edir, fikirləşirdi...

... Bu insanı niyə belə çox, əslində dəlicəsinə sevirəm?! Uzun illər idealım olub, uzaqdan. Tanış oldum, sevdim, xoşbəxt oldum. O da məni sevdi. Sevib o dərəcədə də sevilmək inanılmaz duyğudur! Əlbəttə, ideal deyəndə söhbət canlı insandan gedir, onun xasiyyət və davranışında təbii, fərqli xüsusiyyətlər olur. Mənim Aslanım adi saydığı şeylərlə başını yormur, onu başqalarına həvalə edir. Telefonundakı şəkilləri, videoları "sən düzəlt, ixtisar et, qaydaya sal" dedi. Çox götür-qoy edəndir, düşünür, düşünür. Qadınlar onu çox sevirlər. Niyə də sevməsinlər. Mən niyə sevdim?! O da biganə qalmır, sərbəst davranır, zarafat edir. Bundan bir az xoşum gəlmir. Amma üzü dönəndə yaman dönürmüş. Bu gözəl səyahəti az qala burnumdan tökəcəkdi. Amma sonra zarafat edə-edə könlümü aldı! Mənə "düz edirsən, qısqan" dedi... Səfər də o qədər gözəl oldu ki, onu ömrüm boyu xatırlayacam. Bu möhtəşəm şəhəri görə-görə, gəzə-gəzə Aslanımı da müşahidə etdim; inamlı gəzişini, insanlarla necə danışdığını, mənə göstərmək üçün səylə maraqlı məkanlar seçdiyini izlədim...

Durna vurğun gözlərlə Aslanı süzdü, gözünü yumdu, amma qəribədir, Aslanı görürdü...

... Onunla dünyam dəyişdi, həyatım dərin məna qazandı, gözəlləşdi. Onunla yaşadığım hər an gözəldir...

Keçənləri geri qaytarmaq mümkün deyil, gənclik də daxil olmaqla. Amma sevgi ilə dolu günlər gənclik hisslərini yenidən canlandırmağa, unudulmuş xoş duyğuları qaytarmağa qadirdir. Birgə səyahətdə gündəlik qayğılar, keçmişin yaraları unudulur, qadın və kişi bu günün həzzi ilə yaşayır, yaxın gələcəyin ətrini duyurlar.

Son

"MƏZUNLARLA SƏHƏR YEMƏYİ" XEYRİYYƏ TƏDBİRİ

Xəzər Universiteti Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə oktyabrın 25-də "Morning with Alumni" – "Məzunlarla səhər yeməyi" adlı görüş keçirilib. Universitetin Neftçilər kampusunda təşkil olunan tədbir müxtəlif illərin məzunlarını bir araya gətirərək, onların universitetlə əlaqələrinin möhkəmləndirilməsi, ortaq xatirələrin bölüşülməsi və məzunlar arasında ünsiyyətin geniş-

"BREAKFAST WITH ALUMNI" CHARITY EVENT

A meeting titled "Morning with Alumni" was held on October 25, organized by Khazar University's Career and Alumni Center. Held at the university's Neftchilar campus, the event brought together graduates from different years and was notable for strengthening their ties with the university, sharing common memories, and expanding communication among alumni.



Zərifə Əliyeva, Sevinc Tahirova



Raziyə İsayeva







ləndirilməsi baxımından əlamətdar olub.

"Once Khazar, Always Khazar" şüarı altında keçirilən görüşdə məzunlar doğma universitetlərinin 35 illik tarixinə nəzər salıb, tələbəlik illərinin unudulmaz xatirələrini bölüşüb və "Xəzər" ailəsinin bir parçası olmaqdan duyduqları məmnuniyyəti ifadə ediblər.

Xəzər Universitetinin 2006-cı il Jurnalistika ixtisası üzrə məzunu, "MTV Azərbaycan" telekanalının nəzdində fəaliyyət göstərən "Fətiyev Group" şirkətinin icraçı direktoru Sevinc Tahirova və Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzinin direktoru, universitetin məzunu Zərifə Əliyeva tədbirə aparıcılıq ediblər. Görüş məzunlarla universitet arasında əlaqələrin möhkəmləndirilməsi, ortaq xatirələrin bölüşülməsi və Xəzər ailəsinin birliyinin daha da gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyıb.

Məzunların iştirakı ilə keçirilən interaktiv oyunlar, xatirə söhbətləri və səmimi müzakirələr görüşə xüsusi

(*Davamı 64-cü səh-də*)

At the meeting, held under the slogan "Once Khazar, Always Khazar," alumni looked back on their alma mater's 35-year history, shared unforgettable memories of their student years, and expressed their pride in being part of the "Khazar" family.

Sevinj Tahirova, a 2006 graduate of Khazar University's Journalism program and Executive



Director of "Fatiyev Group," operating under "MTV Azerbaijan" TV channel, and Zarifa Aliyeva, Director of Khazar University's Career and Alumni Center and a graduate of the university, hosted the event. The meeting held special significance for strengthening ties between alumni and the university, sharing common memories, and further reinforcing the unity of the Khazar family.

Interactive games, nostalgic conversations, and heartfelt discussions with the participation of alumni added a special atmosphere to the meeting. A film de

(*To be continued p.64*)



ab-hava qatıb. Tədbir çərçivəsində universitetin 35 illik yubileyinə həsr olunmuş film də təqdim edilib.

Görüşdə Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva çıxış edib. Universitetin inkişafında məzunların rolunun, onların ali təhsil müəssisəsi ilə əlaqələrinin qorunmasının və bu əməkdaşlığın yeni təşəbbüslərlə zənginləşdirilməsinin əhəmiyyəti vurğulanıb.

Daha sonra Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva Mərkəzin fəaliyyəti, məzunlarla əlaqələrin inkişaf etdirilməsi, tələbə və məzunların karyera imkanlarının genişləndirilməsi, eləcə də məzunların universitetin inkişafına töhfə verməsi üçün yaradılan imkanlar barədə məlumat verib. Təqdimatda məzunların universitet həyatında fəal iştirakının, tələbələrə dəstək göstərməsinin və universitet-məzun əməkdaşlığının davamlılığının əhəmiyyəti ön plana çəkilib.

Məzun həmrəyliyi: ehtiyacı olan tələbəyə dəstək!

Tədbirin əsas məqsədlərindən biri xeyriyyəçilik və

dicated to the university's 35th anniversary was also presented during the event.

Dr. Razia Isaeva, Rector of Khazar University, spoke at the meeting. The importance of the role of alumni in the university's development, of maintaining their ties with the institution, and of enriching this cooperation with new initiatives was emphasized.

Zarifa Aliyeva, Director of the Career and Alumni Center, then provided information on the Center's activity, the development of relations with alumni, the expansion of students' and alumni's career opportunities, and the opportunities created for alumni to contribute to the university's development. The presentation highlighted the importance of alumni's active participation in university life, their support for students, and the continuity of university-alumni cooperation.

Alumni Solidarity: Support for a Student in Need!

One of the main goals of the event was to conti-



həmrəylik ənənəsini davam etdirmək olub. Karyera və Məzunlar Mərkəzinin ötən ildən etibarən həyata keçirdiyi bu təşəbbüs çərçivəsində əvvəlki görüşdə toplanan vəsait maddi dəstəyə ehtiyacı olan tələbəyə təqdim edilmişdi. Bu il isə məzunların və tədbir iştirakçılarının həmrəyliyi ilə toplanan vəsait müalicəyə ehtiyacı olan tələbənin sağlamlığına qovuşması və zəruri ehtiyaclarının qarşılanması məqsədilə ona dəstək üçün ayrılacaq.

Tədbirdə iştirak edə bilməsələr də, təşəbbüsə maddi töhfə verən məzunların dəstəyi xüsusi minnətdarlıqla qeyd olunub. Bu həmrəylik bir daha göstərib ki, Xəzər Universitetinin məzunları yalnız ortaq keçmişlə deyil, həm də bir-birinə dəstək olmaq məsuliyyəti ilə birləşirlər.

Görüş zamanı məzunlar Xəzər Universitetinin gələcək tələbələrinə ünvanlanan mesajlarını bölüşüb, universitetlə bağlı xatirələrini və təkliflərini səsləndiriblər. Bu fikirlər məzunların təcrübəsinin gələcək nəsillər üçün dəyərli bir mənbə olduğunu bir daha nümayiş etdirib.

"Məzunlarla səhər yeməyi" sadəcə bir görüş deyil, universitetlə məzunlar arasında davamlı əlaqələrin qurulmasına, qarşılıqlı dəstəyin gücləndirilməsinə və "Xəzər" ailəsinin birliyinin qorunmasına xidmət edən təşəbbüsdür.

Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzi gələcəkdə də məzunların universitet həyatında iştirakını təşviq edən, onların təcrübə və imkanlarını tələbələrlə birləşdirən, eyni zamanda, sosial məsuliyyət və xeyriyyəçilik dəyərlərini gerçəkləşdirən layihələri davam etdirməyi nəzərdə tutur.

"Once Khazar, Always Khazar!"

nue the tradition of charity and solidarity. Under this initiative, carried out by the Career and Alumni Center since last year, the funds collected at the previous meeting were presented to a student in need of financial support. This year, the funds collected through the solidarity of alumni and event participants will be allocated to support a student in need of medical treatment, to help restore his or her health and meet essential needs.

The support of alumni who could not attend the event but contributed financially to the initiative was noted with special gratitude. This solidarity once again showed that Khazar University's graduates are united not only by a shared past but also by a responsibility to support one another.

During the meeting, alumni shared messages addressed to Khazar University's future students and voiced their memories of and suggestions for the university. These thoughts once again demonstrated that alumni experience is a valuable resource for future generations.

"Morning with Alumni" is not merely a meeting, but an initiative that serves to build lasting ties between the university and its alumni, strengthen mutual support, and preserve the unity of the "Khazar" family.

Khazar University's Career and Alumni Center plans to continue projects that encourage alumni participation in university life, connect their experience and resources with students, and put the values of social responsibility and charity into practice.

"Once Khazar, Always Khazar!"





Nigar Camalova

MÜƏLLİM ELMİ KONFRANSDA MƏRUZƏ İLƏ ÇIXIŞ EDİB

INSTRUCTOR DELIVERS PRESENTATION AT SCIENTIFIC CONFERENCE

Azərbaycan Respublikası Müdafiə Nazirliyi Milli Müdafiə Universitetində 3-5 noyabr aralığında "8 Noyabr – Zəfər Günü"nün 6-cı ildönümünə həsr olunmuş "Müdafiə və milli təhlükəsizliyin aktual problemləri" mövzusunda respublika elmi-praktik konfransı keçirilib. Konfransda Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi tarix üzrə fəlsəfə doktoru Nigar Camalova "Rəqəmsal yaddaşın müdafiəsi: süni intellekt mühitində Azərbaycan tarixi" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə süni intellektin sürətlə inkişaf etdiyi müasir dövrdə rəqəmsal təhlükəsizlik və koqnitiv (idrak) müdafiənin strateji prioritetə çevrildiyi diqqətə çatdırılıb. Süni intellekt mühitində milli tarixin qorunmasının strateji əhəmiyyətini vurğulayan Nigar Camalova Azərbaycan tarixinin süni intellektə inteqrasiyası üçün tarixi materialların elmi ekspertizadan keçirilməsini, xarici dillərdə etibarlı məlumatların internetdə artırılmasını və bu məlumatların Sİ mühitinə daxil olunmasını təklif edib.

A republican scientific-practical conference titled "Current Problems of Defense and National Security," dedicated to the 6th anniversary of "November 8 – Victory Day," was held at the National Defense University of the Ministry of Defense of the Republic of Azerbaijan on November 3–5. At the conference, Nigar Jamalova, PhD in History and instructor at Khazar University's Department of History and Archaeology, delivered a presentation titled "Defending Digital Memory: Azerbaijani History in the Artificial Intelligence Environment." The presentation drew attention to the fact that, in the modern era of rapidly developing artificial intelligence, digital security and cognitive defense have become a strategic priority. Emphasizing the strategic importance of preserving national history in the AI environment, Nigar Jamalova proposed subjecting historical materials to scientific expert review, increasing reliable information in foreign languages on the internet, and incorporating this information into the AI environment in order to integrate Azerbaijani history into artificial intelligence.



Qardaşxan Əzizxanlı

ZƏFƏRİN İLDÖNÜMÜ AUDİTORİYALARDA

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərin ildönümü Xəzər Universitetinin auditoriyalarında da qeyd olunub.

4, 5, 6 noyabr günlərində "Dünya ədəbiyyatı" və "Azərbaycan ədəbiyyatı" dərsləri ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçənlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etməklə başlayıb.

Humanitar, təhsil və sosial elmlər fakültəsinin III kurs tələbələri İlahə Qurbanova və Aysel Həsənovanın, həmçinin, Zahir Əzəmətin Təbiət elmləri və mühəndislik fakültəsinin I kurs tələbəsi Fidan Əhmədovanın bədii qiraətində səslənən "Əsgər məktubu - arxa cəbhəyə" şeiri dinləyicilərdə dərin təsir buraxıb.

Sabir Rüstəmxanlının öz səsi ilə səsləndirdiyi "Qarabağ qazilərinə" videoçarxı da olduqca emosional alınıb.

"Dünya ədəbiyyatı" dərsində III kurs tələbələrinin Qarabağa həsr edilmiş videomaterialları maraqla qarşılanıb. Haqqarar'ın "Qiyamətdən məşhərəcən" şeiri əsasında Məhsəti Hüseynovanın hazırladığı və Aydan Qurbanovanın təqdim etdiyi "Azərbaycan əsgəri" adlı qısametrajlı videolar tələbələrə duyğulu anlar yaşadıb.

VICTORY ANNIVERSARY IN CLASSROOMS

The anniversary of Azerbaijan's historic Victory in the 44-day Patriotic War was also marked in the classrooms of Khazar University.

On November 4, 5, and 6, the "World Literature" and "Azerbaijani Literature" classes began with a minute of silence in memory of those who gave their lives for our country's territorial integrity.

The poem "Soldier's Letter – To the Home Front," recited by third-year students of the School of Humanities, Education and Social Sciences Ilaha Gurbanova and Aysel Hasanova, as well as by Fidan Ahmadova, a first-year student of the Faculty of Natural Sciences and Engineering, with words by Zahir Azamat, left a deep impression on listeners.

The video "To Karabakh Veterans," in which Sabir Rustamkhanli recites in his own voice, was also very emotional.

In the "World Literature" class, third-year students' video materials dedicated to Karabakh were received with interest. Short videos titled "Azerbaijani Soldier," prepared by Mahsati Huseynova and presented by Aydan Gurbanova, based on Haqqarar's poem "From Doomsday to the Resurrection," gave students touching moments.

"ZƏFƏRİN ŞAHİDLƏRİ: TARİXDƏN GƏLƏCƏYƏ" ADLI TƏDBİR KEÇİRİLİB

EVENT "WITNESSES OF VICTORY: FROM HISTORY TO THE FUTURE" HELD





Aytac Misgərli

Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin təşkilatçılığı ilə noyabrın 6- da Hasvet Baytarlıq təbabəti fakültəsində Zəfər Gününə həsr olunmuş "Zəfərin şahidləri: tarixdən gələcəyə" adlı tədbir keçirilib.

Tədbiri giriş sözü ilə Hasvet Baytarlıq təbabəti fakültəsinin Baytarlıq təbabəti şöbəsinin müdiri Səbinə Məmmədova açaraq, iştirakçıları salamlayıb və sözü Kitabxana-İnformasiya Mərkəzinin direktoru Aytac Misgərliyə verib.

Aytac Misgərli çıxışında tədbirin əsas məqsədinin Zəfər tariximizin gənc nəslə çatdırılması, Vətən müharibəsi iştirakçılarının keçdiyi şərəfli döyüş yolunun xatırlanması və tarixi yaddaşın qorunması olduğunu vurğulayıb. O, Zəfər Gününün tarixi əhəmiyyətindən danışaraq, tədbirin qonağı – 44 günlük Vətən müharibəsinin iştirakçısı, ehtiyatda olan mayor, yazıçı Mahir Hüseyn haqqında iştirakçılara məlumat verib.

Sonra tədbir iştirakçıları Mahir Hüseynin həyat və döyüş yoluna həsr olunmuş videoçarxa baxıblar.

Videoçarxın nümayişindən sonra Aytac Misgərli qonağı səhnəyə dəvət edib. Tədbir ənənəvi çıxış formatından fərqli olaraq, müsahibə və səmimi söhbət şəklində davam edib. Aytac Misgərli qonağa ünvanladığı suallarla onun müharibə dövründə yaşadığı hadisələrə, döyüş meydanında qarşılaşdığı çətinliklərə, əsgər və zabitlərimizin

An event titled "Witnesses of Victory: From History to the Future," dedicated to Victory Day, was held on November 6, at the Hasvet Faculty of Veterinary Medicine, organized by Khazar University's Library and Information Center.

The event was opened with introductory remarks by Sabina Mammadova, Head of the Veterinary Medicine Department of the Hasvet Faculty of Veterinary Medicine, who welcomed the participants and gave the floor to Aytaj Misgarli, Director of the Library and Information Center.

In her speech, Aytaj Misgarli emphasized that the main purpose of the event was to convey the history of our Victory to the younger generation, to recall the honorable combat path of the participants of the Patriotic War, and to preserve historical memory. Speaking about the historical significance of Victory Day, she provided participants with information about the event's guest, Mahir Huseyn, a participant of the 44-day Patriotic War, reserve major, and writer.

The participants then watched a video reel dedicated to Mahir Huseyn's life and combat path.

After the video, Aytaj Misgarli invited the guest to the stage. Unlike the traditional speech format, the event continued as an interview and a warm conversation. Through the questions she put to the guest, Aytaj Misgarli shed light on the events he experienced during the war,

qəhrəmanlığına, xalqımızın birliyinə və tarixi Qələbənin qazanılmasına aparan yola aydınlıq gətirib. Mahir Hüseyn isə canlı şahidi olduğu hadisələri, şəxsi təcrübəsini və xatirələrini iştirakçılarla bölüşüb.

Görüş universitet əməkdaşlarının və tələbələrin də müzakirəyə qoşulması ilə daha maraqlı və interaktiv xarakter alıb.

Səmimi söhbət və fikir mübadiləsi şəraitində keçən tədbir iştirakçılarda böyük maraq doğurub. Görüş bir daha nümayiş etdirib ki, Zəfər tariximizin canlı şahidlərinin xatirələri gələcək nəsillərin vətənpərvərlik ruhunda yetişməsində, milli yaddaşın qorunmasında və tarixi Qələbəmizin əhəmiyyətinin dərindən dərk edilməsində mühüm rol oynayır.



Mahir Hüseyn



the difficulties he faced on the battlefield, the heroism of our soldiers and officers, the unity of our people, and the path that led to the historic Victory. Mahir Huseyn, in turn, shared with the participants the events he witnessed firsthand, his personal experience, and his memories.

The meeting became more engaging and interactive as university staff and students joined the discussion.

Held in an atmosphere of warm conversation and exchange of views, the event aroused great interest among participants. The meeting once again showed that the memories of the living witnesses of our history of Victory play an important role in raising future generations in a spirit of patriotism, preserving national memory, and deeply understanding the significance of our historic Victory.



TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNDƏ "ZƏFƏR HƏFTƏSİ"

"VICTORY WEEK" AT DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY



8 Noyabr – Zəfər Günü münasibətilə Xəzər Universitetinin Tarix və arxeologiya departamenti cari həftəni "Zəfər həftəsi" elan edib.

Həftə ərzində departamentin müəllimləri tarix dərslərində Azərbaycanın 44 günlük Vətən müharibəsi və tarixi Zəfərinə xüsusi yer ayırıb. Hər bir dərsin 10–15 dəqiqəsi bu mövzuya həsr olunaraq, tələbələrlə müharibənin gedişi, Azərbaycan Ordusunun qəhrəmanlığı və Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi siyasi-diplomatik fəaliyyət barədə söhbətlər aparılıb. 44 gün ərzində Azərbaycan əsgərinin göstərdiyi cəsarət, yenilməz iradəsi və xalqımızın nümayiş etdirdiyi birlik haqqında məlumat verilib. Eyni zamanda, qazanılan Zəfərin yalnız hərbi uğur deyil, həm də uzun illər davam edən mübarizənin, siyasi iradənin və milli həmrəyliyin nəticəsi olduğu vurğulanıb.

Dərslər yalnız məlumatlandırma ilə məhdudlaşmayıb. Tələbələr də müharibə ilə bağlı öz düşüncə və təəssüratlarını bölüşüb, həmin dövrdə yaşadıqları hisslərdən, qələbə sevincindən və Zəfərin onlar üçün ifadə etdiyi mənadan danışıblar. Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən bu söhbətlər tələbələrə Azərbaycanın müasir tarixində xüsusi yer tutan hadisələri bir daha xatırlamaq və dəyərləndirmək imkanı yaradıb.

On the occasion of November 8 — Victory Day, Khazar University's Department of History and Archaeology declared the current week "Victory Week."

During the week, the department's instructors devoted special attention to Azerbaijan's 44-day Patriotic War and historic Victory in their history classes. Ten to fifteen minutes of each class was dedicated to this topic, with discussions held with students about the course of the war, the heroism of the Azerbaijani Army, and the political and diplomatic activity carried out by Supreme Commander-in-Chief Ilham Aliyev. Information was provided about the courage and unyielding will shown by the Azerbaijani soldier during the 44 days and the unity demonstrated by our people. It was also emphasized that the Victory achieved is not only a military success, but also the result of a struggle that lasted many years, political will, and national solidarity.

The classes were not limited to providing information. Students also shared their thoughts and impressions about the war, speaking about the feelings they experienced at that time, the joy of victory, and what the Victory means to them. These conversations, held in an atmosphere of mutual exchange of views, gave students the opportunity to recall and appreciate once again the events that hold a special place in Azerbaijan's modern history.

XƏZƏR UNİVERSİTETİNİN BEYNƏLXALQ İNDEKSLİ ELMİ JURNALININ YENİ NÖMRƏSİ NƏŞR OLUNUB
NEW ISSUE OF KHAZAR UNIVERSITY'S INTERNATIONALLY INDEXED SCIENTIFIC JOURNAL PUBLISHED

Xəzər Universitetinin beynəlxalq "Web of Science" bazasında indekslənən "Khazar Journal of Humanities and Social Sciences" jurnalının növbəti nömrəsi (Cild 29, Nömrə 3, 2026) işıq üzü görüb. Nəşrin aparıcı beynəlxalq elmi bazalarda yer alması akademik mühit üçün xüsusi əhəmiyyət kəsb edir, çünki bu jurnal Azərbaycanda humanitar elmlər sahəsində "Web of Science" bazasında indekslənən yeganə elmi nəşrdir.

Jurnalın dil və ədəbiyyat üzrə sahə redaktoru, filologiya üzrə fəlsəfə doktoru Fəridə Seyidovanın bildirdiyinə görə, yeni nömrədəki 13 elmi tədqiqat işindən 9-u beynəlxalq konfransın materialları əsasında seçilmişdir. Həmin 9 məqalə 2025-ci ilin dekabr ayında Xəzər Universitetinin Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutu ilə Şimali Kipr Türk Cümhuriyyətinin Yakın Doğu Universiteti Rumi Araşdırmaları Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilmiş "IX Beynəlxalq Rumi Konqresi"ndə təqdim olunmuşdur.

Nəşrdə Rumi irsi və təsəvvüf tədqiqatları çərçivəsində Əsmətxanım Məmmədovanın Cəlaləddin Ruminin poetik irsində omonimlərin leksik və mistik qatlarına, Lütfiyyə Əsgərzadənin Hüseyn Cavidin "İblis" dramı nümunəsində türk ədəbiyyatında demonik obrazın təkamülünə, Nihat Değirmencinin "Məsnəvi"dəki "Bədəvi ərəb və arvadı" hekayəsində daxili təhkiyə strukturu və təşbeh şəbəkəsinə, Rəşad Həsənov və Coxa Əl-Harsinin Rumi və Nəsimi poeziyasında məstlik metaforasına, Şəhanə Şahbazovanın Ruminin ərəbcə şeirlərinin mövzu və struktur xüsusiyyətlərinə, Şəbnəm Qolkarianın müqəddəs memarlıqda işıq və səma anlayışlarına, Xatirə Yusifovanın Rumi təfəkküründə nəfs və mənəvi yüksəliş məsələlərinə, Qədir Qolkarianın səma ritualının ritmik-ontoloji mahiyyətinə, eləcə də Zöhrə Əliyevanın XIX–XX əsrlər Azərbaycan maarifçiliyində Şərq-Qərb intellektual dialoquna həsr olunmuş tədqiqatları yer alıb.

Bunlarla yanaşı, jurnalda beynəlxalq və ictimai elmlər istiqamətində də məqalələr nəşr olunub.

Jurnalın elektron versiyası ilə Khazar University Press-in rəsmi saytında tanış olmaq mümkündür (Khazar Journal of Humanities and Social Sciences | Khazar University).

The next issue (Volume 29, Issue 3, 2026) of Khazar University's "Khazar Journal of Humanities and Social Sciences," indexed in the international Web of Science database, has been published. The publication's inclusion in leading international scientific databases is of particular importance for the academic community, as this journal is the only scientific publication in Azerbaijan in the field of the humanities indexed in the Web of Science database.

According to Farida Seyidova, the journal's field editor for language and literature and PhD in Philology, 9 of the 13 research papers in the new issue were selected from the materials of an international conference. These 9 articles were presented at the "9th International Rumi Congress," held in December 2025 and jointly organized by Khazar University's Mawlana Institute for Literary and Philosophical Studies and the Rumi Studies Center of Near East University of the Turkish Republic of Northern Cyprus.

Within the framework of Rumi heritage and Sufism studies, the issue includes research by Asmatkhanim Mammadova on the lexical and mystical layers of homonyms in Jalaluddin Rumi's poetic heritage; Lutfiyya Asgarzade on the evolution of the demonic image in Turkic literature through the example of Huseyn Javid's drama "Iblis"; Nihat Değirmenci on the inner narrative structure and simile network in the story "The Bedouin Arab and His Wife" in the "Masnavi"; Rashad Hasanov and Jokha Al-Harsi on the metaphor of drunkenness in the poetry of Rumi and Nasimi; Shahana Shahbazova on the thematic and structural features of Rumi's Arabic poems; Shabnam Golkarian on the concepts of light and sky in sacred architecture; Khatira Yusifova on the issues of the self (nafs) and spiritual ascent in Rumi's thought; Gadir Golkarian on the rhythmic-ontological essence of the sema ritual; as well as Zohra Aliyeva on the East-West intellectual dialogue in 19th–20th century Azerbaijani Enlightenment.

In addition, the journal has published articles in the fields of international and social sciences.

The electronic version of the journal can be accessed on the official website of Khazar University Press (Khazar Journal of Humanities and Social Sciences | Khazar University).

"QCD AND COMPACT STARS" MÖVZUSUNDA ELMİ SEMİNAR

SCIENTIFIC SEMINAR ON "QCD AND COMPACT STARS"



Fəxrəndə Əfəndiyeva, Miyuki Tachibana, Motoi Tachibana, Raziyə İsayeva, Şahin Məmmədov, Günel Bahəddinova, Fəridə Tatardar

Yaponiyanın Saga Universitetinin professoru Motoi Tachibana Xəzər Universitetinə səfəri çərçivəsində universitetin rektoru Dr. Raziyə İsayeva ilə görüşüb. Görüşdə həmçinin, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekanı Günel Bahəddinova, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, Fizika və elektronika departamentinin müdiri Fəridə Tatardar və Nəzəri Fizika Mərkəzinin rəhbəri Şahin Məmmədov iştirak ediblər.

Görüş zamanı Xəzər Universiteti ilə Saga Universiteti arasında elmi-tədqiqat və tədris sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub. Tərəflər fundamental və tətbiqi fizika istiqamətlərində birgə tədqiqatların aparılması, alim və tədqiqatçıların qarşılıqlı elmi səfərlərinin təşkili, birgə seminar və elmi tədbirlərin keçirilməsi, elmi layihələrdə əməkdaşlıq imkanlarının araşdırılması, həmçinin, tələbə və müəllimlər üçün akademik mübadilə və birgə tədris təşəbbüslərinin həyata keçirilməsi perspektivlərini müzakirə ediblər. Eyni zamanda, fizika və əlaqəli elm sahələri üzrə tədris prosesində beynəlxalq təcrübənin tətbiqi və akademik əlaqələrin inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Professor Motoi Tachibana of Japan's Saga University met with Dr. Razia Isaeva, Rector of Khazar University, during his visit to the university. The meeting was also attended by Gunel Bahaddinova, Dean of the Graduate School of Science, Art and Technology; Fakhranda Afandiyeva, Dean of the School of Science and Engineering; Farida Tatardar, Head of the Department of Physics and Electronics; and Shahin Mammadov, Head of the Center for Theoretical Physics.

During the meeting, issues related to expanding cooperation between Khazar University and Saga University in research and teaching were discussed. The parties discussed prospects for conducting joint research in fundamental and applied physics, organizing reciprocal scientific visits for scholars and researchers, holding joint seminars and scientific events, exploring opportunities for cooperation in scientific projects, as well as implementing academic exchange and joint teaching initiatives for students and instructors. Views were also exchanged on applying international experience in the teaching process in physics and related scientific fields and on developing academic ties.

Səfər çərçivəsində 2026-cı il oktyabrın 7- də Xəzər Universitetində professor Motoi Tachibana tərəfindən "QCD and Compact Stars" ("QCD və Kompakt Ulduzlar") mövzusunda elmi seminar keçirilib.

Seminarda kvant xromodinamikası (QCD), kompakt ulduzların quruluşu və yüksək sıxlıqlı maddənin fundamental xüsusiyyətləri ilə bağlı elmi məsələlər müzakirə olunub. Professor Motoi Tachibana mövzu üzrə müasir nəzəri yanaşmalar və aktual tədqiqat istiqamətləri haqqında məlumat verib, kompakt ulduzların fizikasının elementar zərrəciklər fizikası ilə əlaqəsini izah edib.

Elmi seminarda Nəzəri Fizika Mərkəzinin əməkdaşları və Xəzər Universitetinin professor-müəllim heyəti iştirak edib. Təqdimatdan sonra mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb və iştirakçıların sualları cavablandırılıb.

Professor Motoi Tachibananın Xəzər Universitetinə səfəri və keçirilən seminar universitetin beynəlxalq akademik əlaqələrinin inkişafı, fundamental fizika üzrə elmi-tədqiqat və tədris əməkdaşlığının genişləndirilməsi, eləcə də gələcək birgə layihələr üçün yeni imkanların yaradılması baxımından əhəmiyyətli olub.

As part of the visit, Professor Motoi Tachibana gave a scientific seminar titled "QCD and Compact Stars" at Khazar University on October 7, 2026.

The seminar discussed scientific issues related to quantum chromodynamics (QCD), the structure of compact stars, and the fundamental properties of high-density matter. Professor Motoi Tachibana provided information on modern theoretical approaches and current research directions on the topic, and explained the connection between the physics of compact stars and elementary particle physics.

The scientific seminar was attended by staff of the Center for Theoretical Physics and the faculty of Khazar University. Following the presentation, a wide-ranging exchange of views took place on the topic, and participants' questions were answered.

Professor Motoi Tachibana's visit to Khazar University and the seminar held were significant for the development of the university's international academic ties, the expansion of research and teaching cooperation in fundamental physics, and the creation of new opportunities for future joint projects.

SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMİNİN ELMİ NAİLİYYƏTİ

Oktyabrın 7-də Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Günel Mədədli Polşanın Jagiellonian Universitetində siyasi elmlər ixtisası üzrə doktorluq dissertasiyasını distinction (fərqlənmə) dərəcəsi ilə uğurla müdafiə edib.

Günel Mədədlinin "Xarici siyasətə gender yanaşması: İsveçin feminist xarici siyasəti çərçivəsində Gürcüstan nümunəsi" (A Gendered Approach to Foreign Policy: The Case Study of Georgia in the Framework of Swedish Feminist Foreign Policy) adlı dissertasiya işi gender yanaşmasının xarici siyasətdə roluna və İsveçin feminist xarici siyasəti çərçivəsində Gürcüstan nümunəsinin təhlilinə həsr olunub.

ACHIVEMENT OF POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT LECTURER

On 7 October Gunel Madadli, a lecturer at the Department of Political Science and Philosophy at Khazar University, successfully defended her doctoral dissertation in Political Science at Jagiellonian University in Poland, earning a distinction.

Her dissertation, entitled "A Gendered Approach to Foreign Policy: The Case Study of Georgia in the Framework of Swedish Feminist Foreign Policy," examines the role of gender in foreign policy, focusing on Georgia within the framework of Sweden's Feminist Foreign Policy.



Emil Səfərli, Raziyə İsayeva

SUNLAB MMC İLƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU İMZALANIB

Xəzər Universiteti ilə SunLab MMC arasında oktyabrın 8- də əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Memorandumu Xəzər Universitetinin rektoru Dr. Raziyə İsayeva və SunLab MMC-nin direktoru Dr. Emil Səfərli imzalayıblar.

Memorandumun əsas məqsədi təhsil, elmi-tədqiqat və laboratoriya fəaliyyəti sahələrində əməkdaşlığın inkişaf etdirilməsi, tələbələrin praktiki hazırlığının gücləndirilməsi, onlara peşəkar təcrübə imkanlarının yaradılması, eləcə də tələbə və gənc tədqiqatçıların elmi layihələrə və tədqiqat fəaliyyətinə cəlb olunmasıdır.

Sənədə əsasən, tərəflər təcrübə mübadiləsi, peşəkar görüşlərin və qarşılıqlı səfərlərin təşkili, konfrans, seminar və təlim proqramlarının birgə həyata keçirilməsi, laboratoriya infrastrukturunun inkişafı, laboratoriyaların müasir cihaz və avadanlıqlarla təmin olunması, akademik dəstək və peşəkar məsləhətləşmələr istiqamətlərində də əməkdaşlıq edəcəklər.

Memorandumda Xəzər Universitetinin əməkdaşlarına SunLab MMC tərəfindən göstərilən tibbi-laboratoriya xidmətlərinə 15 faiz güzəştin tətbiq olunması da nəzərdə tutulub.

İmzalanmış Anlaşma Memorandumu Xəzər Universiteti ilə SunLab MMC arasında tərəfdaşlığın daha da genişləndirilməsinə, tələbələrin praktiki bilik və bacarıqlarının inkişafına, onların peşəkar fəaliyyətə hazırlanmasına, həmçinin, elmi-tədqiqat imkanlarının artırılmasına mühüm töhfə verəcək.

MEMORANDUM OF UNDERSTANDING ON COOPERATION SIGNED WITH SUNLAB LLC

A Memorandum of Understanding on cooperation was signed between Khazar University and SunLab LLC on October 8. The memorandum was signed by Dr. Razia Isaeva, Rector of Khazar University, and Dr. Emil Safarli, Director of SunLab LLC.

The main purpose of the memorandum is to develop cooperation in the fields of education, research, and laboratory activity, strengthen students' practical training, create professional internship opportunities for them, and involve students and young researchers in scientific projects and research activity.

Under the document, the parties will also cooperate in the areas of exchange of experience, organization of professional meetings and reciprocal visits, joint implementation of conferences, seminars, and training programs, development of laboratory infrastructure, provision of laboratories with modern instruments and equipment, and academic support and professional consultations.

The memorandum also provides for a 15 percent discount on medical laboratory services provided by SunLab LLC to Khazar University staff.

The signed Memorandum of Understanding will make an important contribution to further expanding the partnership between Khazar University and SunLab LLC, developing students' practical knowledge and skills, preparing them for professional activity, and increasing research opportunities.

BEYNƏLXALQ ŞƏBƏKƏLƏŞMƏ TƏDBİRİ

Bakıda oktyabrın 9-da Avropa İttifaqının Azərbaycan nümayəndəliyinin "Avropada Təhsil" sərgisi keçirilib.

Tədbirdə Avropa İttifaqına üzv dövlətlərin səfirləri və diplomatları, Avropa universitetlərinin nümayəndələri, Xəzər Universitetinin rektoru Dr.Raziyə İsayeva, rektorun beynəlxalq əlaqələr üzrə müşaviri Zemfira Məmmədova və Beynəlxalq əlaqələr ofisinin koordinatoru Seyran Əliyeva iştirak ediblər.

Proqram çərçivəsində salamlama nitqləri, diplomatik nümayəndələrin təqdimatları və iştirakçılar arasında şəbəkələşmə görüşləri keçirilib.

Əsas məqsəd Avropa universitetləri ilə Azərbaycan ali təhsil müəssisələri arasında əlaqələrin genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsi və potensial əməkdaşlıq istiqamətlərinin müzakirəsi olub.

Tədbir çərçivəsində Avropa universitetləri ilə əlaqələrin genişləndirilməsi, yeni tərəfdaşlıq imkanlarının müzakirəsi və beynəlxalq əməkdaşlığın inkişafı istiqamətində fikir mübadiləsi aparılıb.

2026-cı il 10-11 oktyabr günlərində keçirilən "Avropada Təhsil" sərgisində 16 Avropa ölkəsindən 60-dək universitet və milli təhsil agentliyi iştirak edib.

INTERNATIONAL NETWORKING EVENT

The European Union Delegation to Azerbaijan held the "Study in Europe" exhibition in Baku on October 9.

The event was attended by ambassadors and diplomats of EU member states, representatives of European universities, Dr. Razia Isaeva, Rector of Khazar University; Zemfira Mammadova, the Rector's Advisor on International Relations; and Seyran Aliyeva, Coordinator of the International Relations Office.

The program included welcoming speeches, presentations by diplomatic representatives, and networking meetings among participants.

The main goal was to expand relations between European universities and Azerbaijani higher education institutions, exchange experience, and discuss potential areas of cooperation.

During the event, views were exchanged on expanding ties with European universities, discussing new partnership opportunities, and developing international cooperation.

Up to 60 universities and national education agencies from 16 European countries took part in the "Study in Europe" exhibition, held on October 10–11, 2026.

ERASMUS+ PROQRAMI ÇƏRÇİVƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ GÖRÜŞLƏRİ

INTERNATIONAL COOPERATION MEETINGS WITHIN THE FRAMEWORK OF ERASMUS+ PROGRAM

Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin təşkilatçılığı ilə Erasmus+ mübadilə proqramı çərçivəsində 5- 9 oktyabr aralığında Türkiyənin Bartın Universitetinin professoru Prof. Dr. Ferhunde Küçükşen, Qalatasaray Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin Erasmus koordinatoru Melek Akyüz Özdemir və Latviyanın Turiba Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin Erasmus koordinatoru Yashwant Jaiswal Xəzər Universitetində akademik və inzibati heyətin mübadiləsi proqramında iştirak ediblər.

Under the organization of Khazar University's International Relations Department, Prof. Dr. Ferhunde Küçükşen of Türkiye's Bartın University, Melek Akyüz Özdemir, Erasmus Coordinator of the International Relations Office at Galatasaray University, and Yashwant Jaiswal, Erasmus Coordinator of the International Relations Department at Latvia's Turiba University, took part in an academic and administrative staff exchange program at Khazar University on October 5–9, within the framework of the Erasmus+ exchange program.



Ferhunde Küçükşen

Səfər çərçivəsində təşkil olunan görüşdə Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları və Memarlıq və dizayn departamentinin koordinatoru Nigar Əliyeva iştirak ediblər.

Görüş zamanı Xəzər Universitetinin fəaliyyəti, təhsil proqramları, beynəlxalq əlaqələri, elmi-tədqiqat imkanları və gələcək əməkdaşlıq perspektivləri haqqında təqdimat keçirilib. Daha sonra qonaqlar təmsil etdikləri universitetlərin fəaliyyəti, akademik proqramları və beynəlxalq əməkdaşlıq təcrübələri barədə məlumat veriblər. Müzakirələr zamanı tələbə və akademik heyət mübadiləsi, ikili diplom

The meeting held as part of the visit was attended by staff of Khazar University's International Relations Department and Nigar Aliyeva, Coordinator of the Department of Architecture and Design.

During the meeting, a presentation was delivered on Khazar University's activity, educational programs, international relations, research opportunities, and prospects for future cooperation. The guests then provided information on the activity, academic programs, and international cooperation experience of the universities they represent. During the discussions, opportunities for student and academic staff exchange, the establishment of dual diploma pro-



proqramlarının yaradılması, birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsi və universitetlər arasında əməkdaşlığın genişləndirilməsi imkanları nəzərdən keçirilib.

Səfərin növbəti günlərində qonaqlar Xəzər Universitetinin mərkəzi kampusu, laboratoriyaları və digər infrastruktur imkanları ilə tanış olublar. Universitetin akademik və elmi mühiti, eləcə də tədris və tədqiqat üçün yaradılmış şərait qonaqların marağına səbəb olub.

Proqram çərçivəsində oktyabrın 9- da Turiba Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin Erasmus koordinatoru Yashwant Jaiswal Xəzər Universitetinin Mərmər zalında tələbələr üçün "Latviyada təhsil imkanları və Erasmus+ mübadilə proqramı" mövzusunda seminar



keçib. İqtisadiyyat və menecment fakültəsi, eləcə də Humanitar, təhsil və sosial elmlər fakültəsinin tələbələri üçün təşkil olunan seminarda Latviyada ali təhsil imkanları, Turiba Universitetinin təhsil proqramları və Erasmus+ mübadilə proqramı vasitəsilə beynəlxalq akademik təcrübə - qazanma yolları haqqında məlumat verilib.

Erasmus+ proqramı çərçivəsində həyata keçirilən bu səfər Xəzər Universitetinin beynəlxalq tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi, akademik mobilliyin təşviqi və yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətli olub.

grams, the implementation of joint research projects, and the expansion of cooperation between universities were reviewed.

On the following days of the visit, the guests became familiar with Khazar University's central campus, laboratories, and other infrastructure facilities. The university's academic and scientific environment, as well as the conditions created for teaching and research, drew the guests' interest.

As part of the program, on October 9, Yashwant Jaiswal, Erasmus Coordinator of the International Relations Department at Turiba University,



gave a seminar for students in Khazar University's Marble Hall on "Study Opportunities in Latvia and the Erasmus+ Exchange Program." The seminar, organized for students of the Faculty of Economics and Management and the Faculty of Humanities, Education and Social Sciences, provided information on higher education opportunities in Latvia, Turiba University's educational programs, and ways of gaining international academic experience through the Erasmus+ exchange program.

This visit, carried out within the framework of the Erasmus+ program, was significant for strengthening Khazar University's international partnership ties, promoting academic mobility, and identifying new directions of cooperation.



"XƏZƏR"İN ƏMƏKDAŞI BİRLƏŞMİŞ KRALLIQDA KEÇİRİLƏN TƏDBİRLƏRDƏ

KHAZAR UNIVERSITY STAFF MEMBER PARTICIPATES IN EVENTS HELD IN UNITED KINGDOM



Fəridə Seyidova

Birləşmiş Krallığın paytaxtı London şəhərində oktyabrın 13-də Azərbaycanın maarifçilik tarixi, mənəvi-fəlsəfi irsi və mədəniyyətinə həsr edilmiş iki tədbir keçirilib. Bunlardan biri Londondakı Yunus Əmrə İnstitutunda olub. Tədbirin təşkilatçısı, İngiltərə Kral İncəsənət Cəmiyyətinin (Royal Society of Arts) üzvü, politoloq-jurnalist Nil Uatson (Neil Watson) açılış nitqi ilə çıxış edərək, Azərbaycanın maarifçilik hərəkatının regional və qlobal miqyasda aktuallığından söz açıb. O, xüsusilə Şərqdə ilk operanın və musiqili komediyanın banisi, Azərbaycan maarifçilik tarixinin görkəmli nümayəndəsi Üzeyir Hacıbəylinin

On 13 October 2026, two events dedicated to the history of Azerbaijan's enlightenment movement, its spiritual and philosophical heritage, and culture were held in London, the capital of the United Kingdom.

The first event took place at the Yunus Emre Institute in London. The event's organiser, Neil Watson, a political analyst and journalist and a member of the Royal Society of Arts, delivered the opening remarks, highlighting the relevance of Azerbaijan's enlightenment movement at both regional and global levels. He particularly emphasised the work of Uzeyir Hajibeyli, the founder of the first opera and musical comedy in the East and a prominent figure in the history

fəaliyyətini və onun Şərq-Qərb sintezindəki müstəsna rolunu vurğulayıb.

Tədbirdə elmi məruzələrlə çıxış edən azərbaycanlı və türkiyəli alimlər mövzunun müxtəlif aspektlərinə işıq salıblar. AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun Beynəlxalq əlaqələr şöbəsinin müdiri dosent Zöhrə Əliyeva çıxışında XX əsrin əvvəllərində Azərbaycanda cərəyan edən maarifçilik təmayüllərindən, milli oyanış dövrünün intellektual mühitindən və böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin bu tarixi hərəkata verdiyi böyük dəstəkdən geniş bəhs edib.

Xəzər Universitetinin Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunun (MƏFAİ) koordinatoru filologiya üzrə fəlsəfə doktoru Fəridə Seyidova çıxışında Türk xalqlarının mənəvi maarifçilik köklərinə və ortaq mədəni dəyərlərin formalaşma tarixinə toxunub.

Məruzələrdən sonra böyük bəstəkar Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında ekranlaşdırılmış və Heydər Əliyev Fondu tərəfindən bərpa edilərək rəngləndirilmiş "Arşın mal alan" filmi nümayiş olunub.

Elə həmin gün Birləşmiş Krallığın nüfuzlu elm və mədəniyyət ocaqlarından biri olan Kral İncəsənət Cəmiyyətində (Royal Society of Arts) də dahi bəstəkar Üzeyir Hacıbəylinin irsi təqdim olunub və "Arşın mal alan" filmi nümayiş etdirilib.

Səfər çərçivəsində azərbaycanlı alimlər Kembric Universitetinin Jesus Kollecində fəaliyyət göstərən Mərkəzi Asiya Forumunun direktoru, professor Siddharth Saxena ilə görüşüblər. Görüş zamanı Azərbaycan Prezidentinin "Mədəniyyət– 2040" konsepsiyası çərçivəsində Azərbaycan klassiklərinin ingilisdilli auditoriyaya təqdim olunması imkanları və bu istiqamətdə əməkdaşlıq perspektivləri müzakirə edilib.

of Azerbaijan's enlightenment movement, as well as his exceptional role in synthesising Eastern and Western traditions.

Azerbaijani and Turkish scholars delivered academic presentations at the event, shedding light on various aspects of the topic. Associate Professor Zohra Aliyeva, Head of the Department of International Relations at the Institute of Philosophy and Sociology of ANAS, spoke extensively about the enlightenment trends that emerged in Azerbaijan in the early 20th century, the intellectual environment of the national awakening period, and the invaluable support provided to this historical movement by the great philanthropist Haji Zeynalabdin Taghiyev.

Farida Seyidova, PhD in Philology and Coordinator of Khazar University's Mawlana Institute of Literary and Philosophical Studies (MİLPS), addressed the spiritual and enlightenment roots of Turkic peoples and the history of the formation of their shared cultural values.

Following the presentations, the film Arshin Mal Alan, based on the eponymous operetta by the great composer Uzeyir Hajibeyli and restored and colourised by the Heydar Aliyev Foundation, was screened.

On the same day, the legacy of the great composer Uzeyir Hajibeyli was also presented at the Royal Society of Arts, one of the United Kingdom's prestigious centres of science and culture, where the film Arshin Mal Alan was screened.

As part of the visit, the Azerbaijani scholars met with Professor Siddharth Saxena, Director of the Centre of South Asian Studies' Central Asia Forum at Jesus College, University of Cambridge. During the meeting, opportunities for presenting Azerbaijani classical figures to English-speaking audiences within the framework of the "Azerbaijani Culture – 2040" Concept, approved by the President of Azerbaijan, as well as prospects for cooperation in this area, were discussed.



Anca Cucu, Aynurə Musayeva (soldan 3-cü və 4-cü)

MƏZUNLAR ÜÇÜN BEYNƏLXALQ KARYERA İMKANLARI

Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzi məzunlarla davamlı əlaqələrin qurulmasına, onların peşəkar inkişafının dəstəklənməsinə və beynəlxalq karyera imkanlarına çıxışının genişləndirilməsinə xüsusi önəm verir. Mərkəzin işəgötürənlərlə əməkdaşlığı və məzunlarla qurduğu əlaqələr bu istiqamətdə yeni imkanların yaranmasına xidmət edir.

Bu çərçivədə, Yunanıstanın Rodos adasında 2027-ci ilin yazında fəaliyyətə başlaması planlaşdırılan beşulduzlu Avelia MGallery Rhodes hotelində müxtəlif vəzifələr üzrə vakansiyalar ilkin mərhələdə Xəzər Universitetinin məzunlarına təqdim olunub. Təşəbbüsün növbəti mərhələsində namizədlərlə üzbəüz müsahibələrin keçirilməsi məqsədilə hotelin nümayəndə heyəti Bakıya səfər edib.

2026-cı il oktyabrın 13-də Sapphire Inn Hoteldə keçirilən müsahibələrə Xəzər Universitetinin məzunları iştirak ediblər. Müsahibələrdə hotelin İdarə Heyətinin üzvü Roula Soulunia, İnsan Resursları üzrə direktoru Anca Cucu və Xəzər Universitetinin məzunu, hotelin açılışöncəsi əməliyyatlar komandasının üzvü Aynurə Musayeva qatılıblar.

Front Office & Guest Relations, Food & Beverage və Spa istiqamətləri üzrə vakansiyalar məzunlara beynəlxalq hotelçilik sektorunda karyera qurmaq,

INTERNATIONAL CAREER OPPORTUNITIES FOR GRADUATES

Khazar University's Career and Alumni Centre places particular emphasis on maintaining the lasting connections with graduates, supporting their professional development, and expanding their access to international career opportunities. The Centre's cooperation with employers and its engagement with alumni help create new opportunities in this area.

In this context, vacancies for various positions at the five-star Avelia MGallery Rhodes hotel, scheduled to open in spring 2027 on the Greek island of Rhodes, were initially offered to Khazar University graduates. As the next stage of this initiative, a delegation from the hotel travelled to Baku to conduct face-to-face interviews with candidates.

Khazar University graduates took part in the interviews held at Sapphire Inn Hotel on October 13, 2026. The interviews were attended by Roula Soulounia, a member of the hotel's Management Board; Anca Cucu, Director of Human Resources; and Aynura Musayeva, a Khazar University graduate and member of the hotel's pre-opening operations team.

The vacancies in Front Office and Guest Relations, Food and Beverage, and Spa offer graduates opportunities to pursue careers in the international hospi-

beynəlxalq iş mühitində təcrübə qazanmaq və peşəkar bacarıqlarını inkişaf etdirmək imkanı yaradır.

Bu təşəbbüs Karyera və Məzunlar Mərkəzinin məzunlarla əməkdaşlığının, onların karyera ehtiyaclarına uyğun imkanların müəyyənləşdirilməsinin və universitet– işəgötürən– məzun əlaqələrinin inkişaf etdirilməsinin əhəmiyyətini nümayiş etdirir.

Xəzər Universitetinin Karyera və Məzunlar Mərkəzi məzunlarla əlaqələri möhkəmləndirməyə, işəgötürənlərlə əməkdaşlığı genişləndirməyə və məzunların yerli və beynəlxalq əmək bazarında rəqabət qabiliyyətini artırmağa yönəlmiş təşəbbüslərini davam etdirir.

tality sector, gain experience in an international work environment, and develop their professional skills.

This initiative demonstrates the importance of the Career and Alumni Centre's engagement with graduates, identifying opportunities that meet their career needs, and strengthening university–employer–alumni relations.

Khazar University's Career and Alumni Centre continues to pursue initiatives aimed at strengthening ties with graduates, expanding cooperation with employers, and enhancing graduates' competitiveness in local and international labour markets.

TƏLƏBƏ ELMİ İŞİ BEYNƏLXALQ KONFRANSIN MATERİALLARINDA DƏRC OLUNUB

STUDENT`S RESEARCH PAPER PUBLISHED IN INTERNATIONAL CONFERENCE PROCEEDINGS



Asim Əmrahov

Xəzər Universitetinin Kimya və kimya mühəndisliyi departamentinin kimya mühəndisliyi ixtisası üzrə təhsil alan II kurs tələbəsi Asim Əmrahovun elmi işi Rusiyanın Tuapse şəhərində keçirilmiş "Koordinasion birləşmələrin spektroskopiyası" adlı XXI Beynəlxalq Konfransın materiallarında dərc olunub.

"Complexation Study of Ag (I) with 1,3-bis (2E)-3-(naphthalen-1-yldiazenyl)-4-oxopentan-2-ylidene) thiourea" adlı elmi iş Kimya və kimya mühəndisliyi departamentinin müdiri Dr. Tahir Cavadzadənin elmi rəhbərliyi altında yerinə yetirilib.

Tədqiqat işində gümüş (I) ionlarının sintez edilmiş yeni üzvi reagentlə kompleks əmələgətirmə xüsusiyyətləri ekstraksiya-spektrofotometrik üsulla araşdırılıb. Əldə edilən nəticələr gümüşün iz miqdarlarının təyini üçün analitik metodların inkişafına töhfə verir.

A research paper by Asim Amrahov, a second-year Chemical engineering student of the Department of Chemistry and Chemical engineering at Khazar University, has been published in the proceedings of the XXI International Conference on Spectroscopy of Coordination Compounds, held in Tuapse, Russia.

The research, entitled "Complexation Study of Ag (I) with 1,3-bis((2E)-3-(naphthalen-1-yldiazenyl)-4-oxopentan-2-ylidene)thiourea" was carried out under the scientific supervision of Dr. Tahir Javadzade, Head of the Department of Chemistry and Chemical Engineering.

The study investigates the complex formation of silver(I) ions with a synthesized new organic reagent using an extraction-spectrophotometric method. The findings contribute to the development of analytical methods for the determination of trace amounts of silver.

BİŞKEKDƏ AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATINA HƏSR OLUNMUŞ BEYNƏLXALQ ELMİ SİMPOZİUM

8-9 oktyabrda Qırğızıstanın paytaxtı Bişkek şəhərində "Türk Dünyasında Azərbaycan Dili və Ədəbiyyatı Araşdırmaları-3" adlı beynəlxalq elmi simpozium keçirilib. Konfrans Yusif Balasaqunlu



Hamlet İsaxanlı

adına Qırğız Milli Universitetinin və I Bakı Türkoloji Qurultayının 100-cü ildönümünə həsr olunub.

Simpoziumun açılış mərasimində Yusif Balasaqunlu adına Qırğız Milli Universitetinin rektoru, professor Doqdurbek Çontoyev, TÜRKSOY-un Azərbaycan üzrə nümayəndəsi Vüqar Məmmədov, Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov və Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı çıxış ediblər.

Elmi simpoziumda Azərbaycan, Qırğızıstan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Fransa və digər ölkələrdən alimlər və tədqiqatçılar iştirak ediblər. Simpozium çərçivəsində Azərbaycan dilinin tədqiqinin aktual məsələləri, Azərbaycan ədəbiyyatı ilə türk xalqlarının ədəbi əlaqələri, türk xalqlarının ortaq ədəbi irsi və Azərbaycan dili və ədəbiyyatının xarici ölkələrdə tədrisi müzakirə olunub.

Simpoziumda Prof.Akad. Hamlet İsaxanlı ilə

(*Davamı 84-cü səh-də*)

INTERNATIONAL SCIENTIFIC SYMPOSIUM ON AZERBAIJANI LANGUAGE AND LITERATURE HELD IN BISHKEK

An international scientific symposium titled "Azerbaijani Language and Literature Studies in the Turkic World-3" was held in Bishkek, the capital of Kyrgyzstan, on October 8–9. The conference was dedicated to Kyrgyz National University named after Yusuf Balasagyn and to the 100th anniversary of the First Baku Turkological Congress.

Speaking at the opening ceremony were Professor Dogdurbek Chontoyev, Rector of Kyrgyz National University named after Yusuf Balasagyn; Vugar Mammadov, TÜRKSOY's Representative for Azerbaijan; Latif Gandilov, Azerbaijan's Ambassador to Kyrgyzstan; and Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees.

Scholars and researchers from Azerbaijan, Kyrgyzstan, Türkiye, Kazakhstan, Uzbekistan, Turkmenistan, France, and other countries took part in the scientific symposium. The symposium discussed current issues in the study of the Azerbaijani language, literary ties between Azerbaijani literature and the Turkic peoples, the shared literary heritage of the Turkic peoples, and the teaching of Azerbaijani language and literature abroad.

Alongside Prof. Acad. Hamlet Isakhanli, Khazar was represented at the symposium by Milana Abbasova, Dean of the School of Humanities, Education and Social Sciences; Dilbar Zeynalova, Head of the Department of Languages and Literatures; Professor Badirkhan Ahmadov; and Associate Professor Ulvi Babasoy.

In conclusion, a decision was adopted on expanding international scientific cooperation in the field of Turkology, implementing joint research projects, supporting young scholars, and jointly studying the language, literature, and cultural heritage of the Turkic peoples. The symposium is of great importance for promoting the

(*To be continued p.84*)







yanaşı, "Xəzər"i Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Milana Abbasova, Dillər və ədəbiyyatlar departamentinin müdiri Dilbər Zeynalova, professor Bədirxan Əhmədov və dosent Ülvi Babasoy təmsil ediblər.

Yekunda türkologiya sahəsində beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi, ortaq tədqiqat layihələrinin həyata keçirilməsi, gənc alimlərin dəstəklənməsi, eləcə də türk xalqlarının dil, ədəbiyyat və mədəni irsinin birgə öyrənilməsinə dair qərar qəbul edilib. Simpozium Azərbaycan dili və ədəbiyyatının beynəlxalq səviyyədə tədqiqinin təşviqi, elmi əlaqələrin möhkəmləndirilməsi və türk dünyasında akademik əməkdaşlığın inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

Yusif Balasaqunlu adına Qırğız Milli Universitetinin rektoru, professor Doqdurbek Çontoyev və Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı qarşılıqlı əməkdaşlıq çərçivəsində memorandum imzalayıblar.

Konfransın mədəni proqramı çərçivəsində Bişkek şəhəri, İssık-Kul və Ala-Arça Milli Parkına ekskursiya olub.

Xatırladaq ki, "Türk Dünyasında Azərbaycan Dili və Ədəbiyyatı Araşdırmaları" beynəlxalq elmi simpoziumu 2024-cü ildə Bakıda Xəzər Universitetində, 2025-ci ildə isə Türkiyənin Qars şəhərində Kafkas Universitetində keçirilib.



study of Azerbaijani language and literature at the international level, strengthening scientific ties, and developing academic cooperation in the Turkic world.

Professor Dogdurbek Chontoyev, Rector of Kyrgyz National University named after Yusuf Balasagyn, and Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, signed a memorandum within the framework of mutual cooperation.

As part of the conference's cultural program, excursions were organized to the city of Bishkek, Issyk-Kul, and Ala-Archa National Park.

It should be recalled that the international scientific symposium "Azerbaijani Language and Literature Studies in the Turkic World" was held in 2024 at Khazar University in Baku, and in 2025 at Kafkas University in Kars, Türkiye.

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN TÜRK-İSLAM İRSİ BEYNƏLXALQ SİMPOZİUMDA MÜZAKİRƏ OLUNUB

Xəzər Universitetində Tarix və arxeologiya departamentinin təşkilatçılığı, departamentin müdiri Dr. Telman Nüsrətoğlunun layihə rəhbərliyi ilə oktyabrın 21-də



Hamlet İsaxanlı



"Qarabağ və Şərqi Zəngəzurun Türk-İslam Abidələri" mövzusunda beynəlxalq simpozium keçirilib. Tədbirdə alimlər, tədqiqatçılar və rəsmi qonaqlar bölgənin tarixi-mədəni irsinin öyrənilməsi, qorunması və tanıdılması məsələlərini müzakirə ediblər.

(*Davamı 86-cı səh-də*)

TURKIC-ISLAMIC HERITAGE OF KARABAKH AND EASTERN ZANGEZUR DISCUSSED AT INTERNATIONAL SYMPOSIUM

An international symposium entitled "Turkic-Islamic Monuments of Karabakh and Eastern Zangezur" was held at Khazar University on October 21, organized by the Department of History and Archaeology and led by the department's head, Dr. Telman Nusratoglu. Scholars, researchers, and official guests discussed issues related to the study, preservation, and promotion of the region's historical and cultural heritage.



Birol Akgün



The plenary session featured addresses by project director Dr. Telman Nusratoglu; Prof. Acad. Hamlet

(*To be continued p.86*)



Telman Nüsrətoğlu



Fazil Mustafa

Dr. Telman Nüsrətoğlu, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, Türkiyənin Azərbaycandakı səfiri Prof. Dr. Birol Akgün, millət vəkili Tural Gəncəliyev, Milli Məclisin komitə sədri Dr. Fazil Mustafa, eləcə də AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktor müavini Dr. Pərviz Qasımov çıxış ediblər.

Çıxışlarda Qarabağ və Şərqi Zəngəzurun mədəni irsinin elmi əsaslarla araşdırılmasının, abidələrin sənədləşdirilməsinin və qorunmasının vacibliyi vurğulanıb. Natiqlər bu irsin tədqiqində Azərbaycan



Tural Gəncəliyev



Hikmət Babaoğlu

Chairman of its Board of Directors and Trustees; Prof. Dr. Birol Akgün, Ambassador of Türkiye to Azerbaijan; Member of Parliament Tural Ganjaliyev; Dr. Fazil Mustafa, Chair of a committee of the Milli Majlis; and Dr. Parviz Gasimov, Deputy Director of the Institute of Archaeology and Anthropology of ANAS.

The speakers emphasized the importance of scientifically grounded research into the cultural heritage of Karabakh and Eastern Zangezur, as well as the documentation and preservation of historical monuments. They also highlighted the significance of cooperation between Azerbaijani and Turkish



İbrahim Ethem Atnur



Sadık Çetin

və Türkiyə alimləri arasında əməkdaşlığın əhəmiyyətinə də toxunublar.

Simpoziumun məruzə və müzakirələrində bölgənin türk varlığının tarixi mənbələr əsasında araşdırılması, Şuşanın Türk-İslam şəhər kimliyi, Zəngəzurda 1918–1920-ci illərdə baş vermiş hadisələr və mədəni irsə vurulmuş ziyan, Qarabağ xanlığı dövrünün memarlığı, məscidlər, vəqf sənədləri, epiqrafik irs və abidələrlə bağlı folklor nümunələri kimi mövzular təqdim olunub.

Məruzələrdə, həmçinin, Qarabağ və Şərqi Zəngəzur abidələrinin tarixi mənbələrdəki təsviri, onların bərpası və mədəni yaddaşın qorunması, abidələrin elmi və ictimaiyyətə təqdimatı, eləcə də toponimlərin müasir arxeoloji tədqiqatlarda əhəmiyyəti müzakirə edilib. Tədqiqatçılar abidələrin qorunması və bərpası prosesində tarixi həqiqiliyin, kitabələrin və yerli yaddaşın nəzərə alınmasının vacibliyini qeyd ediblər.

Beynəlxalq simpozium Qarabağ və Şərqi Zəngəzurun Türk-İslam irsinin müxtəlif elmi istiqamətlərdən araşdırılması, tarixi-mədəni abidələrin öyrənilməsi və bu sahədə mütəxəssislər arasında elmi fikir mübadiləsinin genişləndirilməsi məqsədi daşıyır.

scholars in researching this heritage.

The presentations and discussions addressed a range of topics, including the study of the historical presence of Turkic peoples in the region based on historical sources, Shusha's Turkic-Islamic urban identity, events that took place in Zangezur in 1918–1920 and the damage inflicted on cultural heritage, architecture from the period of the Karabakh Khanate, mosques, waqf documents, epigraphic heritage, and folklore associated with historical monuments.

The presentations also examined depictions of monuments in Karabakh and Eastern Zangezur in historical sources, their restoration and the preservation of cultural memory, the academic study and public presentation of monuments, and the significance of toponyms in contemporary archaeological research. Researchers stressed the importance of taking historical authenticity, inscriptions, and local memory into account during the preservation and restoration of monuments.

The international symposium aimed to facilitate the study of the Turkic-Islamic heritage of Karabakh and Eastern Zangezur from various academic perspectives, advance research into historical and cultural monuments, and expand scholarly exchange among specialists in the field.

DÜNYANIN ƏN UZUN GÖLÜ: DÖRD ÖLKƏNİ BİR-BİRİNƏ BAĞLAYIR



Şərqi Afrikada yerləşən və hövzəsində 10 milyon insanın yaşadığı Tanqanika gölü "Ginnesin Rekordlar Kitabı" tərəfindən dünyanın ən uzun şirin sulu gölü olaraq rəsmən tanındı.

Dörd ölkənin sərhədi Tanzaniya, Demokratik Konqo Respublikası, Burundi və Zambiya sərhədlərindən keçən Tanqanika gölü, dünyanın ən uzun gölü ünvanını aldı. Bu qeydiyyat, 9-13 milyon illik tarixə malik olan gölün qlobal hidroloji və ekoloji xəritələrdəki önəmli mövqeyini təsdiqlədi.

Tanqanika gölünün coğrafi xüsusiyyətləri:

Gölün eni 16 ilə 72 kilometr arasında dəyişir.

Həcm baxımından dünyanın ən böyük ikinci şirin su ehtiyatı olmaqla yanaşı, yer kürəsinin ən qədim ikinci gölüdür.

Orta dərinliyi 570 metrdir, bəzi nöqtələrdə isə 1436 metrə çataraq, Afrikanın ən dərin, dünyanın isə ikinci ən dərin gölü hesab olunur.

Dəniz səviyyəsindən 662 metr aşağıda yerləşdiyi üçün "kriptodepresiya" zonası olaraq təsnif edilir.

Göl hövzəsi 500-ü yalnız bu bölgəyə xas (endemik) olmaqla, ümumilikdə 2 mindən çox canlı növünə ev sahibliyi edir. Yerli əhali üçün əsas zülal qaynağı olan bu göldə 250-dən çox çiklid balığı növü ilə yanaşı, timsahlar və begemotlar (su ayğırları) yaşayır.

Tanzaniyadakı "daşlaşdıran" göl: Natron

Tanzaniyanın şimalında, Keniya sərhədinə yaxın yerdə yerləşən Natron gölü isə yüksək qələvi (alkali) quruluşu, dayazlığı və istiliyi ilə bölgədəki digər diqqətçəkən su kütləsidir. Yüksək natrium karbonat ehtiva edən kimyəvi quruluşu sayəsində, gölün sahilində ölən quş və yarasa kimi heyvanların bədənləri təbii yollarla qorunur və kirəclənərək daşlaşmış bir görünüş alır.//Milli.Az

QƏBUL QAYDALARI

DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. htt://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
Xəzər Universitetini seç!

BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Fizika müəllimliyi
- Riyaziyyat və informatika (rəqəmsal bacarıqlar) müəllimliyi
- Elektrik və elektronika mühəndisliyi
- Memarlıq
- İnformasiya təhlükəsizliyi

2 QRUP

- Biznesin idarə edilməsi
- İqtisadiyyat
- Maliyyə
- Marketinq
- Menecment
- Mühasibat
- Turizm işinin təşkili
- Coğrafiya müəllimliyi
- Tarix-coğrafiya müəllimliyi

3 QRUP

- Filologiya (ingilis dili və ədəbiyyatı)
- Tərcümə (ingilis, ərəb, fars və Çin dilləri)
- Xarici dil müəllimliyi (ingilis dili üzrə)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Politologiya
- Beynəlxalq münasibətlər
- Regionşünaslıq

4 QRUP

- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti
- Biotexnologiya

5 QRUP

- Dizayn (qrafik dizayn, interyer dizaynı və landşaft dizaynı)
- Təsviri incəsənət müəllimliyi